24 may 2019-cu il
№19 (8834)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

**Bu sayımızda**

İtaliya-Azərbaycan Dizayn Mərkəzinin açılışı olub
⇨səh.3

“Şagirdləri sevərək öyrədirsənsə qarşılığını alacaqsan”
⇨səh.10

“Made in Azerbaijan 2019” müsabiqəsinin qalibləri
⇨səh.11

Sosial şəbəkələrdə şagirdlərin profilləri təhlil olunacaq
⇨səh.12

# Ali məktəblərə müsabiqədənkənar qəbul

## Azərbaycan təhsil müəssisələrinə müsabiqədənkənar qəbulun həyata keçirilmə mexanizmi işə düşdü



Azərbaycanda 2018-ci il qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədi ilə atılan addımlarla yadda qaldı. Xüsusən, ötən dərs ilinin sonunda Təhsil Nazirliyinin təşəbbüsü ilə hazırlanan “Təhsil haqqında” Qanuna dəyişikliklərlə bağlı təkliflər paketi Milli Məclisdə qəbul edildi. Nəticədə sözügedən qanuna 62 düzəliş edildi. Bundan sonra təhsil sahəsində bir sıra qaydalarda ciddi dəyişikliklər həyata keçirildi. Artıq həmin dəyişikliklərin həyata keçirilməsi qaydaları da müəyyənləşməkdədir. Qanunda həyata keçirilən həmin dəyişikliklərlə bağlı Nazirlər Kabineti tətbiq ediləcək bir neçə qaydanı təsdiqlədi.

**Bakalavrlar subbakalavr, subbakalavrlar isə bakalavr təhsili ala biləcək**

Dəyişikliklərdən biri orta ixtisas və ali təhsil müəssisələrində təhsil alanları əhatə edir. Belə ki, “Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları”nın təsdiq edilməsi ilə sözügedən təhsil pilləsinə tələbə qəbulunda yeni qaydalar icraya yönəldildi.

⇨Ardı səh.4

# Bahalı təhsil

Ən nüfuzlu ali məktəblərin beynəlxalq təsnifatında ABŞ universitetlərinin dominantlıq etdiyi dövrdə yaşayırıq. Maliyyə nöqteyi-nəzərdən baxsaq, Amerika iqtisadiyyatı ölkələr arasında ən irisidir, ancaq onu da bilməmiş deyilik ki, dünya ÜDM-nin cəmi dörddəbiri ABŞ-ın payına düşür. İqtisadiyyatla təhsil arasındakı münasibətlərə nəzər yetirsək görərik ki, ilk “yüzlük”də olan ali məktəblərin tən yarısı Amerika universitetləridir. Tez-tez belə bir deyimə rast gəlirik: heç də ən yaxşı ən bahalı olan deyil. Heç belə bir halla rastlaşmamısınız: aptekdə satılan ən ucuz dərman bəzən ən effektli olur? Görünür, bu yanaşmanın ali təhsilə heç bir dəxli yoxdur, yaxud böyük ölçüdə dəxli yoxdur - dünyanın ən nüfuzlu universitetləri həqiqətən də ən bahalı olanlarıdır və onların böyük əksəriyyəti ABŞ-da fəaliyyət göstərir.

**Ən bahalılar**

Hansı reytinqə nəzər yetirsəniz, görəcəksiniz ki, siyahıdakı ali məktəblərin azı yarısı ABŞ mənşəlidir. İstər nüfuzuna görə, istər qiymətinə. Mövzumuz bahalı təhsil haqqı olduğundan, reytinq cədvəlinə bu prizmadan nəzər yetirək və görək ABŞ-ın ən çox maddi vəsait tələb edən ali təhsil ocaqları hansılardır.

Çikaqo yaxınlığında fəaliyyət göstərən Şimal-Qərb Universitetində (Northwestern University) illik təhsil haqqı təqribən 58 min dollardır. Nyu-York Universitetində də qiymət təqribən eynidir. Bu universitet vəsaiti ən nüfuzlu məktəb olub. Ancaq təqribən 3 milyard dollarlıq ianə hesabına ali məktəb dünyada ən nüfuzlularından birinə çevrilib. 1841-ci ildə yaradılmış, Manhetten və Bronksda korpusları olan Fordham Universiteti (58 min dollar) tək təmirə 8-10 milyon dollar vəsait xərcləyir. Dünyanın 110 ölkəsindən tələbəsi olan Vaşinqton Universitetində (58 min dollar) 200-ə yaxın təşkilat tələbə ittifaqı (illik büdcəsi 2 milyon dollardır) tərəfindən maliyyələşdirilir. 1754-cü ildə yaradılan Kolumbiya Universitetində də təhsil haqqı 59 min dollar civarındadır. Çikaqo Universiteti (59 min dollar) 250 binada yerləşir. Tək kitabxananın tikintisi 81 milyon dollara başa gəlib. İllik təhsil haqqı 57 min dollar həddində olan Con Hopkins Universiteti son 30 ildə tibb və mühəndislik sahəsindəki araşdırmalara ən çox pul ayıran elm-təhsil ocağıdır. ABŞ-ın ən bahalı ali məktəb kimi tanınan Sara Lourens Kollecində oxumaq bir ilə 61 min dollardan baha başa gəlir. Adı kollec olaraq təsnifatlansa da, ABŞ-ın ən nüfuzlu ali məktəblərindən biridir. 1926-cı ildə iri daşınmaz əmlak sahibi olan Uilyam Van Düzer Lourens tərəfindən açılıb və təhsil ocağına onun həyat yoldaşının adı verilib. Özəlliyi bundan ibarətdir ki, hər bir tələbəyə hədsiz dərəcədə fərdi yanaşma tətbiq olunur. Manhettenin 24 km-də yerləşən ali məktəbdə əsasən humanitar yönümlü təhsil verilir. Bahalı olduğu qədər də əlçatmazdır - bu ali məktəbə daxil olmaq çox çətindir. Hər müəllimə 9 tələbə düşür. Təhsil cənnəti!

⇨Ardı səh.16

# Məktəbə aparan rahat yol

Balaca barmaqlarının böyük qələm tutması üçün uşaqların 6, hətta 7 yaşına qədər böyüməyini gözləməyə ehtiyac yoxdu. Araşdırmalar da göstərir ki, insan daha kiçik yaşlardan öyrənməyə başlayanda, təhsili daha keyfiyyətli, dünyagörüşü daha zəngin, intellekti yüksək olur. Elə ona görə də bir neçə ildir ki, yetişməkdə olan nəslin kiçik üzvləri 5 yaşına çatan kimi məktəblərə cəlb edilirlər. Körpə məktəblilər ana qucağından çıxmağı, sinifdə, parta arxasında oturmağı öyrənir. Ailələr də artıq bilir ki, uşaq 5 yaşına çatdısa, deməli, müəllimə alışmağın, yaşıdları ilə vaxt keçirməyin, böyük hərfləri tanımağın, əşyaları tapıb göstərməyin vaxtıdır.

**Ana qucağından məktəbin ağuşuna**

Bu da məktəb. Balaca Xədicə bu il ilk dəfə məktəbə addım atacaq, müəllimi tanıyacaq, özünə yeni dostlar tapacaq. İlk dəfə anasının sadəcə ona məxsus qucağından çıxıb məktəbin sonsuz, yüzlərlə onun kimi uşaqlara açıq olan ağuşunda özünə yer qazanacaq. O da artıq bir neçə ildir ki, dövlət ümumtəhsil məktəblərində təşkil edilən məktəbəhazırlıq qruplarından birində məşğələlərə başlayacaq. Özü kimi, 5 yaşı bu il tamam olan uşaqlarla həftənin 4 günü, 2 saat ərzində rəqəm sayıb, hərf öyrənib, oyun quracaq. Bu, onun üçün bir başlanğıc olacaq. Daha sonra həyatı, düzgün yaşamağı, payını bölüşməyi, sevincini paylaşmağı öyrənəcək. Bir sözlə, öyrənəcəyi hələ çox şey var. Məktəbəhazırlıq bir başlanğıc olacaq. Kiçik ana qucağından böyük, rəngli dünyaya gedən yolun başlanğıcı.

⇨Ardı səh.7

# Uğur əngəl tanımaz...

## Mən uşaqlara təkcə dilimizi, ədəbiyyatımızı öyrətmirəm, həm də həyat dərsi verirəm

Bir gecədə 30-40 yaş böyüyə bilərmi insan? Ola bilirmiş, oldu, böyüdüm...

24 yaşında, gənc, gözəl sayıla biləcək qədər bütün kriteriyalara cavab verə bilən, gələcəkdən ümidləri, arzuları, karyerası ilə bağlı geniş planları olan bir “qızcığaz” ikən, taleyin gözlənilməz sürprizi ilə birdən-birə hər şey dəyişdi həyatımda.

Ömrüm boyu (24 illik ömür qısa da olsa) heç bir neqativliklə qarşılaşmamışdım. Yəni, elə də böyüdüləcək qədər çətin, ağır uşaqlığım, sıxıntılarım, “acı tale”yim, “silinməz xatirələr”im olmayıb. Əksinə, həyat mənə çox əliaçıq davranmışdı (Sən demə, mən elə zənn edirmişəm). Qayğıkeş, savadlı anam, çoxlarının qibtə etdiyi, ailəcanlı atam, ağıllı bacım, sakit, firavan mühit. İnsana başqa nə lazımdır ki? Bircə, cansağlığı...

Bəli, cansağlığı. “Təki sağlıq olsun”. Bu ifadəni dəfələrlə eşitmişdim, çox sevdiyim filoloq peşəsinə də yiyələnmişdim, hətta ixtisasım üzrə magistr dərəcəsi də almışdım, sənədlərimi aspiranturaya təqdim etməyə hazırlaşırdım, idealist fikirlərim var idi... Amma bircə mürəkkəb söz - “cansağlığı” sözünün tam mahiyyətini dərk etmədən, linqvist olmağa hazırlaşasan, böyük əsərlərin dil xüsusiyyətlərini, dilimizin qrammatik, leksik, semantik quruluşunu öyrənəsən- təzada baxın. Ədəbiyyatşünaslıqda “aksimoron” deyirlər buna.

Həyat ən böyük müəllimdir. Ölkənin ən sayılıb-seçilən dilçi-alimlərindən 6 il boyunca öyrənə bilməmişdim bu sözün mənasını, həyat bircə günə öyrətdi mənə. Bir itki və bir tapıntı- sağlamlığımı itirdim, amma ixtisasımla bağlı böyük tapıntı idi- “cansağlığı” sözünün leksik mənasını iliklərimə işləyənəcən hiss edərək öyrəndim. Məncə, pis gəlir deyil.

Uşaqlıqdan öz yaşıdlarımdan həmişə boyca hündürlüyümə görə fərqlənmişəm. Boyun hündürlüyü addımların ölçüsünü artırır (Ucaboy insanlar bunu yaxşı bilir) və adam digərlərindən cəld yeriyir, hədəfinə daha tez çatır, çevik olursan. Mən də beləydim, yadımdadır, həm məktəbdə, həm universitetdə nə tələsik bir iş olsa yoldaşlarım məni göndərərdi.

Həmişə cəld yeriyən, sürətlə addımlayan, liftdən istifadə etməyən mən. Bir gün adicə günlərdən birində “28 may” metrosundan çıxıb universitetə doğru həmişəki kimi cəld, çevik yeriyərkən yeriyə bilmədiyimi, sanki addımlarımın ağırlaşdığını, müvazinətimin itdiyini, yorulduğumu hiss etdim. Özümü toplayıb universitetə çatdım. Filologiya fakültəsinə ayrılan otaq III mərtəbədə yerləşir - pillələnləri qalxa bilmirəm, “Mənə noldu belə? Bu diplom müdafiəsi lap haldan saldı məni! Tez Bilal müəllimlə vidalaşım, kitabxanaya düşüm çıxışımı alım gedim daha bir az dincəlim, magistr tələbəsiyəm artıq daha” dedim öz-özümə.

⇨Ardı səh.8



# STEM təhsilin mənzərəsini dəyişir

## Hədəf 4S bacarıqlarının inkişafına yönəldilib

Səh.9

# “Bir” Tələbə-Könüllü proqramından yeni layihəyə dəstək

Təhsil Nazirliyinin “Bir” Tələbə-Könüllü proqramı Bakı Nəqliyyat Agentliyi tərəfindən həyata keçirilən “Səyahətin başlanğıcı və son nöqtəsi” adlı layihəyə dəstək verib.

Layihənin məqsədi paytaxtın avtobus marşrut şəbəkəsinin müasirləşdirilməsi və optimallaşdırılması işində sərnişinlərin birbaşa iştirakını təmin etməkdir ki, bu da ictimai iştirakçılıq baxımından mühüm əhəmiyyət daşıyır.

Bu məqsədlə aparılan sorğuda 203 könüllü 600-dək dayanacaqda 30000 nəfərə yaxın müxtəlif yaş qruplarından olan paytaxt sakininin rəyini öyrənib.

Qeyd edək ki, “Bir” Tələbə-Könüllü proqramının milli könüllü platforması kimi 21000-dən çox tələbə-könüllü üzvü var. Tələbələrin şəxsi inkişafı, asudə vaxtını səmərəli dəyərləndirilməsi, vahid könüllü bazasının yaradılması istiqamətdə fəaliyyət göstərən proqram tərəfindən indiyədək 450-dən çox yerli və beynəlxalq tədbirə dəstək verilib. “BİR” könüllü olmaq istəyən tələbələr *www.konullu.edu.az* saytı vasitəsilə qeydiyyatdan keçə və proqrama qoşula bilərlər.

## RƏSMİ XRONİKA



- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın, Çin Xalq Respublikasının Xarici İşlər naziri Van Yinin başçılıq etdikləri nümayəndə heyətlərini qəbul edib.
- Mayın 22-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak ediblər. Ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli abidəsinin önündə sakinlərlə görüşüb söhbət ediblər.
- Dövlət başçısı İlham Əliyev mayın 22-də “Azərbaycan Respublikasının Dövlət himni haqqında” Azərbaycan Respublikasının 1992-ci il 27 may tarixli 142 nömrəli Qanununun ləğvi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1546-VQ nömrəli Qanununun tətbiqi haqqında sərəncam imzalayıb.
- Mayın 22-də ölkə başçısı İlham Əliyev “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1553-VQD nömrəli Qanununun tətbiqi haqqında sərəncam imzalayıb.
- Mayın 22-də dövlət başçısı İlham Əliyev “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1554-VQD nömrəli Qanununun tətbiqi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Prezidenti İlham Əliyev mayın 21-də Rusiya Federasiyası Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevi qəbul edib.
- Mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak edib, yeni inşa edilən Bakı şərnişin - Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olub. Dövlət başçısı qəsəbə sakinləri ilə görüşüb, sonra yaxınlıqdakı mağazaya gələrək, alıcılar və satıcılar ilə söhbət edib.
- Mayın 21-də ölkə başçısı İlham Əliyev “Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev mayın 20-də Zurab Konstantinoviç Seretelinin “Dostluq” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Mayın 20-də dövlət başçısı İlham Əliyev Kürdəmir rayonunda “ASAN xidmət” mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev mayın 18-də Hüseyn İbrahimovun 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Prezidenti İlham Əliyev mayın 17-də Ukraynanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevskinin etimadnaməsini qəbul edib.
- Mayın 17-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova ilə görüşüblər. Dövlət başçısı İrina Viner-Usmanovaya “Dostluq” ordenini təqdim edib.
- Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib. Dövlət başçısı görüşdə çıxış edib.
- Ölkə başçısı İlham Əliyev mayın 17-də Arif Cahangir oğlu Məlikovun xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam imzalayıb.

# Azərbaycanın Birinci vitse-prezidenti Bakının Kürdəxanı qəsəbəsində olub

### Mehriban Əliyeva qəsəbədəki 113 saylı tam orta məktəbdə müəllim və şagirdlərlə görüşüb

Mayın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində olublar.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva əvvəlcə Kürdəxanı qəsəbəsində Hüseynbala Ağaverdiyev adına 113 saylı tam orta məktəbinə gəldilər.

Məlumat verildi ki, Kürdəxanı qəsəbəsində 6 min nəfər əhali yaşayır. Burada bir məktəb var. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu təhsil ocağının siniflərinə baxdılar, müəllim və şagirdlərlə görüşdülər.



113 saylı tam orta məktəb 2 korpusdan ibarətdir. Birinci korpus 1971-ci ildə inşa olunub. Sonuncu dəfə burada cari təmir işləri 2006-cı ildə aparılıb. Tədrisin Azərbaycan dilində aparıldığı məktəbdə ümumilikdə 2320 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 100 müəllim məşğul olur. Burada tədris 2 növbəlidir.

Mehriban Əliyevaya məlumat verildi ki, məktəbin 2-ci korpusu isə 2008-ci ildə inşa olunub. Birinci vitse-prezident məktəbdə müvafiq təmir-bərpa işlərinin aparılmasına dair göstəriş verdi.

**AZƏRTAC**

# Himayəçilər Şurasının ilk iclası keçirilib

Bakı Dövlət Universitetinin (BDU) Himayəçilər Şurasının ilk iclası keçirilib. İclasda Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva və Himayəçilər Şurasının üzvləri iştirak edib.

Təhsil naziri Ceyhun Bayramov elm və təhsilin inkişaf etdirilməsi, milli təhsilin nüfuzunun yüksəldilməsi, ona əlavə dəstək verilməsi məqsədi ilə yaradılan Himayəçilər Şurasının fəaliyyət istiqamətləri barədə məlumat verib.

Ceyhun Bayramov universitetin strateji inkişaf məsələləri üzrə idarəetmə orqanı olan və ali təhsil müəssisəsinin inkişafına yardım edən Himayəçilər Şurasının ictimai əsaslarla fəaliyyət göstərdiyini bildirib. Nazir qeyd edib ki, Himayəçilər Şurasının yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnamə ilə Nizamnamə ilə müəyyən edilir.

Nazir bu təhsil müəssisəsində tədris-metodiki işlərin həyata keçirilməsi üçün Himayəçilər Şurası tərəfindən Elmi-metodiki Şura yaradılacağını diqqətə çatdırıb. Elmi-metodiki Şuranın yaradılması qaydası və səlahiyyətləri Himayəçilər Şurasının təsdiq etdiyi əsasnamə ilə müəyyən olunur.

Himayəçilər Şurasının üzvləri öz növbəsində gələcək fəaliyyətə dair fikirlərini bildirib və təkliflərlə çıxış ediblər.

Sonra BDU-nun rektoru Elçin Babayev universitetin 100 illik yubileyinin keçirilməsi istiqamətində görülən işlər barədə məlumat verib.



Qeyd edək ki, Himayəçilər Şurası universitetin qanuni fəaliyyətinin həyata keçirilməsində, ali təhsil müəssisəsinin inkişafına mane olan aktual problemləri həll etməkdə köməklik göstərəcək. Bundan başqa, universitetdə təhsil xidmətlərinin rəqabətqabiliyyətliliyinin təmin edilməsi, universitetin tədqiqat və təhsil, mədəni və intellektual mərkəz kimi inkişafına dəstək verilməsi, ali təhsil müəssisəsinin dövlət, ictimai və biznes strukturları ilə əməkdaşlığının təşviq edilməsi Şuranın səlahiyyətlərinə daxildir.

Şura beynəlxalq təhsil, elmi, texniki və mədəni əməkdaşlığın inkişafına yardım etməklə yanaşı, təhsil müəssisəsinə büdcədənkənar vəsaitlərin cəlbi və universitetin infrastrukturunun inkişafı, maddi-texniki bazasına dəstək verilməsi funksiyalarını da həyata keçirəcək.

Xatırladaq ki, Himayəçilər Şurasının tərkibinə Təhsil naziri Ceyhun Bayramov, Ədliyyə nazirinin müavini Azər Cəfərov, AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli, Xalq yazıçısı Elçin Əfəndiyev, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü Roald Saqdeyev, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, “Azərkosmos” ASC-nin sədri Rəşad Nəbiyev, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə heyətinin sədri Fərid Şəfiyev və “BP” şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli daxildir.

## Peşə Təhsili Mərkəzinin tələbələri üçün ekskursiyalar

Qəbələ Dövlət Peşə Təhsili Mərkəzinin “Aqroservis”, “Bitkiçilik” və “Heyvandarlıq” ixtisas qruplarının tələbələri üçün rayonun aparıcı müəssisələrinə ekskursiyalar təşkil olunub.

İlk olaraq “Aqroservis” ixtisas qrupunun tələbələri “Gilan Qəbələ Aqrotexservis” ASC və “Şamlı Aqrotexservis” MMC fermer təsərrüfatında müasir aqrotexniki qurğu və avadanlıqlarla tanış olub, gündəlik iş prosesini əyani izləmək imkanı əldə ediblər.

Növbəti səfər “Bitkiçilik mütəxəssisi” ixtisas qrupunun şagirdləri üçün təşkil olunub. Səfər çərçivəsində tələbələr “Gilan Dairy Farms” MMC-in əkinçilik - toxumçuluq müəssisəsi və südçülük kompleksi ilə tanış olublar. Tələbələr taxıl sahələrinə baxış keçirib, yemçilik bitkilərinin əkilməsi və onlara qulluq edilməsi, cərgəarası becərmə işləri, gübrələrin hazırlanması, saxlanması və verilməsi prosesləri ilə yaxından tanış olublar.

Bundan başqa, rayonda ilk dəfə becərilən lavanda bitkisinin xüsusiyyətləri, əkilməsi və becərilməsi üsulları haqqında iştirakçılara məlumat verilib.

“Heyvandarlıq mütəxəssisi” ixtisas qrupunun tələbələri üçün Azza “Aqro” QSC-yə infotur təşkil olunub. Ekskursiya zamanı tələbələr fermanın quruluşu, heyvanların yetişdirilməsi ilə tanış olub, onların qidalanma prosesini izləyiblər. Eləcə də, şirkət nümayəndələri tələbələrə yemək rasionunun tərkibi və önəmi haqda məlumat verib.

Ekskursiyalar zamanı əsas diqqət tədris edilmiş modullar üzrə tələbələrin biliklərinin daha da möhkəmləndirilməsinə yönəldilib.

Qeyd edək ki, ekskursiyalar Avropa İttifaqının maliyyə dəstəyi ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən icra olunan “Qəbələ, Qax və İsmayıllı rayonlarında kənd təsərrüfatı və turizm sahəsində duala bənzər peşə təhsili və təlimi pilotlarının yaradılması” (ED VET) layihəsi çərçivəsində reallaşdırılıb.

## Lisey və gimnaziyalara qəbulla bağlı müsahibə başlayıb

Mayın 21-dən 2019-2020-ci tədris ilində lisey və gimnaziyaların müəyyənləşdirilmiş ərazisində yaşayan vətəndaşların övladlarının tədris digər dildə aparılan bölmələrinə I sinfə qəbul zamanı uşaqların şifahi nitq bacarıqlarının qiymətləndirilməsi ilə bağlı Müsahibə komissiyası fəaliyyətə başlayıb.

Belə ki, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalar, eləcə də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 160 nömrəli Klassik Gimnaziyanın müəyyənləşdirilmiş ərazisində yaşayan vətəndaşların övladlarının tədris digər dildə aparılan bölmələrinə I sinfə qəbul üzrə müsahibə komissiyası 12 nömrəli tam orta məktəbdə fəaliyyət göstərir.

Qeyd edək ki, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalar, eləcə də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 160 nömrəli Klassik gimnaziyaya I sinfə qəbul üzrə tədris digər dildə aparılan bölmələrinə elektron ərizələrin qeydiyyatı mayın 20-də başa çatıb. Martın 13-dən mayın 20-dək davam edən proses çərçivəsində qeyd olunan ümumi təhsil müəssisələrinə 3426 elektron sorğu yerləşdirilib. Bu sorğulardan 1132-si təlim dili Azərbaycan dili seçildiyi üçün həmin uşaqlar lisey və gimnaziyalara müsabiqədənkənar qəbul olunublar. Lisey və gimnaziyanın ərazisində yaşayan, ancaq digər dildə tədris aparılan bölmə üzrə sorğu yerləşdirənlər isə müvafiq liseyə yerləşdirilər. Uşaqların sorğusu təsdiqləndikdən sonra, uşaq şifahi nitq bacarıqlarının qiymətləndirilməsindən uğurla keçərsə, həmin liseyə qəbul edilmiş hesab ediləcək. Uşaq digər dildə tədris aparılan bölmə üzrə şifahi nitq bacarıqlarının qiymətləndirilməsi zamanı uğur qazanmadıqda həmin lisey və gimnaziyaların yalnız Azərbaycan bölməsinə sorğu yerləşdirə bilər.

Bakı Avropa Liseyi, Respublika İncəsənət Gimnaziyası və Bülbül adına Orta İxtisas Musiqi Məktəbini seçən valideynlərin (qanuni nümayəndələrin) uşaqlarının qəbulu yalnız müsabiqə yolu ilə aparılır.

Ümumilikdə, martın 13-dən ötən müddətdə I sinfə qəbul üzrə 44 536 uşaq elektron qeydiyyatdan keçib. Bu isə paytaxt üzrə I sinfə şagird qəbulu proqnozunun 90 faizinə yaxın göstəricidir. I sinfə şagird qəbulu prosesinin 15 sentyabra kimi davam edəcəyini nəzərə alsaq, təkcə bu rəqəmin özü prosesin nə qədər səmərəli olduğunu deməyə əsas verir.

# Tvinninq layihəsinin İdarəetmə Komitəsinin növbəti iclası keçirilib

Avropa İttifaqının Tvinninq proqramı çərçivəsində Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək" adlı layihənin İdarəetmə Komitəsinin növbəti iclası olub.\

Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsində sektor müdiri Yaşar Ömərov çıxış edərək layihənin ölkəmizdə ali təhsilə verəcək töhfələrindən danışıb, layihə sayəsində ali təhsil sisteminin Avropa Ali Təhsil Məkanına daha da uyğunlaşacağına inamını ifadə edib.

Sonra layihənin Fransadan olan rəhbəri Bruno Kurval, Litvadan olan layihə rəhbəri Giedrius Viliunas və layihənin Latviyadan olan rəhbəri Ramina Baiba çıxış edib, layihənin uğurlu nəticəsinə əmin olduqlarını bildiriblər.

Layihənin Fransa üzrə koordinatoru Liza Baydanovam öz növbəsində ötən dövr ərzində görülən işlərlə bağlı məlumat verib, növbəti rüb ərzində planlaşdırılan tədbirləri diqqətə çatdırıb.

Yekunda layihənin komponent liderləri öz komponentləri çərçivəsində görülən işlərdən məlumat veriblər.

Sonda Komitənin üzvləri tərəfindən növbəti iclasın sentyabrın əvvəlində keçirilməsi ilə bağlı qərar qəbul edilib.

Qeyd edək ki, Fransa, Litva və Latviyadan olan layihə rəhbərləri həmçinin nazirliyin aparat rəhbərinin müavini Yaqub Piriyev və Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, eləcə də Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəhbərliyi ilə görüşlər keçirib və layihənin icrası ilə bağlı məsələləri müzakirə ediblər.

# 21729 məktəbli "Muzey həftəsi"ndə iştirak edib

"Muzeylər və Nəsimi irsi" proqramı üzrə "Məktəblilər üçün muzey həftəsi" yekunlaşıb.

Muzey həftəsində 29 regionun Uşaq-Gənclər İnkişaf Mərkəzindən və Bakı şəhəri üzrə 270-ə yaxın ümumi təhsil müəssisələrindən ümumilikdə 21729 nəfər məktəbli iştirak edib.

Layihə çərçivəsində məktəblilər ölkəmizin milli-mənəvi dəyərləri barədə geniş məlumat əldə ediblər.

"Muzeylər və Nəsimi irsi" proqramı Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəstəyi ilə keçirilir.

Layihənin məqsədi 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə bağlı çoxsaylı araşdırma və əlyazma nümunələrini əyani şəkildə tanıtmaq, şagirdləri ölkəmizin qədim tarixi, milli-mənəvi dəyərləri barədə daha ətraflı məlumatlandırmaqdan ibarətdir.

# LDU orta məktəblərlə əlaqələrini genişləndirir

"Lənkəran Dövlət Universiteti bölgənin orta ümumtəhsil məktəbləri ilə əlaqələri genişləndirməkdə maraqlıdır". Bu sözləri LDU-nun rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov Astara rayonunun Y.Ağayev adına Artupa tam orta məktəbinin müəllim və şagirdləri ilə görüşü zamanı deyib.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Ümumi və ali təhsil müəssisəsi əməkdaşlığı üzrə pilot layihənin tətbiqi barədə" 27 noyabr 2017-ci il tarixli əmrin universitetlə orta ümumtəhsil məktəbləri arasında əlaqələrin qurulmasına müsbət təsir göstərdiyini bildirən universitet rəsmisi qarşılıqlı münasibətlərin hər iki tərəf üçün səmərəli olduğunu qeyd edib. Artupa məktəbinin LDU-ya göstərdiyi marağı yüksək dəyərləndirən professor Natiq İbrahimov məktəbə hərtərəfli qayğı və diqqət göstərməyə, himayədarlıq etməyə hazır olduqlarını bildirib. Belə ki, bundan sonra Artupa tam orta məktəbinin müəllim və şagirdləri universitetin zəngin kitabxanasından, fənn kabinetlərindən, laboratoriyalarından, maddi-texniki bazasından istifadə edə biləcəklər. Eyni zamanda, LDU-nun müəllimlərinin sözügedən məktəbdə nümunəvi dərslər keçməsi, birgə tədbirlərin təşkili qərara alınıb. Natiq İbrahimov qonaqlara LDU-da aparılan son təhsil islahatları, tikilməkdə olan yeni yataqxana binası, tədris korpusları və s. barədə də ətraflı məlumat verib.

Görüşdə məktəbin direktoru Aynur Muradova, müəllimlərdən Nadir Quliyev, Fazil Məmmədov, Rəfael Məmmədov çıxış edərək səmimi qəbula, diqqətə, himayədarlıq təşəbbüsünə görə professor Natiq İbrahimova minnətdarlıqlarını bildiriblər.

Sonda qonaqlara universitetin xatirə hədiyyələri təqdim edilib. Qeyd edək ki, Y.Ağayev adına Artupa tam orta məktəbinin müəllim və şagird kollektivi artıq ikinci dəfədir ki, LDU-ya səfər edir.

# İtaliya-Azərbaycan Dizayn Mərkəzinin açılışı olub



Mayın 20-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) İtaliya-Azərbaycan Dizayn Mərkəzinin açılış mərasimi keçirilib.

Mərasimdə Təhsil naziri Ceyhun Bayramov, İtaliya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Auqusto Massarini, AzMİU-nun rektoru Gülçöhrə Məmmədova və digər şəxslər iştirak edib.

Rektor Gülçöhrə Məmmədova bildirib ki, mərkəzin yaradılmasında əsas məqsəd ölkəmizdə "dizayn" ixtisası üzrə savadlı mütəxəssislər yetişdirmək, dizayn təhsilinin İtaliya dizayn təhsili səviyyəsinə yüksəlməsinə çalışmaqdır. Rektor qeyd edib ki, AzMİU və Milan Politexnik Universitetinin birgə həyata keçirdiyi layihə 2 il müddəti üçün nəzərdə tutulub. Gələcəkdə bu müddətin artırılması, ikili diplom proqramlarının reallaşdırılması qarşıya qoyulmuş məqsədlərdəndir.

Sonra çıxış edən Təhsil naziri Ceyhun Bayramov deyib ki, mərkəzin yaradılması Azərbaycan və İtaliya arasında humanitar sahədə ikitərəfli əməkdaşlığın inkişafına dövlət səviyyəsində verilən yüksək diqqət və önəmin bariz nümunəsidir. Nazir belə bir mərkəzin yaradılmasının adıçəkilən iki universitet arasında faydalı əməkdaşlığın inkişafı üçün geniş imkanlar açacağını vurğulayıb.

Ceyhun Bayramovun sözlərinə görə, mərkəz Azərbaycanda "dizayn" ixtisası üzrə yüksək ixtisaslı mütəxəssis hazırlığının təkmilləşdirilməsinə, bu sahə üzrə iki ölkə arasında tələbə və müəllim mübadiləsinin inkişafına, müvafiq istiqamətdə ortaq tədqiqatların aparılmasına mühüm töhfə verəcək. Hazırda ölkəmizin bir neçə universitetində "dizayn" ixtisası üzrə mütəxəssis hazırlandığına toxunan Təhsil naziri həmin ali təhsil müəssisələrinin də bu layihədən faydalana biləcəyini diqqətə çatdırıb.

Nazir yeni mərkəzin açılışı münasibətilə AzMİU kollektivini təbrik edib və onlara uğurlar arzulayıb.

İtaliya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Auqusto Massarini də öz növbəsində Azərbaycan-İtaliya arasında təhsil sahəsində mövcud əməkdaşlığa toxunub və mərkəzin "dizayn" ixtisasında oxuyan tələbələrin mütəxəssis kimi yetişməsində əhəmiyyətini vurğulayıb.

Çıxış edən digər qonaqlar da mərkəzin açılışını yüksək qiymətləndiriblər.

Sonra mərasim iştirakçıları "dizayn" ixtisası üzrə təhsil alan tələbələrin italyan müəllimlərin rəhbərliyi altında hazırladığı layihələrin təqdimatına baxıblar.

İtaliya-Azərbaycan Dizayn Mərkəzinin direktoru Könül Şirin qonaqları mərkəzin Sürətli Prototipləşdirmə Laboratoriyası, Maket studiyası və Ağac Emalatxanası ilə tanış edib.

# İdman profilli məktəbdənkənar təhsil müəssisələrində mövcud vəziyyətlə bağlı müşavirə





Mayın 22-də idman profilli məktəbdənkənar təhsil müəssisələrində mövcud vəziyyət və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Firudin Qurbanov, məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin əməkdaşları, nazirliyin sistemində fəaliyyət göstərən idman liseylərinin, uşaq-gənclər idman və şahmat məktəblərinin direktorları və digər rəsmi şəxslər iştirak edib.

Tədbirdə çıxış edən nazir müavini Firudin Qurbanov ölkəmizdə bədən tərbiyəsi və idmana göstərilən dövlət qayğısından, bu sahədə Nazirlik tərəfindən görülən işlərdən danışıb. Nazir müavini təhsil alanların sağlamlıqlarının qorunmasında idman və bədən tərbiyəsinin əhəmiyyətinə toxunub.

Çıxışının sonunda Firudin Qurbanov şagirdlərin məktəbdənkənar fəaliyyətə cəlb olunması, məktəblərdə təlim-tərbiyə prosesinin düzgün təşkili, nizam-intizam qaydalarına riayət edilməsi, təhlükəsizlik tədbirlərinin icrası işinin yaxşılaşdırılması və digər məsələlərlə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verib.

Daha sonra "Təhsil" Respublika İdman Mərkəzinin direktoru Natiq Lahıcov mərkəzin illik fəaliyyəti barədə hesabatla çıxış edib. Mərkəz direktoru Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman və şahmat məktəblərinin fəaliyyəti, kadr potensialı, il ərzində idmançıların qazandığı uğur və nailiyyətlər, eləcə də mövcud vəziyyət və qarşıda duran vəzifələr haqqında danışıb.

Müşavirənin sonunda çıxışlar ətrafında müzakirələr aparılıb.

# "STEM-ə doğru addım-addım" adlı konfrans

Mayın 22-də Təhsil Nazirliyinin tabeliyindəki 6 nömrəli məktəb-liseydə "STEM və digər innovativ təhsil proqramlarının tədrisi" çərçivəsində "STEM-ə doğru addım-addım" adlı konfrans keçirilib.

Konfransda Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, məktəb rəhbərləri, "STEM və digər innovativ təhsil proqramlarının tədrisi" ilə bağlı təlimlərdə iştirak etmiş müəllimlər və digər şəxslər iştirak edib.

Tədbirin keçirilməsində məqsəd birgə təlim metodlarına əsaslanaraq 45 dəqiqəlik dərs zamanı eyni mövzunun iki fənn müəllimi tərəfindən tədrisini nümayiş etdirməklə təcrübə mübadiləsi və əməkdaşlığa nail olmaqdır.

Tədbirdə çıxış edən nazir müavini Məhəbbət Vəliyeva STEM təhsil proqramının tətbiqinin əhəmiyyətindən danışıb. STEM-in təhsildə istifadə olunan yeni yanaşmalardan biri olduğunu deyən nazir müavininin sözlərinə görə, bu tədris metodunun əsas məqsədi şagirdlərdə XXI əsr bacarıqlarını formalaşdırmaq və inkişaf etdirməkdir.

Məhəbbət Vəliyeva STEM dərsləri tədris olunan məktəblərdə müəllimlərə xüsusi təlimlər keçirilməsinin də vacibliyini vurğulayıb.

Çıxışının sonunda nazir müavini bu təhsil müəssisəsinin təşəbbüsünü müsbət qiymətləndirib.

Daha sonra çıxış edən "STEM və digər innovativ təhsil proqramlarının tədrisi" ilə bağlı təlimlərdə iştirak etmiş müəllimlər təcrübələrini bölüşüblər. Bildirilib ki, 50 təhsil mütəxəssisi İsraildə və Bakıda 5 həftəlik təlimlərdə iştirak edib. Təlimlər çərçivəsində STEM təhsil proqramının Azərbaycan kurikulumlarına uyğunlaşdırılması və bu məzmunun yerli mütəxəssislərə çatdırılması, məktəblərdə tətbiqi zamanı İsraildən olan mütəxəssislər tərəfindən metodik dəstəyin göstərilməsi üzrə kurslar təşkil olunub.

Tədbirdə məktəb-liseyin builki tədris ilinə dair fəaliyyətini əks etdirən videoçarx da nümayiş olunub.

# UNEC tələbələrinə innovativ və operativ xidmət

UNEC-də tələbələr üçün "Bir pəncərə" xidməti tətbiq olunacaq. Layihənin məqsədi tələbələrə vahid mərkəzə müraciət edərək təhsil haqqında arayışları, transkriptləri, eləcə də digər sənədləri qısa müddətdə əldə etməkdir. Eyni zamanda tələbələrin məmnunluğunu təmin etmək, onların əlavə vaxt itkisinin qarşısını almaq, müraciətlərin idarə olunmasına nəzarəti daha da gücləndirməkdən ibarətdir.

"Bir pəncərə" vasitəsilə tələbələr onlara lazım olan təhsil arayışının hazırlanması üçün şəxsi elektron kabinetlərindən günün 24 saatı sistemə müraciət edə bilərlər. Hazır sənəd sonra elektron formada tələbənin şəxsi kabinetinə göndərilir. Pilot layihə kimi aprel ayından start verilən "Bir pəncərə" sistemi ilk olaraq Maliyyə və mühasibat fakültəsində tətbiq olunub. Bir ay ərzində fakültənin 400-ə yaxın tələbəsinin müraciəti operativ cavablandırılıb və tələbələr lazım olan sənədi qısa müddətdə əldə ediblər.

UNEC-in rektoru, professor Ədalət Muradov və müvafiq struktur rəhbərlərinin iştirak etdiyi "Bir pəncərə" sisteminin təqdimatında layihənin uğurla tətbiq olunduğu bildirilib. Dünyanın aparıcı universitetlərinin təcrübəsi əsasında hazırlanan "Bir pəncərə" sisteminin yeni tədris ilindən UNEC-in bütün fakültələrində tətbiq olunacağı qeyd edilib.

# Ali məktəblərə müsabiqədənkənar qəbul

## Azərbaycan təhsil müəssisələrinə müsabiqədənkənar qəbulun həyata keçirilmə mexanizmi işə düşdü

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

2019-2020-ci tədris ili üzrə tələbə qəbulu zamanı tətbiq ediləcək həmin qaydalara görə, artıq bakalavrlar ali təhsil pilləsi üzrə aldıqları ixtisasdan asılı olmayaraq, orta ixtisas təhsili müəssisələrinə ödənişli əsaslarla müsabiqədənkənar qəbul ola biləcəklər. Eləcə də, subbakalavrlar qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul olmaq imkanı əldə edəcəklər.

### Bəs, qəbul olunmaq üçün onlar hansı proseduradan keçəcəklər?

Orta ixtisas təhsili pilləsində dövlət hesabına təhsil almaq üçün bakalavrlar Dövlət İmtahan Mərkəzi tərəfindən orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqəyə ümumi qaydada qatılırlar. Onlar ərizə ilə qəbul olunmaq istədikləri həmin təhsil müəssisələrinə müraciət edirlər.

Qaydaya görə, hətta ali təhsil pilləsinin bakalavriat səviyyəsini normativ təhsil müddətindən sonrakı 15 il müddətində (həqiqi hərbi xidmət müddəti istisna olmaqla) başa vurmayan və ali təhsil müəssisəsindən xaric olunmuş şəxslər də təhsillərini orta ixtisas təhsili müəssisələrində davam etdirmək hüququna malikdirlər.

Subbakalavrların ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə müsabiqə yolu ilə qəbul olunmasına isə bəzi şərtlər qoyulub. Əvvəla, "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nın 3-cü hissəsi ilə müəyyən olunmuş qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul olunmaq hüququ 2012-ci ildən sonra kolleci bitirənlərə verilib. Ondan əvvəl kollecləri bitirənlər bu imkandan istifadə edə bilmirlər.

Kollec məzunlarından müsabiqəyə qatılmaq üçün Tələbə Qəbulu Qaydalarında göstərilən digər sənədlərlə yanaşı bitirdiyi orta ixtisas təhsili müəssisəsindən alınmış orta müvəffəqiyyət göstəricisi (ÜOMG) və təhsil haqqında sənəd (attestat) tələb edilir. Həmin sənədlərdə uyğunsuzluq aşkar edildikdə və onların aradan qaldırılması mümkün olmadıqda, o, müsabiqədə iştirak edə bilmir. Belə hallar müsabiqədən sonra aşkar edildikdə, subbakalavrın yerləşdirilməsi ləğv edilir.

Bundan başqa, müəyyən edilən şərtlərə görə, subbakalavrın ali təhsil müəssisələrində seçdiyi ixtisas dili mütləq orta ixtisas təhsili pilləsində təhsil aldığı dilə uyğun olmalıdır. İxtisasların uyğunluğunu isə Dövlət İmtahan Mərkəzi (DİM) ilə razılaşdırmaqla, Təhsil Nazirliyi müəyyən edir.

### Subbakalavr abituriyentlə rəqabətdən "məğlub" çıxır

Qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) qəbul olunmaq istəyən subbakalavrlar və qəbul imtahanı verən abituriyentlər müsabiqədə eyni vaxtda iştirak edirlər. Subbakalavrlar müsabiqəyə Mərkəzin Nazirliklə razılaşdırılmaqla, müvafiq ixtisas qrupları (müvafiq ixtisaslar) üzrə müəyyən etdiyi keçid balı əsasında qatılırlar. Ancaq onlar üçün bu proses qəbul imtahanı verən abituriyentlər yerləşdirildikdən sonra başlayır.

Qeyd edək ki, subbakalavrın müvafiq ixtisaslar üzrə müsabiqədə imtahan vermədən iştirak etməsi onu DİM tərəfindən Azərbaycanın ali təhsil müəssisələrinə keçirilən tələbə qəbulu müsabiqəsində ümumi qaydada iştirak etmək hüququndan məhrum etmir. Ali təhsil müəssisələrinə keçirilən tələbə qəbulu müsabiqəsində ümumi qaydada iştirak etməməsi isə subbakalavr üçün maneələr yaradır. Belə ki, seçdiyi ixtisas üzrə minimum keçid balı ilə müsabiqəyə qatılan subbakalavr orta müvəffəqiyyət göstəricisindən asılı olmayaraq, qəbul imtahanında iştirak edərək eyni balı toplayan abituriyentlə rəqabətdən "məğlub" çıxır. Çünki mövcud yerlərə öncə abituriyent yerləşdirilir. Amma iki subbakalavr arasında eyni ixtisas üzrə rəqabət yaranarsa, bu zaman orta ixtisas təhsili müəssisələrindən alınan orta müvəffəqiyyət göstəricisi nəzərə alınır. Yəni, subbakalavrın təhsil aldığı orta ixtisas təhsili müəssisəsindən verilən orta müvəffəqiyyət göstəricisi ona subbakalavrla rəqabətdə üstünlük qazandırır.

Ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə təhsil almaq istəyən subbakalavrlar isə DİM-in təşkil etdiyi qabiliyyət imtahanlarında müəyyən edilmiş cədvəl üzrə ödənişli əsaslarla iştirak edirlər.

### Köçürülmə

Maraqlı dəyişikliklərdən biri də ali təhsilin bakalavriat səviyyəsini başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisəsinə köçürülməsini mümkün edir. Burada mütləq eyni ixtisas qrupu daxilində köçürülmə aparılır. Yəni, ali təhsilin bakalavriat səviyyəsini başa vurmayan şəxslər orta ixtisas təhsili müəssisəsinə köçürülərkən, onların qəbul olunduqları və köçürüldükləri ixtisaslar eyni ixtisas qrupunda olmalıdır.

Xarici ölkələrin təhsil müəssisələrinin və ölkəmizdə fəaliyyətini dayandırmış ali təhsil müəssisələrinin bakalavriat səviyyəsini başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisəsinin vəsatəti əsasında köçürülməsi mümkündür. Azərbaycanda ali təhsilin bakalavriat səviyyəsini başa vurmayan şəxslərin köçürülməsi məsələsinə isə *transfer.edu.az* elektron portalı vasitəsilə Təhsil Nazirliyi baxır.

Xarici ölkədə qiyabi (distant) təhsil alan və ya fəaliyyət göstərdiyi ölkədə akkreditə olunmayan ali təhsil müəssisəsindən Azərbaycan orta ixtisas təhsili müəssisələrinə tələbələrin köçürülməsinə, ümumiyyətlə, yol verilmir. Ancaq əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ali təhsil müəssisəsindən orta ixtisas təhsili müəssisəsinə köçürülməsi bu qaydalarla tənzimlənir.

Qeyd edək ki, dövlət orqanlarının tabeliyində olan orta ixtisas təhsili müəssisələrinə tələbələrin köçürülməsi məsələsinə baxılan zaman həmin dövlət orqanlarının (qurumlarının) razılığı da tələb olunur.

Ali təhsilin bakalavriat səviyyəsindən (əsas (baza ali) tibb təhsilindən) orta ixtisas təhsili müəssisəsinə köçürülən şəxslər təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər.

### Beynəlxalq təhsil proqramları üzrə oxuyanlar da Azərbaycan universitetlərində təhsil ala biləcəklər

Nazirlər Kabineti bu həftə həm də "Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Şərtləri"ni təsdiq edib. Abituriyentlərin müsabiqədənkənar qəbulu Dövlət İmtahan Mərkəzi tərəfindən beynəlxalq səviyyədə akkreditasiya olunan IB Diploma Programme (Beynəlxalq Bakalavriat Diplom Proqramı), Advanced Level of General Certificate of Education (Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi) və Advanced Placement (Yüksək yerləşdirmə) təhsil proqramları üzrə aparılacaq.

Qəbul ali təhsil pilləsinin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçiriləcək. Abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu həmin təhsil proqramları üzrə təhsil aldıqları dildə tədris olunan ixtisaslar üzrə aparılacaq. Abituriyentlər Azərbaycan dili (dövlət dili kimi) fənnindən ayrıca imtahan verəcəklər. 3 təhsil proqramı ilə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu üçün hər bir ixtisas və tədris ili üçün keçid balını Təhsil Nazirliyi ilə razılaşdırılmaqla DİM müəyyən edəcək. Keçid balı müəyyənləşdirilərkən ixtisaslar üzrə keçid ballarının minimum və maksimum hədləri əsas götürüləcək.

Şərtlərə görə, adıçəkilən 3 beynəlxalq təhsil proqramı üzrə təhsil alan abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Tələbə Qəbulu Qaydaları ilə hər ixtisas qrupu üçün müəyyən edilmiş imtahan fənləri üzrə aparılacaq. Belə ki, abituriyentlərin həmin proqramlar çərçivəsində topladıqları ballar nəzərə alınacaq.

Qeyd edək ki, "Müvafiq üç imtahan fənni" dedikdə, Tələbə Qəbulu Qaydaları ilə hər ixtisas qrupu üçün müəyyən edilmiş imtahan fənləri başa düşülür.



| Sıra №-si | İxtisaslar | Proqramlar üzrə keçid ballarının minimum və maksimum hədləri | | |
|---|---|---|---|---|
| | | Beynəlxalq Bakalavriat Diplom Proqramı | Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni üzrə) | Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni üzrə) |
| 1. | Beynəlxalq münasibətlər | 28-35 | C və ya B | 3 və ya 4 |
| 2. | Biologiya | 26-30 | C və ya B | 3 və ya 4 |
| 3. | Biotibbi texnologiya mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 4. | Biznesin idarə edilməsi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 5. | Cihazqayırma mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 6. | Dövlət və bələdiyyə idarəetməsi | 28-30 | C və ya B | 3 və ya 4 |
| 7. | Dövlət və ictimai münasibətlər | 28-35 | C və ya B | 3 və ya 4 |
| 8. | Dünya iqtisadiyyatı | 26-30 | C və ya B | 3 və ya 4 |
| 9. | Ekologiya mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 10. | Elektroenergetika mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 11. | Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 12. | Fizika | 26-30 | C və ya B | 3 və ya 4 |
| 13. | Geofizika mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 14. | İnformasiya texnologiyaları | 26-30 | C və ya B | 3 və ya 4 |
| 15. | İnşaat mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 16. | İqtisadiyyat | 28-35 | C və ya B | 3 və ya 4 |
| 17. | Jurnalistika | 26-30 | C və ya B | 3 və ya 4 |
| 18. | Kimya | 26-30 | C və ya B | 3 və ya 4 |
| 19. | Kimya mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 20. | Kompüter elmləri | 26-35 | C və ya B | 3 və ya 4 |
| 21. | Kompüter mühəndisliyi | 26-35 | C və ya B | 3 və ya 4 |
| 22. | Maliyyə | 26-30 | C və ya B | 3 və ya 4 |
| 23. | Marketinq | 26-30 | C və ya B | 3 və ya 4 |
| 24. | Menecment | 26-30 | C və ya B | 3 və ya 4 |
| 25. | Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 26. | Mexanika mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 27. | Mexatronika və robototexnika mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 28. | Mühasibat uçotu və audit | 26-30 | C və ya B | 3 və ya 4 |
| 29. | Neft-qaz mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 30. | Politologiya | 26-30 | C və ya B | 3 və ya 4 |
| 31. | Proseslərin avtomatlaşdırılması mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 32. | Psixologiya | 26-30 | C və ya B | 3 və ya 4 |
| 33. | Riyaziyyat | 26-30 | C və ya B | 3 və ya 4 |
| 34. | Sənaye mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 35. | Sənayenin təşkili və idarə olunması | 26-30 | C və ya B | 3 və ya 4 |
| 36. | Sistem mühəndisliyi | 26-30 | C və ya B | 3 və ya 4 |
| 37. | Sosiologiya | 26-30 | C və ya B | 3 və ya 4 |
| 38. | Turizm və otelçilik | 25-28 | C və ya B | 3 və ya 4 |
| 39. | Aqronomluq | 25-28 | C və ya B | 3 və ya 4 |
| 40. | Hüquqşünaslıq | 30-34 | C və ya B | 3 və ya 4 |
| 41. | Memarlıq | 25-28 | C və ya B | 3 və ya 4 |

# Ali məktəblərə müsabiqədənkənar qəbul

Bu həftə ərzində təsdiq edilən "Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı və onların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Qaydası"nda müəyyən qrupa ali təhsil müəssisələrində müsabiqədənkənar təhsil almaq hüququ verilir. Belə ki, beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən ali təhsil müəssisələrinə tələbə qəbulu üzrə müsabiqədə iştirak etmədən bakalavriat səviyyəsində təhsil almaq üçün ali təhsil müəssisəsinə müsabiqədənkənar yerləşdirilir. Qaydaya görə, Azərbaycanda beynəlxalq və respublika fənn olimpiadasının qaliblərinə tam orta təhsil səviyyəsini bitirdikdən sonrakı növbəti 2 tədris ili üçün, beynəlxalq müsabiqənin və ya yarışın qaliblərinə isə tam orta təhsil səviyyəsini bitirməklə qalibiyyət əldə etdikdən sonrakı növbəti 5 tədris ili üçün ali təhsil müəssisəsinə tələbə qəbulunda yalnız bir dəfə müsabiqədənkənar qəbul olunmaq hüququ verilib.

Beynəlxalq fənn olimpiadalarının qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu "Təhsil haqqında" Qanuna uyğun olaraq, ali təhsil pilləsinin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə müəyyən edilmiş bütün ixtisaslar üzrə aparılır.

Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya, informatika üzrə respublika fənn olimpiadaları qalibləri isə ölkədəki ali təhsil müəssisələrində 84 ixtisasa müsabiqədənkənar qəbul olunacaqlar:




## Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı

**Azərbaycan dili və ədəbiyyat fənni üzrə:**
Azərbaycan dili və ədəbiyyatı müəllimliyi; məktəbəqədər təlim və tərbiyə; ibtidai sinif müəllimliyi; korreksiyaedici təlim; filologiya (dil və ədəbiyyat göstərilməklə); jurnalistika; Kitabşünaslıq

**Tarix fənni üzrə:**
Tarix; tarix müəllimliyi; tarix və coğrafiya müəllimliyi, antropologiya, politologiya; fəlsəfə; kitabşünaslıq; sosiologiya; muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması;

**Coğrafiya fənni üzrə:**
Coğrafiya; coğrafiya müəllimliyi; tarix və coğrafiya müəllimliyi; regionşünaslıq (regionlar üzrə); ekologiya; hidrometeorologiya;

**Riyaziyyat fənni üzrə:**
riyaziyyat; riyaziyyat müəllimliyi; riyaziyyat və informatika müəllimliyi; mexanika; kompüter elmləri; kompüter mühəndisliyi; mexatronika və robototexnika mühəndisliyi; enerji maşınqayırma mühəndisliyi; maşın mühəndisliyi; geofizika mühəndisliyi; neft-qaz qurğuları mühəndisliyi; elektroenergetika mühəndisliyi; istilik energetikası mühəndisliyi; avianəqliyyat istehsalatının təşkili mühəndisliyi; aviasiya texnikası avadanlıqlarının istismarı mühəndisliyi; hava nəqliyyatının hərəkətinin idarə olunması mühəndisliyi; hava nəqliyyatında texnoloji proseslərin və istehsalatın təhlükəsizliyi mühəndisliyi; gəmiqayırma və gəmi təmiri mühəndisliyi; yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi; cihazqayırma mühəndisliyi; texnoloji maşın və avadanlıqlar mühəndisliyi; elektrik mühəndisliyi; elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi; mexanika mühəndisliyi; kompüter mühəndisliyi; informasiya texnologiyaları və sistemləri mühəndisliyi; inşaat mühəndisliyi; nəqliyyat tikintisi mühəndisliyi; tikinti materialları və məmulatlarının texnologiyası mühəndisliyi; statistika;

**Fizika fənni üzrə:**
Fizika; fizika müəllimliyi; mexanika; geofizika mühəndisliyi; elektroenergetika mühəndisliyi; elektrik mühəndisliyi; materialşünaslıq mühəndisliyi;

**Kimya fənni üzrə:**
kimya; kimya müəllimliyi; kimya və biologiya müəllimliyi; ekologiya; qida məhsulları mühəndisliyi;

**Biologiya fənni üzrə:**
biologiya; biologiya müəllimliyi; kimya və biologiya müəllimliyi; ekologiya; balıqçılıq və balıqçılıq təsərrüfatı işi; su bioehtiyatları və akvabitkilər; bitki mühafizəsi; aqronomluq; zootexniklik; baytarlıq; psixologiya; qida məhsulları mühəndisliyi;

**İnformatika fənni üzrə:**
riyaziyyat və informatika müəllimliyi; informatika müəllimliyi; kompüter elmləri; kompüter mühəndisliyi; proseslərin avtomatlaşdırılması mühəndisliyi; informasiya texnologiyaları; sistem mühəndisliyi; mexatronika və robototexnika mühəndisliyi.

Bəs, beynəlxalq olimpiada, müsabiqə və yarışların qalibləri hansı ixtisaslara müsabiqədənkənar qəbul ediləcəklər?

Qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul ediləcək beynəlxalq müsabiqələrin və yarışların siyahısı:

**Beynəlxalq fənn olimpiadaları**
- Beynəlxalq riyaziyyat olimpiadası (IMO);
- Beynəlxalq Balkan riyaziyyat olimpiadası (yuxarı yaş qrupu) (BMO);
- Avropa qızlar riyaziyyat olimpiadası (EGMO);
- Beynəlxalq fizika olimpiadası (IPHO);
- Avropa fizika olimpiadası (EUPHO);
- Asiya fizika olimpiadası (APHO);
- Beynəlxalq kimya olimpiadası (ICHO);
- Beynəlxalq Mendeleyev kimya olimpiadası;
- Beynəlxalq biologiya olimpiadası (IBO);
- Beynəlxalq informatika olimpiadası (IOI).

**Beynəlxalq müsabiqələrin və yarışların siyahısı**
- Olimpiya oyunları;
- Olimpiya idman növləri üzrə Dünya çempionatı və birincilikləri;
- Olimpiya idman növləri üzrə Avropa çempionatı və birincilikləri;
- Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınmış qeyri-olimpiya idman növləri üzrə Dünya çempionatı və birincilikləri;
- Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınmış qeyri-olimpiya idman növləri üzrə Avropa çempionatı və birincilikləri;
- Yeniyetmələrin yay olimpiya oyunları;
- Avropa oyunları;
- İslam Həmrəyliyi oyunları;
- "Muğam aləmi" beynəlxalq muğam müsabiqəsi (Bakı, Azərbaycan);
- Vokalçıların Bülbül adına beynəlxalq müsabiqəsi (Bakı, Azərbaycan);
- M.Maqomayev adına vokalçıların beynəlxalq müsabiqəsi (Moskva, Rusiya);
- Qəmər Almaszadə adına beynəlxalq rəqs müsabiqəsi (Bakı, Azərbaycan);
- "Grumiaux" beynəlxalq gənc skripkaçılar müsabiqəsi (Namür, Belçika);
- Gənc pianoçuların "Stupen k masterstvu" beynəlxalq müsabiqəsi (Sankt-Peterburq, Rusiya);
- Gənc trubaçıların beynəlxalq müsabiqəsi (Stara Zaqora, Bolqarıstan);
- Gənc violonçelçilərin Antonio Janiqro adına müsabiqəsi (Xorvatiya);
- Gənc musiqiçilərin P.İ.Çaykovski adına beynəlxalq müsabiqəsi (Moskva, Rusiya);
- Gənc vokalçıların Yelena Obraztsova adına beynəlxalq müsabiqəsi (Sankt-Peterburq, Rusiya);
- Caz musiqi festivalı (Montre, İsveçrə);
- "Şabıt" Yaradıcı gənclərin beynəlxalq müsabiqəsi (Nur-Sultan, Qazaxıstan);
- Balet artistləri və xoreoqrafların beynəlxalq müsabiqəsi (Moskva, Rusiya);
- "Eurovision" estrada mahnı müsabiqəsi;
- Skripkaçıların A.İ.Yampolski adına beynəlxalq müsabiqəsi (Moskva, Rusiya);
- Pianoçuların Ferens List adına beynəlxalq müsabiqəsi (Budapeşt, Macarıstan);
- Pianoçuların Friderik Şopen adına beynəlxalq müsabiqəsi (Varşava, Polşa);
- Skripkaçıların Qenrix Venyavski adına beynəlxalq müsabiqəsi (Poznan, Polşa);
- Skripkaçıların Fris Kreysler adına beynəlxalq müsabiqəsi (Vyana, Avstriya);
- Skripkaçıların Yan Sibelius adına beynəlxalq müsabiqəsi (Helsinki, Finlandiya);
- Skripkaçıların "Premio Paqanini" adına beynəlxalq müsabiqəsi (Genuya, İtaliya);
- Skripka və alt ifaçılarının beynəlxalq müsabiqəsi (Bied, Sloveniya);
- Kraliça Yelizaveta adına musiqi müsabiqəsi (Belçika);
- Pianoçuların Van Klibern adına beynəlxalq müsabiqəsi (Klivlend, ABŞ);
- "Şərq təranələri" beynəlxalq musiqi festivalı (Səmərqənd, Özbəkistan)

**Adıçəkilən beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu aşağıdakı ixtisaslar üzrə həyata keçirilir:**

**Olimpiya oyunları üzrə qaliblər:**
fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə); bədən tərbiyəsi və idman; məşqçi (idman növü üzrə);

**Olimpiya idman növləri üzrə Dünya çempionatı və birinciliklər üzrə qaliblər:**
fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə); bədən tərbiyəsi və idman; məşqçi (idman növü üzrə);

**Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınmış qeyri-olimpiya idman növləri üzrə Dünya çempionatı və birinciliklər üzrə qaliblər**
fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə); bədən tərbiyəsi və idman; məşqçi (idman növü üzrə);

**Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınmış qeyri-olimpiya idman növləri üzrə Dünya çempionatı və birinciliklər üzrə qaliblər:**
fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə); bədən tərbiyəsi və idman; məşqçi (idman növü üzrə);

**Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınmış qeyri-olimpiya idman növləri üzrə Avropa çempionatı və birinciliklər üzrə qaliblər:**
fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə); bədən tərbiyəsi və idman; məşqçi (idman növü üzrə);

**Yeniyetmələrin yay olimpiya oyunları üzrə qaliblər:**
fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə); bədən tərbiyəsi və idman; məşqçi (idman növü üzrə);

**Avropa oyunları üzrə qaliblər:**
fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə); bədən tərbiyəsi və idman; məşqçi (idman növü üzrə);

**İslam Həmrəyliyi oyunları üzrə qaliblər:**
fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə); bədən tərbiyəsi və idman; məşqçi (idman növü üzrə)

"Muğam aləmi" beynəlxalq muğam müsabiqəsi üzrə (Bakı, Azərbaycan) qaliblər - solo oxuma (xanəndə)

**Vokalçıların Bülbül adına beynəlxalq müsabiqəsi üzrə (Bakı, Azərbaycan) qaliblər**
solo oxuma (akademik vokal)

**M.Maqomayev adına vokalçıların beynəlxalq müsabiqəsi üzrə (Moskva, Rusiya) qaliblər**
solo oxuma (akademik vokal); estrada sənəti;

**Qəmər Almaszadə adına beynəlxalq rəqs müsabiqəsi üzrə (Bakı, Azərbaycan) qaliblər:**
xoreoqrafiya sənəti (sahələr üzrə); rəqs müəllimliyi

**"Grumiaux" beynəlxalq gənc skripkaçılar müsabiqəsi üzrə (Namür, Belçika) qaliblər:**
instrumental ifaçılıq (simli)

**Gənc pianoçuların "Stupen k masterstvu" beynəlxalq müsabiqəsi üzrə (Sankt-Peterburq, Rusiya) qaliblər:**
instrumental ifaçılıq (fortepiano)

**Gənc trubaçıların beynəlxalq müsabiqəsinin (Stara Zaqora, Bolqarıstan) qaliblər:**
instrumental ifaçılıq (nəfəs alətləri)

**Gənc violonçelçilərin Antonio Janiqro adına müsabiqəsi üzrə (Xorvatiya) qaliblər:**
instrumental ifaçılıq (simli)

**Gənc musiqiçilərin P.İ.Çaykovski adına beynəlxalq müsabiqəsinin (Moskva, Rusiya) qalibləri:**
solo oxuma (akademik vokal); instrumental ifaçılıq

**Gənc vokalçıların Yelena Obraztsova adına beynəlxalq müsabiqəsi üzrə (Sankt-Peterburq, Rusiya) qaliblər:**
solo oxuma (akademik vokal)

**Caz musiqi festivalının (Montre, İsveçrə) qalibləri:**
estrada sənəti üzrə

**"Şabıt" Yaradıcı gənclərin beynəlxalq müsabiqəsi üzrə (Nur-Sultan, Qazaxıstan) qaliblər:**
estrada sənəti; xalq çalğı alətləri ifaçılığı; instrumental ifaçılıq (simli və nəfəs alətləri)

**Balet artistləri və xoreoqrafların beynəlxalq müsabiqəsi üzrə (Moskva, Rusiya) qaliblər:**
xoreoqrafiya sənəti (sahələr üzrə); rəqs müəllimliyi

**"Eurovision" estrada mahnı müsabiqəsi üzrə qaliblər:**
estrada sənəti

**Skripkaçıların A.İ.Yampolski adına beynəlxalq müsabiqəsi üzrə (Moskva, Rusiya) qaliblər:**
instrumental ifaçılıq (simli)

**Pianoçuların Ferens List adına beynəlxalq müsabiqəsi üzrə (Budapeşt, Macarıstan) qaliblər:**
instrumental ifaçılıq (fortepiano)

**Pianoçuların Friderik Şopen adına beynəlxalq müsabiqəsi üzrə (Varşava, Polşa) qaliblər:**
instrumental ifaçılıq (fortepiano)

**Skripkaçıların Qenrix Venyavski adına beynəlxalq müsabiqəsi üzrə (Poznan, Polşa) qaliblər:**
instrumental ifaçılıq (simli)

**Skripkaçıların Fris Kreysler adına beynəlxalq müsabiqəsi üzrə (Vyana, Avstriya) qaliblər:**
instrumental ifaçılıq (simli);

**Skripkaçıların Yan Sibelius adına beynəlxalq müsabiqəsi üzrə (Helsinki, Finlandiya) qaliblər:**
instrumental ifaçılıq (simli);

**Skripkaçıların "Premio Paqanini" adına beynəlxalq müsabiqəsi üzrə (Genuya, İtaliya) qaliblər:**
instrumental ifaçılıq (simli):

**Skripka və alt ifaçılarının beynəlxalq müsabiqəsi üzrə (Bied, Sloveniya) qaliblər:**
instrumental ifaçılıq (simli);

**Kraliça Yelizaveta adına musiqi müsabiqəsi üzrə (Belçika) qaliblər:**
solo oxuma (akademik vokal); instrumental ifaçılıq (fortepiano, simli)

**Pianoçuların Van Klibern adına beynəlxalq müsabiqəsi üzrə (Klivlend, ABŞ) qaliblər:**
instrumental ifaçılıq (fortepiano)

**"Şərq təranələri" beynəlxalq musiqi festivalı üzrə (Səmərqənd, Özbəkistan) qalibləri:**
solo oxuma (xanəndə); xalq çalğı alətləri ifaçılığı

# Cari tədris ili üzrə fəaliyyətə dair hesabatlar

## Təhsil nazirinin müavini bir sıra bölgələrdə olub






**Niyazi RƏHİMOV**

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva bölgələrdə tədrisin vəziyyəti, cari ildə görülən işlərlə yaxından tanış olmaq məqsədilə bir sıra bölgələrə səfər edib, rayon təhsil işçiləri ilə görüşüb.

Səfər çərçivəsində nazir müavini ilk öncə mayın 17-də Qəbələdə “Qafqaz” oteldə Oğuz, İsmayıllı və Qəbələ rayon təhsil şöbələrinin cari tədris ili üzrə fəaliyyətinə dair hesabat tədbirində iştirak edib.

Yığıncaqda Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Nazirliyin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Aydın Əhmədov, Qəbələ, Oğuz və İsmayıllı rayonlarının təhsil şöbələrinin müdirləri və təhsil işçiləri iştirak ediblər.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” çərçivəsində həyata keçirilən tədbirlərdən danışıb, son illərdə bu sahədə əldə olunan nailiyyətləri diqqətə çatdırıb. Nazir müavini bildirib ki, təhsil sisteminin inkişafı ilk növbədə onun aparıcı hissəsini təşkil edən ümumtəhsil məktəblərindən asılıdır.

Məktəbəqədər hazırlıq qruplarının əhəmiyyətindən söz açan Məhəbbət Vəliyeva deyib ki, tam orta təhsilin təmayülləşdirilməsi zamanı aşağı siniflərdən şagirdlərin yaradıcılıq qabiliyyəti müəyyən edilməli, onların maraq və bacarıqları nəzərə alınmalı, eləcə də fənlərin məzmunu təkmilləşdirilməlidir.

Nazir müavini şagirdlərin milli ruhda tərbiyə edilməsi, məktəb-şagird-valideyn əlaqələrinin möhkəmləndirilməsi və pedaqoji əməkdaşlığın gücləndirilməsinin təhsil müəssisələrinin qarşısında duran vəzifələrdən biri olduğunu diqqətə çatdırıb. Bildirilib ki, şagirdlərin olimpiada uğurlarının artırılması istiqamətində təhsil müəssisələri tərəfindən müvafiq işlər görülməlidir.

Hesabat yığıncağında təhsil sahəsində prioritet məsələlər üzrə görüləcək işlərə toxunan Məhəbbət Vəliyeva bununla bağlı bir sıra göstəriş və tövsiyələrini verib.

Sonra Qəbələ, Oğuz və İsmayıllı rayonlarının təhsil şöbələrinin müdirləri tərəfindən təhsil müəssisələrinin 2018-2019-cu tədris ili ərzində fəaliyyətinə dair hesabat təqdim olunub.

Mayın 18-də Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Nazirliyin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Aydın Əhmədov Ucar rayonundakı Heydər Əliyev Mərkəzində Ağdaş, Ucar və Göyçay rayon təhsil şöbələrinin cari tədris ili üzrə fəaliyyətinə dair hesabat tədbirində iştirak ediblər.

Öncə qonaqlar ulu öndər Heydər Əliyevin mərkəzin qarşısında ucaldılmış abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri qoyublar.

Adıçəkilən rayonların təhsil şöbələrinin müdirlərinin və təhsil işçilərinin iştirak etdikləri tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək son illərdə “Təhsilin inkişafı üzrə Dövlət Strategiyası” çərçivəsində həyata keçirilən tədbirlər haqqında məlumat verib. Ümumi təhsil müəssisələrinin qarşısında duran vəzifələrə toxunan nazir müavini müəllim-şagird-valideyn münasibətlərinin düzgün tənzimlənməsi, şagirdlərin milli ruhda tərbiyə edilməsi, məktəblərdə sağlam psixoloji mühitin yaradılması kimi məsələlərin də diqqətdə saxlanmasının vacibliyini qeyd edib.

Çıxışının sonunda Məhəbbət Vəliyeva təhsil işçilərinə müvafiq tapşırıq və tövsiyələrini verib, onlara uğurlar arzulayıb.

Yığıncaqda sonra Ağdaş, Ucar və Göyçay rayonlarının təhsil şöbələrinin müdirləri 2018-2019-cu tədris ili ərzində görülən işlərə dair hesabatlarla çıxış ediblər.

Mayın 20-də Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Nazirliyin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Aydın Əhmədov Quba şəhərindəki Heydər Əliyev Mərkəzində Quba, Qusar, Xaçmaz və Şabran rayon təhsil şöbələrinin cari tədris ili üzrə fəaliyyətinə dair hesabat tədbirində iştirak ediblər.

Qonaqlar öncə ulu öndər Heydər Əliyevin mərkəzin qarşısında ucaldılmış abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri qoyublar.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva Quba, Qusar, Xaçmaz və Şabran rayonlarının təhsil şöbələrinin müdirləri, məktəb direktorları və qabaqcıl təhsil işçilərinin iştirak etdikləri yığıncaqda çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsində aparılan islahatlardan, “Təhsilin inkişafı üzrə Dövlət Strategiyası” çərçivəsində həyata keçirilən tədbirlərdən və son illərdə əldə olunan nailiyyətlərdən geniş söz açıb. Şagirdlərin azərbaycançılıq məfkurəsi ruhunda tərbiyəsi, məktəblərdə psixoloji xidmətin təkmilləşdirilməsi istiqamətində qarşıda duran vəzifələrə toxunan nazir müavini ümumi təhsil müəssisələrində müvafiq təhlillərin aparılmasının və həmin təhlillərin nəticələrinə əsasən fəaliyyət proqramı hazırlanmasının əhəmiyyətini xüsusi vurğulayıb. Həmçinin təhsil müəssisələrinin pedaqoji əməkdaşlıq məsələlərini diqqətdə saxlamasının vacibliyini qeyd edib.

Təhsildə keyfiyyətin yüksəldilməsi, fənlərin tədrisi, rəhbərlik və nəzarət məsələlərindən söz açan Məhəbbət Vəliyeva təhsil sistemində yeni yanaşma metodlarından və idarəetmənin təkmilləşdirilməsindən danışıb.

Tədbirdə 2018-2019-cu tədris ili ərzində şimal bölgəsinin - Quba, Qusar, Xaçmaz və Şabran rayonlarının təhsil şöbələrinin müdirlərinin hesabatları dinlənilib.

Yığıncaqda təhsil işçilərini maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, bir sıra məsələlərə aydınlıq gətirilib.

“Aparılan islahatlar, təsdiq olunan proqramlar, icra olunan layihələr ümumi təhsil pilləsinin bütün səviyyələrini əhatə edir”. Bu fikirləri nazir müavini Məhəbbət Vəliyeva mayın 21-də Abşeron rayonu Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində Sumqayıt şəhər, Abşeron, Siyəzən və Xızı rayon təhsil şöbələrinin cari tədris ili üzrə fəaliyyətinə dair hesabat tədbirində səsləndirib.

Nazirliyin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Aydın Əhmədov, Sumqayıt şəhər, Abşeron, Siyəzən və Xızı rayon təhsil şöbələrinin müdirləri və təhsil işçilərinin iştirak etdiyi tədbirdən öncə ulu öndər Heydər Əliyevin mərkəzin qarşısında ucaldılmış abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Hesabat tədbirində çıxış edən Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva son illərdə təhsil sahəsində həyata keçirilən mühüm layihə və tədbirlərdən söz açıb. “Təhsilin inkişafı üzrə Dövlət Strategiyası” çərçivəsində görülən işləri diqqətə çatdıran nazir müavini həmçinin qarşıda duran hədəfləri sadalayıb.

Qeyd olunub ki, təhsilalanların səriştəyə yiyələnməsi üçün yeni məzmun xəttinin hazırlanması, təhsil verənlərin peşəkarlıq səviyyələrinin artırılması üçün həyata keçirilən təlimlər, yeni idarəetmə mexanizmlərinin tətbiqi, infrastrukturun, məktəblərin maddi-texniki bazasının yenilənməsi məqsədilə görülən işlər bu gün təhsilin keyfiyyətinə müsbət təsir göstərir.

Məhəbbət Vəliyeva ümumi təhsil müəssisələri arasında əməkdaşlığın məktəb idarəetməsində əhəmiyyətindən danışıb və təhsil işçilərinə bu əlaqələrin daha da genişləndirilməsini tövsiyə edib.

Çıxışının sonunda Məhəbbət Vəliyeva təhsil işçilərinə uğurlar arzulayıb.

Daha sonra Sumqayıt şəhər, Abşeron, Siyəzən və Xızı rayon təhsil şöbələrinin müdirlərinin 2018-2019-cu tədris ili ərzində görülən işlərə dair hesabatları dinlənilib.

Hesabatlar dinlənildikdən sonra fikir mübadilələri aparılıb, təkliflər dinlənilib. Təhsil işçilərini maraqlandıran suallar cavablandırılıb.

Mayın 23-də Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində Lənkəran şəhər, Astara və Lerik rayon təhsil şöbələrinin cari tədris ili üzrə fəaliyyətinə dair hesabat tədbiri keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, nazirliyin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Aydın Əhmədov, Lənkəran şəhər, Astara və Lerik rayon təhsil şöbələrinin müdirləri, təhsil işçiləri, KİV nümayəndələri iştirak ediblər.

Tədbirdən öncə Lənkəran şəhərində ümummilli lider Heydər Əliyevin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Hesabat tədbirində çıxış edən Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva ölkəmizdə təhsil sahəsində aparılan islahatlardan söz açıb. Ölkə Prezidenti cənab İlham Əliyevin təhsilə, təhsil işçilərinə göstərdiyi diqqət və qayğını xüsusi vurğulayıb. Nazir müavini bildirib ki, bir neçə bölgənin təhsil işçilərinin bir araya toplanaraq hesabat verməsi görülən işlərin hərtərəfli təhlilini aparmaq imkanı verir. Bu da qarşılıqlı mübadilə və yeni təcrübəyə yiyələnmək imkanları yaradır.

Məhəbbət Vəliyeva təqdim etdikləri hesabata əsasən fəaliyyəti zəif qiymətləndirilən ümumi təhsil müəssisələrinin rəhbərlərinə öz tövsiyələrini verib. Nazir müavini onu da qeyd edib ki, zəif nəticə göstərən məktəblər Nazirlik tərəfindən nəzarətə götürüləcək və yaxın gələcəkdə həmin məktəb rəhbərləri nəticələrin müzakirəsi üçün nazirliyə dəvət ediləcək.

Daha sonra Lənkəran şəhər, Lerik və Astara rayon təhsil şöbələrinin müdirlərinin 2018-2019-cu tədris ili ərzində görülən işlərə dair hesabatları dinlənilib.

Sonda fikir mübadilələri aparılıb, təkliflər dinlənilib. Təmayülləşmə, valideyn-məktəb münasibətlərinin tənzimlənməsi, məktəbəhazırlıq qrupları və digər məsələlərin icrası ilə bağlı suallar cavablandırılıb.



# “Yaradıcı məktəblər”

## Ken Robinsonun həmmüəllifi olduğu kitabın təqdimatı

**Ruhiyyə DAŞSALAHLI**

“Ken Robinson qlobal təhsil islahatlarının ən güclü tərəfdarıdır. Aydın fikirliliyi, coşqunluğu və məsələyə baxışı ilə milyonları ruhlandırmışdır, eləcə də məni. Bu kitab, sadəcə, adi bir katalizator və ya hərəkətə çağırış deyil; o bir manifest deməkdir; o nail olunması mümkün olanın kəşf edilməsi və nümayişidir. İndi növbə bizimdir; kitab oxumalı, ona reaksiya verməli və inqilabı sürətləndirməliyik”.

Bu fikir “Sabahın məktəblərini bu gün yaratmaq” kitabının müəllifi Riçard Qerverə aid olsa da, Bakı şəhəri Arif Hüseynzadə adına 20 nömrəli məktəb-liseydə Təhsil Nazirliyinin sifarişi ilə Azərbaycan dilinə tərcümə olunan Ken Robinsonun həmmüəllifi olduğu “Yaradıcı məktəblər” kitabının təqdimat mərasiminin də ana xəttini təşkil edib. Tədbirdə bu kitabı oxumaq, sonra müzakirə etmək, nəhayət, növbəti mərhələdə kitabda əksini tapan fikirləri tətbiq etməyin mümkünlüyü vurğulanıb.Təhsil Nazirliyinin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşları, millət vəkilləri, təhsil ekspertləri, ümumi təhsil müəssisələrinin rəhbərləri və media nümayəndələrinin iştirakı ilə baş tutan tədbirdə təhsilin inkişafı ilə bağlı önəmli mesajlar verilib.

### Sağlam yanaşma

Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov kitab və müəllifi haqqında geniş məlumat verib. Ken Robinsonu “canlı əfsanə” adlandıran sektor müdiri bildirib ki, 2006-cı ildə Kaliforniyada keçirilən TED konfransında “Məktəb yaradıcılığı öldürürmü” adlı çıxışı TED tarixində ən çox izlənənlərdən olub. C.Valehov məşhur çıxışların müəllifi olan Ken Robinsonu XX əsr təhsilşünaslığında adı böyük hərflərlə yazılan şəxsiyyətlərdən biri kimi xarakterizə edib: “Bu kitabda məktəb direktorunun özünü necə idarə etməsindən, məktəbdə müasir yanaşmalardan, yaradıcı məktəblərin üzərinə düşən öhdəliklərdən tutmuş PISA tədqiqatlarına, Amerika təhsilinin nəticələrinə, təhsildə valideynin üzərinə düşən öhdəliklərə qədər ayrı-ayrı məsələlər əsaslandırılır. Şagirdlərdə təhsilə maraq yaratmaq, öyrənmək həvəsini inkişaf etdirmək, onlara müasir dövrün texnoloji və peşəkar resurslarından faydalanmaq üçün sağlam yanaşma təklif edir”.

Cəsarət Valehov qeyd edib ki, XXI əsr yeni bacarıqlar zamanıdır və bu da “Yaradıcı məktəblər” kitabında öz əksini tapıb.

### Təhsilə uşaqların gözü ilə bax

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktoru Vəfa Yaqublu bu kitabın ümumtəhsil məktəblərinin yaradıcı fəaliyyəti, dəyişikliklərin aparılması baxımından müsbət rolunu önə çəkib. Onun sözlərinə görə, kitabda dəyişikliklərin əsasını konsepsiya, bacarıqlar, stimul, resurslar və fəaliyyət planı təşkil etdiyi göstərilir: “Ken Robinsonun məşhurlaşmasının iki səbəbi var. Birincisi, onun daxilən ziyalı olmasıdır. Bu da onun yazdıqlarına, çıxışlarına təsir edir. Hətta sarkazm deyəndə belə, onu sevgi ilə boyayır. İkincisi isə Robinsonun təhsilə uşaqların gözü ilə baxması ilə əlaqədardır. Hesab edir ki, bu yanaşma nəticəsində təhsil daha humanist, daha səmərəli olar”.

V.Yaqublu deyir ki, kitabda Robinson xətti düşüncədən uzaqlaşıb qeyri-xətti düşüncəyə keçməyi tövsiyə edir. Kitabında da üslubuna sadiq qalan müəllif çıxışlarında necə danışırsa, yazılarını da elə yazır.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin sektor müdiri Anar Qədiməliyev də öz növbəsində bu cür kitabların məktəblərdə dəyişikliklər edilməsi baxımından faydalı olduğunu qeyd edib. O, kitabın məktəb rəhbərlərinin yanaşmasını dəyişəcəyinə inandığını dilə gətirib.

### “Köhnə pedaqogika ilə məktəbi irəli apara bilmərik”

Təhsil ekspertləri bu cür kitabların məktəblər üçün olduqca əhəmiyyətli olduğu qənaətindədir. Məsələn, Etibar Əliyev hesab edir ki, dünya da, təhsil də, paradiqmalar da dəyişir: “Köhnə pedaqogika ilə məktəbi irəli apara bilmərik. Postmodernistlər hesab edir ki, artıq yeni - tənqidi pedaqogika yaranıb. Özümüzə kənardan baxmalıyıq ki, necə görünürük? Fərz ediriksə, ləng yazırıq, təkrarçılıq var, onda dərsliklərdə bu cür yazılara önəm verməliyik”.

E.Əliyev əlavə edib ki, Ken Robinson təhsili üç cəbhədə uğurlu sayırdı. Azərbaycan təhsili üçün vacib sayılan bu 3 cəbhədən biri kurikulumdur: “Geniş kurikulum ilə çeşidliliyin təmin olunması, fərdləşməyə həvəsləndirmənin artırılması, yaradıcı tədrisə maraq oyadılması, standartlaşdırılmış testlərdən çox individual tədrisə üstünlük verilməsi Ken Robinsonun fikirlərinin ana xəttini təşkil edib”.

Təhsil eksperti qeyd edib ki, təhsil müəssisələrində yeni pedaqoji yanaşma tətbiq edilməli və yaradıcı təhsil genişləndirilməlidir.

Başqa bir ekspert, professor Şahlar Əsgərov isə hesab edir ki, yaxşı kitablar çoxdur. Ancaq həmin kitabların hansı cəmiyyətə təqdim edildiyi önəmlidir. Ona görə də tərcümə üçün seçilərkən düşüncəni dəyişməyə xidmət edəcək nümunələrə üstünlük verilməlidir.

### Təhsilin fəlsəfəsi olanda...

Millət vəkili Fazil Mustafanın qənaəti bu yöndədir. Dünyada uğur qazanan təhsil sistemlərinin bir fəlsəfəsi var. Azərbaycan təhsilinin fəlsəfəsi də olsa, pedaqoji təcrübəsi olan insanlar texniki tərəflərinin trayektoriyasını cızacaqlar”.

Millət vəkili Təhsil Nazirliyinin təşəbbüsünü müsbət dəyərləndirib və belə kitabların sayının çoxaldılmasını tövsiyə edib.

Təhsil İnstitutunun direktor müavini Ənvər Abbasov hesab edir ki, ölkə məktəblərində yaradıcı sinif, yaradıcı şagird tendensiyası gücləndirilməlidir. Məktəblərdə inzibatçılıq olmamalıdır.

Tanınmış naşir, tərcüməçi-yazar Şahbaz Xuduoğlu Robinsonun kitabının azərbaycancaya tərcüməsinin olduğuna sevindiyini deyib. O, belə kitabların sayının çoxalmasının əhəmiyyəti ilə yanaşı, məktəb kitabxanalarındakı kitabların da təzələnməsinin zəruriliyini vurğulayıb.

Daha sonra kitab haqqında fikirlər səsləndirən digər tədbir iştirakçıları bu nəşrin həyati əhəmiyyətli bir məsələ olan təhsilə münasibətdə praktik həll yolları təqdim etdiyini, məktəb yaradıcılığında faydalı olacağını bildiriblər. Kitabın məktəb rəhbərlərini, müəllimləri təhsilin əsl mahiyyət və məqsədi haqqında yenidən düşünməyə vadar etdiyi diqqətə çatdırılıb.

Kitabı oxumaq, oxuduqdan sonra tezislər çıxartmaq, həmin tezislər əsasında müzakirələr təşkil etmək, hətta onların Azərbaycan reallığına uyğun şəkildə tətbiqinin önəmi vurğulanıb.

Hər kəs tədbirdən Ken Robinsonla ayrılıb. Düşüncəsində tədbirdə səslənən fikirlər, əlində Azərbaycan dilinə tərcümə olunmuş “Yaradıcı məktəblər” kitabı olan hər kəs bir ay sonrakı görüş üçün vədləşib. Beləliklə, Ken Robinsonun həmmüəllifi olan “Yaradıcı məktəblər” kitabının müzakirəsi açıq qalıb. Müzakirələr məktəblərdə, müəllimlər, təhsil ictimaiyyəti arasında davam edəcək.

# Təhsilverənlərin əsas vəzifələri



Bəhruz MÜSLÜMOV

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində hər bir vətəndaşın təhsil almaq hüququnun olması nəzərdə tutulub və dövlət də öz növbəsində ümumi təhsili məcburi hesab edilməklə ödənişsiz əsaslarla həyata keçirməyi öz üzərinə vəzifə olaraq götürüb. Eyni zamanda, daha mütərəqqi hal ondan ibarətdir ki, dövlət istedadı olan vətəndaşların təhsillərini dövlət hesabına davam etdirməsinə dəstək göstərir, həmçinin Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, imtahanlarda müvəffəqiyyətli olmuş tələbələrə və digər təhsil alanlara təqaüdlər təsis edilməklə onların rifah halının yaxşılaşdırılması istiqamətində davamlı və mütərəqqi addımlar atılır. Bu sahədə ən vacib məsələlərdən biri "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" bitdikdən sonra yenidən təhsil sahəsində müxtəlif dövlət proqramlarının qəbul edilməsini göstərə bilərik.

Təbii ki, görülən bu işlər təhsilalanlarla yanaşı, təhsilverənlərin üzərinə məsuliyyətli və şərəfli vəzifələr qoyur. Onların bu sahədə üzərlərinə düşən vəzifələrə təhsilalanın tədris proqramını mənimsəməsi, pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək aid olsa da, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 33.3-cü maddəsinə əsasən, təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, uşaq və gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək də təhsilverənin üzərinə əsas vəzifələr olaraq qoyulub. Yəni təhsilalanı forma baxımından savadlı və intellektual şəxs olaraq yetişdirməzdən əvvəl onun milli-mənəvi ruhda formalaşmasını, zorakılığın bütün növlərindən qorumaqla sağlam düşüncəli azərbaycanlı olmasını, onun forma baxımından da əvvəl məzmun baxımından tamamlanmasını təmin etməlidir.

Təhsilalana tədris, elm və biliyin vacib olmasına baxmayaraq, ilk növbədə onun şəxsiyyət olaraq cəmiyyətə hazırlanması diqqətdə saxlanılmalıdır. Sosial mediada tez-tez qarşımıza çıxan bir hekayə var ki, İsraildə məktəb direktoru hər ilin əvvəlində öz tələbələrinə məktub yazaraq bildirir ki, ağıllı tələbə yetişdirməmişdən əvvəl vicdanlı insan yetişdirin, çünki soyqırımı zamanı istifadə olunan silahlar ağıllı tələbələr tərəfindən düzəldilmişdir.

Təbii ki, cəmiyyətin şəxsiyyətin yetişdirilməsində rolu danılmazdır. Amma fərdin formalaşması ilə bağlı bütün vəzifələrin məktəbin və təhsilverənlərin üzərinə qoyulması ədalətli olmaz. Əksəriyyətin son zamanlarda dediyi bir söz var ki, ailələr evdə iki uşağın tərbiyəsi ilə məşğul ola bilmirsə, məktəb necə məşğul olsun və ya valideynlər niyə tərbiyə prosesini məktəbin üzərində qoymaqla özlərini övladlarının qarşısında olan mənəvi borclardan və vəzifələrdən kənarda tutmağa çalışırlar. Baxmayaraq ki, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, təkcə təhsilalan və təhsilverən yox, eyni zamanda valideynlər və qanuni nümayəndələr də təhsil prosesinin iştirakçısı hesab olunurlar.

Təhsil sözü məhsul, istehsal, hasil kəlmələri ilə kökdaş olmaqla terminoloji mənada "bioloji varlıq olan adamdan insan (şəxsiyyət, sosial varlıq) istehsal etmək" deməkdir. Bu şəxsiyyəti yetişdirərkən təhsilverənlər və valideynlər öz üzərlərinə düşən vəzifələri layiqincə gördüyü halda cəmiyyətdə baş verə biləcək bütün sosial problemlər aradan qaldırılacaq. Zəruri haldır ki, həmin gənclər hər şeydən əvvəl milli-mənəvi dəyərlərimizə, azərbaycançılıq ideyasına bağlı, dilindən, dinindən, əqidəsindən, seçimlərindən asılı olmayaraq, elmli və bilikli olmaqla yanaşı, sağlam düşüncəli Azərbaycan Respublikasının vətəndaşı olmalıdır.

# Məktəb direktorlarının iştirakı ilə müşavirə



Paytaxtın ümumi təhsil müəssisələri direktorlarının iştirakı ilə müşavirə keçirilib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) təşkilatçılığı ilə keçirilən müşavirədə ümumi təhsil müəssisələrində əlverişli təlim və inkişaf mühitinin təmin edilməsi, məktəblərin fəaliyyətində səmərəliliyin artırılması üçün sistemli işin aparılması və təhsil müəssisələrinin idarəetmə məsələlərindən bəhs olunub.

Müşavirədə BŞTİ-nin müdiri Rəşad Tağıyev, İdarənin struktur bölmə rəhbərləri və Nəsimi, Qaradağ, Xətai, Yasamal, Binəqədi, Xəzər, Nərimanov, Nizami, Səbail, Suraxanı, Sabunçu və Pirallahı rayonları ümumi təhsil müəssisələrinin direktorları iştirak ediblər.

İdarə müdiri müşavirə iştirakçılarını salamlayaraq, Təhsil nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələrində əlverişli təlim və inkişaf mühitinin təmin edilməsi üzrə əlavə tədbirlər barədə Fəaliyyət Planı"nda nəzərdə tutulmuş həlli vacib məsələlərdən və ümumi təhsil müəssisələrinin qarşısında duran prioritet istiqamətlərdən danışıb.

R.Tağıyev ümumi təhsil müəssisələrində əlverişli təlim və inkişaf mühitinin yaradılması, şagirdlərin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, tərbiyə işinin, məktəb-ailə münasibətlərinin düzgün tənzimlənməsi, xüsusi hallarla bağlı davranış modellərinin formalaşdırılması sahəsində kompleks tədbirlərin həyata keçirilməsi, təlim-tərbiyə prosesinin keyfiyyəti, məktəblərdə psixoloji xidmət və sağlam psixoloji mühitin rolu barədə geniş məlumat verib. Həmçinin, təhsil müəssisələrinin idarəedilməsi işinin təkmilləşdirilməsi, pedaqoji əməkdaşlığın gücləndirilməsi, məktəblərin ictimai nüfuzunun artırılması, şagirdlərin milli ruhda tərbiyə edilməsi və digər müvafiq məsələlərə də toxunub.

İdarə müdiri "Ümumi təhsil sahəsində 2018-2019-cu dərs ilinin prioritet fəaliyyət istiqamətləri barədə" Təhsil nazirinin əmrinin icrasını təmin etmək məqsədilə "Ümumi təhsildə keyfiyyət ili" ilə əlaqədar həyata keçirilən inkişafyönümlü tədbirlərdən, paytaxt təhsilinin inkişafı istiqamətində əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən də bəhs edib.

Təhsilin bütün meyarlar üzrə müasir tələblər səviyyəsinə qaldırılmasının və səmərəli idarəetmənin rolunun artırılmasının əsas hədəflərdən biri olduğunu xatırladan R.Tağıyev məktəb direktorlarının üzərlərinə düşən məsuliyyətin düzgün dəyərləndirilməsinin vacib olduğunu vurğulayıb.

Görüşdə məktəb idarəetməsi, təhsilverənlərin fəaliyyət keyfiyyətinin artırılması, valideynlərlə işin qurulması, təhsil müəssisələrinin uğurlarının daha dolğun təbliği, ictimaiyyətlə əlaqə işinin səmərəliliyinin artırılması kimi məsələlər də müzakirə olunub, məktəb direktorlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

Daha sonra təhsil müəssisələrinin rəhbərlərini maraqlandıran məsələlərə aydınlıq gətirilib və mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# Məktəbə aparan rahat yol

## Dövlət ümumtəhsil məktəblərində 278876 beşyaşlı məktəbəhazırlıq keçib



Salatın Mərdanova



Xədicə İbrahimli



Nicat və Murad Allahquliyevlər



Aqşin Şahinoğlu

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Salatın Mərdanova gənc anadır. Qızı Xədicənin avqust ayında 5 yaşı tamam olacaq. Oktyabr ayını səbirsizliklə gözləyən gənc ana qarşıdakı bir ilə böyük ümidlərlə baxır: "Çox həvəsliyəm. Mən də ixtisasca müəlliməm. Məktəbəhazırlıq qrupunda uşaqlara keçilən hazırlıqla maraqlanmışam. Hər kəs bu layihədən həvəslə danışır. Uşaqlarda çox yüksək təsir buraxdığı müşahidə edilir. Xədicə ilə atası da, mən də yaxından maraqlanırıq. Onun inkişafına yaxşı təsir göstərəcək heç bir addımdan çəkinmirik. Əslində, onun 3 yaşından öyrənməyə başlamağını istədik. Bunun üçün məktəbəqədər təhsil müəssisəsinə apardıq. Ancaq tez-tez xəstələndiyi üçün bu cəhdimiz uğursuz oldu. Ona görə də məktəbəhazırlığa böyük ümidlərlə baxır, Xədicənin burada məşğələlərə başlayacağı günü maraqla gözləyirik".

### 2957 məktəbdə 278876 şagird

Bir sözlə, Xədicə oktyabr ayında məktəbəhazırlığa başlayacaq yüzlərlə deyil, məhz minlərlə beşyaşlıdan biri olacaq. Son bir neçə ildə məktəbəhazırlığın təşkili səviyyəsini göstərən rəqəmlər belə deməyə əsas verir. Belə ki, 2016-2017-ci tədris ilində 86970 beşyaşlı, 2017-2018-ci tədris ilində 93035 uşaq məktəbəhazırlıq qrupunda təhsilə cəlb olunubsa, bu tədris ilini 98871 uşaq tamamlamaq üzrədir. Beləliklə, dövlət ümumtəhsil məktəblərində indiyədək 278876 beşyaşlı məktəbəhazırlıq qrupunda təhsil alıb.

278876 məktəblidən biri isə Nicat Allahquliyev olub. Nicat artıq ikinci sinifdə oxuyur. Anası Vüsalə Rəfiyevanın sözlərinə görə, məktəbəhazırlığın nəticəsini görməsi üçün kifayət qədər vaxtı olub: "Nicatdan böyük bir oğlum da var. Adı Muraddır. Nicatdan fərqli olaraq Murad məktəbəhazırlıq keçməyib. Nicatın bəxti gətirdi. O məktəbə gedən il məktəbəhazırlıq məşğələləri başladı. Üstəlik, yaxşı da müəllimi var. Muradla Nicat arasında dağlar qədər fərq var. Bu fərqi artıq görə bilirəm. Murada Nicatın yanında dərs başa salıram, Nicat Muraddan əvvəl qavrayır. Murad üçün oxuyuram, ancaq Nicat anlayır. Mən oxuduğumu özündən 5 yaş böyük qardaşına başa salır. Nicat yaxşı dinləyicidir. Oxuduğunu da, eşitdiyini də tez mənimsəyir. Mən bu fərqi məktəbəhazırlıqla əlaqələndirirəm. Düşünürəm ki, nə yaxşı ki, Nicatın bəxti gətirdi".

Bəxti gətirən şagirdlərin sayı artdıqca ildən-ilə məktəbəhazırlıq qruplarının təşkil olunduğu siniflərin, məktəblərin də sayı artıb. Dövlət ümumtəhsil məktəblərində 2016-cı ildən başlayan bu prosesə qoşulan məktəblərin sayı artıq 2957-yə çatıb.

### Növbəti tədris ilində hədəf 90 faizdir

2018/2019-cu tədris ilində 5 yaşlı uşaqların məktəbəhazırlıq təhsili ilə əhatəliliyi əvvəlki tədris ili ilə müqayisədə 10 faiz artaraq 75 faizə çatdırılıb. Növbəti tədris ilinin hədəfi artıq bəllidir. 2019/2020-ci tədris ilində 5 yaşlı uşaqların 90 faizi məktəbəhazırlıq təhsilinə cəlb ediləcək.

Hələliksə, may ayı artıq yekunlaşmaq üzrədir. Bu da o deməkdir ki, dövlət ümumtəhsil məktəblərində təşkil edilən məktəbəhazırlıq qruplarında məşğələlərə cəlb edilən 98871 uşaq yaxın 10 gündə məktəblə müvəqqəti olaraq vidalaşacaq. Çünki iki yarım ilə bölünən və təhsil dövlət hesabına həyata keçirilən məktəbəhazırlıq qruplarında bir dərs ili yekunlaşacaq. Oktyabrın 1-də başlayan məşğələlər may ayının 31-də başa çatacaq.

### Elektron sistemin tətbiqində şəffaflıq

Qeyd edək ki, məktəbəhazırlıq qruplarına şagird qəbulu *www.mektebeqebul.edu.az* elektron sistemi vasitəsilə həyata keçirilir. Ərizələrin onlayn qeydiyyatı Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Naftalan şəhərlərini və Abşeron, Yevlax, Samux rayonları üzrə ümumi təhsil məktəblərini, o cümlədən həmin şəhər və rayonlarda yerləşən məcburi köçkün məktəblərini əhatə edir. Məktəb yaşına çatan uşağı olan hər bir ailə evindən uzağa getmədən övladının məktəbini də, sinfini də, hətta müəllimini də seçir. Heç yerə getmədən, heç kəsi görmədən aparılan əməliyyat nəticəsində bu prosesdə fəaliyyət tamamilə şəffaf idarə olunur. Prosesin bitməsinə hələ uzun müddət qalmağına baxmayaraq, artıq qeydiyyatdan keçənlər var. Paytaxt məktəblərindəki məktəbəhazırlıq qruplarına uşaqların qəbulu üçün elektron sistemdə 23820 ərizənin onlayn qeydiyyatı aparılıb. Onlardan biri də Mətindir. Mətinin atası Aqşin Şahinoğlu hesab edir ki, son illərdə Azərbaycanda təhsil sektorunda innovasiyalara və müasir texnologiyalara əsaslanan idarəetmə sisteminin tətbiqi ölkə təhsilində keyfiyyətcə yeni mərhələnin yaranmasını şərtləndirib: "Bu il övladım Mətin də məktəbə gedəcək. Biz də digər valideynlər kimi, əvvəlcə elektron qaydada müraciət etdik. Müraciətimiz qeydə alındıqdan sonra təyin olunan tarixdə və orta məktəbdə müsahibə mərhələsindən keçdik. Müsahibənin yekunları ilə bağlı məlumat həm SMS vasitəsilə göndərildi, həm də sistemdə yaratdığımız şəxsi kabinetdə bununla bağlı məlumat yerləşdirildi. May ayının 1-də isə elektron sistem vasitəsi ilə məktəb seçimi etdik. Sistemdə göndərdiyimiz bu sorğu da müsbət cavablandırıldıqdan sonra müvafiq məktəbə gedərək qeydiyyat prosedurunu tamamladıq. İndi həm Mətin, həm də təbii ki, biz səbirsizliklə növbəti dərs ilini gözləyirik. Öz təcrübəsində müşahidə etmiş bir valideyn olaraq hesab edirik ki, məktəbəqabulu mərhələsində elektron sistemin tətbiqi şəffaflığın təmin edilməsi, vaxt itkisinin və digər neqativ halların aradan qaldırılması baxımından əvəzsizdir".

### Təhsildə keyfiyyətə addım-addım

Beləliklə, Azərbaycanda məktəblər təhsildə keyfiyyətə addım-addım yaxınlaşır. Başa çatan tədris ili daha bir addım oldu. Növbəti addım da artıq müəyyən edilib. Hədəf bəlli olanda plan qurmaq asan, yol isə qısa olur. Əsas odur ki, bu şəffaf yolda yerimək yeni nəsil üçün çətin olmayacaq.

## Tədris ilinin yekunları









⇦ Əvvəli səh.1

# Uğur əngəl tanımaz...

## Mən uşaqlara təkcə dilimizi, ədəbiyyatımızı öyrətmirəm, həm də həyat dərsi verirəm

**Aysel MƏMMƏDOVA,**
*219 nömrəli evdə təhsil tam orta məktəbin müəllimi*

Dəhlizdə magistr yoldaşım Səadəti gördüm. Zarafatcıl, şən qız idi Səadət. Onun zarafatla verdiyi "Ay qız nə olub sənə? Səkkiz yaza-yaza niyə gəlirsən? Yıxılacaqsan bu dəqiqə. Diplom sərxoşusan?" sualları bundan sonra mənim həyatımın ən mərkəzi, ən önəmli gündəm məsələsinə çevriləcəkdi. Bəli, yerişim və bütün hərəkətlərimin koordinasiyası itmişdi. Şokdaydım, əllərim, ayaqlarım hamısı sağlamdır, yerindədir, görürəm, amma sanki mənə tabe deyillər daha, bədənim əsir, ürəyim sanki ayaqlarımda döyünür... Mütləq hardansa tutub müvazinətimi tarazlayıb yeriməliyəm. YERİYƏ BİLMİRƏM.

İlk vaxtlar insan qəbul etmək istəmir bunu. Qəribə bir inkar mexanizmi işə düşür. Həm özündə, həm ailə üzvlərində. Ətrafdan bəzi deyənlər, narahatlıq, qorxu, ən nəhayət qəbul edib həkimə gedirsən. Uzun, cansıxıcı, ağır araşdırmalar, analizlər, heç vaxt görmədiyim tibbi avadanlıqlar, nəhayət ki, diaqnozum qoyuldu, ölkəmizdən xaricdə mümkün oldu bu.

"FRİDERİCH ATAKSİYASI" bu iki kəlmə ömrümün bundan sonrakı fəslinin adına çevrildi. Analizlərin nəticələri yazılmış kağızlardan birinin küncündə ingilis dilində yazılmış "Friderich ataxi" sözlərini görəndə mənə elə gəldi ki, "F" hərfinə münasibətim soyudu. Bununla da, 24 illik qısa həyatım iki hissəyə bölündü- I hissə "Sağlamlıq", II hissə "Əlillik". Təəssüf ki, II hissənin sonu olmayacaqdı. Bu qeyri-adi, nadir və irsi xəstəliyin heç bir müalicəsi yoxdur. Nadir xəstəlikdir, "deməli mən də nadir rast gəlinən insanam". Qəribədir, diaqnozu eşidəndə ilk reaksiyam bu oldu. Ən əsası isə ağlamadım, ona görə yox ki, güclüyəm, əyilmədim və sairə. Sadəcə vaxtım olmadı. Çünki, artıq qəbul etmiş, həqiqətlə barışmışdım. "Mən əliləm və həyat tərzimi, gələcək planlarımı buna uyğun dəyişməliyəm". Yuxusuz keçirtdiyim o gecənin nəticəsi bu oldu. Səhər açılanda sanki o gənc, idealist düşüncəli, ərköyün qız getmiş, 50-60 yaşlı müdrik, realist, soyuqqanlı bir insan əvəz etmişdi məni. Böyüdüm. Elə bil, bədənim xəstələnmiş, zəifləmiş, xarakterim isə əvvəlkindən ikiqat artıq sağlamlaşmışdı. Həyata baxış prizmam dəyişdi. Artıq dinamik gənclik, aktiv həyat geridə qalmışdı. Təəssüf ki, cəmiyyətdə hər şey birmənalı qarşılanmır. Fiziki məhdudiyyətlər sanki insanın digərlərindən fərqi, əksikliyi, ayıbı, ya da hansısa günahının cəzası kimi qiymətləndirilir. İlk vaxtlar ağır gəlir acıyan baxışlar, gizli pıçıltılar, ələ salıcı təbəssüm və gülüşlər, "heyif", "getdi daha onun taleyi", "ailə də qurammadı", "harda işləyəcək ki, bu?" kimi ifadələr. Amma qısa vaxtda özümə söz verdim: "Təslim olmayacam, ayağa qalxacam, bu xəstəliyi məni seçdiyinə peşman edəcəm. Həyatın məndən əsirgəməyə cəhd etdiyi hər şeyi bircə-bircə ondan döyüşə-döyüşə alıb yerinə qoyacam. Üstümə yapışmaq istəyən "yazıq uşaq" etiketini cırıb atacam. "Güclü qadın" olacam. Ailə də quracam, ana da olacam, sevdiyim, parlaq, şərəfli bir peşəm də olacaq". Hamısını elədim!

İnsan gücü bütün şablonları yıxıb dağıda bilər. İnadla, həyata qarşı mübarizəylə ANA oldum. 2010-cu ildə "F" hərfindən küsmüşdüm. Bir filoloqa, dilçiyə yaraşmazdı. "F" ilə sülh imzaladıq 2013-cü ildə. Qızımın adı FƏRƏH oldu. İndi ən sevimli hərfimdi "F". Kitablardan, romanlardan, şeirlərdən təxmini tanıdığım analıq hissi şəxsi həyatımda bir qədər fərqlidir. Burada analıq hissi, övlad sevgisiylə bağlı səhifələrlə yaza bilərəm, pafoslu ifadələr sıralaya bilərəm. Amma sadə dillə izah edəcəyəm. Mənim üçün Fərəh uzun bir yolda piyada gəzməkdir, çoxmərtəbəli bir binanın pilləkənləri ilə birnəfəsə sürətlə çıxıb düşməkdir, saatlarla rəqs etmək, qaçmaqdır, uca bir zirvəyə təkbaşıma qalxmaqdır. Qələbə çalmaqdır.

Müəllim olmaq arzum 2011-ci ilin oktyabr ayında məni gətirib 219 nömrəli evdə təhsil məktəbinin Distant Təhsil Mərkəzinə çıxardı. İkinci həyatımın dönüm nöqtəsi. Bura başqa bir aləm idi. Tamamilə mənə, vəziyyətimə, fiziki məhdudiyyətimə uyğun bir iş şəraiti, belə insanlarla rəftar qaydalarına mükəmməl bələd olan iş yoldaşları. Sadəcə otururam və çox sevdiyim Azərbaycan dili və ədəbiyyatı tədris edirəm. Bundan böyük xoşbəxtlik ola bilərmi? Var. Bəli, ən böyük xoşbəxtliyim, sevincim, şansım, uğurum, həyatımın mənası - ŞAGİRDLƏRİM. Düz 9 ildir ki, hər dəfə şagirdlərimin gözündə yaranan ən kiçik bir sevinc parıltısı, simalarındakı təbəssüm uğrunda az qala bütün varlığım, bilik və bacarığımla çalışıram. Xüsusi qayğıya ehtiyacı olan əziz balalarım-sevimli şagirdlərim ömrümün ikinci hissəsinin aparıcı obrazlarına çevrilib. Əminəm ki, onlar da məni sevir, ən çox mənə güvənirlər. Monitordan hər birinin gözlərindən oxuyuram bunu. Çünki vəziyyətimdən, əlilliyimdən xəbərdar edirəm onları, əyani şəkildə şəxsi təcrübəmlə göstərirəm ki, əsas şikəstlik mənəvi şikəstlikdir. Fiziki məhdudiyyətlər uğur qazanmağa, cəmiyyətə fayda verməyə, həyatda öz yerini tapmağa əngəl deyil. Hər fürsətdə başa salıram ki, onlar da güclüdür, istəyib əldə edə bilməyəcəkləri heç nə yoxdur. Mən o uşaqlara təkcə dilimizi və ədəbiyyatımızı öyrətmirəm, onlara həm də canlı şəkildə həyat dərsi verirəm. Xüsusən qız şagirdlərimin gələcəyin güclü anaları, uğur qazanmış xanımları olması üçün əlimdən gələni əsirgəmirəm. Məsafədən təhsil mənim üçün təkcə "iş" deyil, mübarizə əzmim, qələbə simvolumdur. Hər dəfə kompüterin qarşısında əyləşib dərsə başlayanda, özümü fiziki cəhətdən o qədər güclü hiss edirəm ki, necə deyərlər, "Dağı dağ üstə qoyaram". Bu, işini sevmək deyil, tamam başqa məfhumdur, işiylə var olmaqdır, həyata işiylə bağlanmaqdır. Uğura aparan yoldur. Məsafədən tədris mənim şagirdlərimin gələcəyə ümididir. Dəfələrlə, müxtəlif vaxtlarda, müxtəlif şagirdlərimin ağzından çıxan "Müəllim, mən də böyüyəndə sizin kimi müəllim olacam, çalışacam, özüm kimi uşaqlara dərs keçəcəm" ifadələri bunun sübutudur. Məsafədən tədris təkcə xüsusi qayğıya ehtiyacı olan uşaqlara yox, bu günün və gələcəyin saysız-hesabsız fiziki məhdudiyyətli müəlliminə əvəzolunmaz bir hədiyyədir.

Bizlər: mən, şagirdlərim və bizim kimi olan hər kəs, əsla, fərqli deyilik! Yeganə fərqimiz odur ki, daha güclüyük, hər kəsin asanlıqla əldə etdiyi hər şeyi biz mübarizəylə qazanırıq. Bizim uğurlarımız daha qiymətlidir.

### Tanıtım

**Aysel Sadıq qızı Məmmədova 21 noyabr 1986-cı ildə Goranboyda anadan olub. 2008-ci ildə Bakı Slavyan Universitetinin filologiya fakültəsini, 2010-cu ildə isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistratura pilləsini bitirib. 2011-ci ilin sentyabrın 30-dan 219 nömrəli evdə təhsil tam orta məktəbində çalışır. Diaqnostik qiymətləndirmədə ixtisası üzrə 31 bal toplayıb.**



# Danış, səni tanıyım

## Şagirdlərə nitq mədəniyyətini necə aşılayıram?

**Hökümə BAĞIROVA,**
*Bakıdakı 82 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

Mədəniyyətin ən vacib tərkib hissələrindən biri də nitq mədəniyyətidir. Bura danışıq və yazı mədəniyyəti daxildir. Bu mühüm keyfiyyətlərə yiyələnən şəxs yüksək ünsiyyət mədəniyyətinə, istifadə etdiyi sözləri seçmək bacarığına sahib olmalıdır. Elə bu baxımdan da şagirdlərin orta məktəbdə oxuduğu müddətdə nitq mədəniyyətinə yiyələnməsi məsələsi çox vacib sayılır.

Mövzunun tədrisində tədqiqata başlamazdan öncə dərsin motivasiya mərhələsində sözlər verirəm. Bir sütunda orfoqrafiya, digər sütunda isə orfoepiya qaydalarına görə. Bunları bir-birindən fərqləndirməyi tapşırıram.

| | |
|---|---|
| ailə | ayilə |
| ədəbiyyat | ədəbiyat |
| müəllim | mə:llim |
| teatr | tiyatr |
| kitab | kitap |

Şagirdlər bu fərqi izah etdikdən sonra soruşuram:

- Biz sözləri nəyin vasitəsilə tələffüz edirik?

- Cavab olaraq şagirdlər tərəfindən "nitq" deyiləndən sonra bildirirəm ki, bugünkü mövzumuz "Nitq mədəniyyəti"dir.

Sonra tədqiqat sualı ilə sinfə müraciət edirəm: "Nitq və nitq mədəniyyəti dedikdə nə başa düşürsünüz? Nitq neçə formada təzahür edir?

Fərziyyələr alındıqdan sonra tədqiqat başlanır. Azərbaycan dili dərsliklərində nitq mədəniyyəti anlayışı belə izah olunur: "Nitq mədəniyyəti tətbiqi dilçilik sahəsi olub, hər hansı konkret bir dilin orfoepik, orfoqrafik, leksik, qrammatik, üslubi və s. normalarını müəyyənləşdirən nəzəri axtarışlar və təcrübi tədbirlər kompleksidir".

Nitq mədəniyyəti danışıq və yazı zamanı orfoqrafik və orfoepik qaydalara, qrammatik qayda-qanunlara, üslub normalarına əməl etməkdir. Eyni zamanda orfoqrafik və orfoepik qaydalar dedikdə məlum olur ki, nitq iki formada təzahür edir: yazılı və şifahi nitq. Bunları bir-birindən fərqləndirən xüsusiyyətlər şagirdlərin köməyi ilə açıqlanır.

Mövzu haqqında şagirdlərə məlumat verəndə bildirirəm ki, nitq mədəniyyəti ilk dəfə Yunanıstanda yaranıb. Nitq mədəniyyəti dilçiliyin praktik sahəsi olub, düzgün, aydın, səlist, dəqiq danışmaq deməkdir. Nitq mədəniyyətinə yaxşı yiyələnmək üçün dilin fonetik, leksik və qrammatik qayda-qanunlarını bilmək çox vacibdir. Nitq mədəniyyəti bir elm kimi Azərbaycanda XX əsrin 20-ci illərindən formalaşmağa başlamışdır.

İndi görək biz nitq mədəniyyətinə yiyələnmək üçün nələri bilməliyik? Öz nitqimizi necə inkişaf etdirməliyik?

Mövzunun tədrisi zamanı şagirdlərə öyrədirəm ki, nitq mədəniyyətinin konkret predmeti yoxdur. Dil ünsiyyət vasitəsidirsə, nitq ünsiyyət prosesidir, ünsiyyətin özüdür. Hər bir insan öz nitqini fərdi şəkildə zənginləşdirməlidir. Bunun üçün də dil ümumi, nitq fərdi hesab edilir. Dildən hamı eyni cür istifadə edə bilmir. Əgər insanın lüğət ehtiyatı zəngin olarsa, o, gözəl nitqə sahib ola bilər. Dərsdə şagirdlərə izah edirəm ki, hər bir insan çoxlu mütaliə etməli, dilinin lüğət ehtiyatını zənginləşdirməli, şifahi nitqində orfoepik, yazılı nitqində isə orfoqrafik qaydalara düzgün əməl etməlidir. Çünki irqindən, milliyyətindən asılı olmayaraq milli mədəniyyətin göstəricilərindən biri gözəl nitqdir. Gözəl nitq üçün iki şərt tələb olunur:

1. Dilin özünün ifadə imkanlarının genişliyi, yəni hər hansı bir fikri ifadə etmək imkanının olması.

2. Bu dildə danışanın yüksək hazırlığı, yəni dilin ifadə imkanlarından düzgün şəkildə istifadə etməsi.

Mövzunun tədrisində bildirirəm ki, hər hansı dilin fonetik, leksik, qrammatik, eləcə də orfoqrafik və orfoepik qayda-qanunları vardır ki, onları dərindən öyrənmədən təmiz nitq mədəniyyətinə yiyələnmək mümkün olmur.

Dərsin gedişində şagirdlər öyrənirlər ki, nitq mədəniyyəti insanın yüksək ictimai mədəniyyəti, dilə şüurlu sevgisidir. Cəmiyyətdə də adamları tanımaq üçün ilk anda ünsiyyətə girmək və münasibətdə olmaq lazımdır.

Antik dövrün böyük filosofu Sokrat həmişə deyərmiş: "Ey insan, danış, səni tanıyım".

"Qabusnamə"də isə deyilir: "Sözü ən gözəl tərzdə söyləmək lazımdır ki, həm söz anlayan olasan, həm də söz anladasan".

Belə bir məqamda dərsin daha maraqlı və yaddaqalan olması üçün maraqlı sitatlar söyləyirəm. Məsələn, K.S.Stanislavskinin dediyi kimi, "sadə və gözəl danışığı bacarmaq özü bir elmdir və onun xüsusi qanunları var". A.P.Çexov "Gözəl danışığa etinasız yanaşan adamlar özlərini insana layiq ola biləcək ən ali, nəcib bir zövqdən məhrum edirlər". Eyni zamanda bir latın atalar sözünü də misal çəkirəm. Burada deyilir ki, şair anadan şair doğulur, natiqlər isə tədricən yetişir. Nəticədə şagirdlərə tam aydın olur ki, gözəl danışığa yiyələnmək həyatda qazanılır və hər kəsin özündən asılıdır. Lap qədim zamanlarda yaranmış bir zərb-məsəldə deyilir: "Sözün zahiri zərif, batini lətif olmalıdır".

Dərsin gedişində ədəbiyyat fənninə inteqrasiya edərək bildirirəm ki, uşaqlar, siz sözün qüdrəti haqqında hansı atalar sözü və ya şeirlər bilirsiniz? Şagirdlər Nizami Gəncəvinin "Az danışmağın gözəlliyi", sözün qüdrəti haqqında atalar sözləri deyir: "Söz var kəsdirər başı, söz var kəsər savaşı".

Bu cür dəyərli misallardan sonra şagirdlərdə fikir yaranır ki, nitq mədəniyyətinə dərindən yiyələnmək üçün dilin lüğət tərkibini mükəmməl bilmək lazımdır. Nə qədər çox söz bilsən, o qədər də fikrini gözəl və dəqiq ifadə edə bilərsən.

Dərsin yekununda onu da əlavə edirəm ki, şifahi nitqlə yanaşı, yazılı nitq mədəniyyəti probleminə, həmçinin orfoqrafiya və durğu işarəsi qaydalarına əməl edilməsi də daxildir.

Şifahi nitqdə isə jest və mimikaların rolu çox böyükdür. Bunlar hər biri ayrılıqda və hamısı birlikdə etalon səviyyəli nitqi yaradır ki, bu nitqə yiyələnənlər natiqlik sənətində, gələcək fəaliyyətində və digər sahələrdə böyük uğurlar qazanırlar.

Dərsin sonunda Venn diaqramında dil və nitqin oxşar və fərqli cəhətləri müqayisə olunur. Yaradıcı tətbiqetmə olaraq esse yazmaq şagirdlərə tapşırılır.

# STEM: Şagirdləri həyata hazırlayan təhsil

## İsraildə təlim keçən Sevinc Həsənova STEM təhsilinin Azərbaycanda tətbiqinin zəruriliyindən söz açır



**Samirə KƏRİMOVA**

*Son illər Təhsil Nazirliyi tərəfindən Azərbaycan müəllimlərinin keyfiyyəti, onların tədris bacarıqlarının artırılması istiqamətində gördüyü işlər, reallaşdırdığı tədbirlər öz müsbət nəticəsini verməkdədir. Təhsil işçilərimizin dünyanın inkişaf etmiş ölkələrinə səfərləri, müasir təhsil tendensiyalarının öyrənilməsi, bir sıra uğurlu beynəlxalq təcrübələrin ölkəmizdə tətbiqi ilə bağlı atılan addımlar Azərbaycan təhsilinin inkişafında, dünya təhsilinə inteqrasiyasında mühüm rol oynayır. Xüsusilə hazırda elm, təhsil və sənaye müəssisələrində innovativ inkişafın təmin edilməsi üçün konkret layihələrin icra olunduğunu nəzərə alsaq, bu gün təhsilimizin qarşısında dayanan vəzifələrdən birinin də məhz innovasiya fəaliyyətinin daha da gücləndirilməsinin diqqətdə saxlanılan vacib məsələlərdən olduğunu görərik.*

*Elə nazirliyin təşəbbüsü ilə cari ilin 3-31 mart və 13-18 may tarixlərində 50 təhsil mütəxəssisinin (müəllim və digər təhsil müəssisələrində işləyən mütəxəssislər) İsraildə və Bakıda 5 həftəlik təlimlərdə iştirakı da Azərbaycan təhsilində növbəti bir yeniliyin tətbiqinin başlanılmasından soraq verir. Tətbiq olunması nəzərdə tutulan yenilik dünyada tanınan - STEM təhsil proqramıdır. Təlimlər çərçivəsində STEM təhsil proqramının Azərbaycan kurikulumlarına uyğunlaşdırılması və bu məzmunun yerli mütəxəssislərə çatdırılması, məktəblərdə tətbiqi zamanı İsraildən olan mütəxəssislər tərəfindən metodik dəstəyin göstərilməsi üzrə kurslar təşkil olunub. Həmçinin cari ilin yanvarında STEM təhsil proqramı çərçivəsində 10 məktəb direktoru İsrailə 1 həftəlik səfər edib. Təlimlərdə iştirak etmiş müəllimlərdən biri də Bakıdakı 245 nömrəli tam orta məktəbin fizika-informatika müəllimi Sevinc Həsənova olub. Onunla söhbətimiz İsrailin orta məktəblərində STEM təhsili, bu sahədə əldə etdiyi beynəlxalq təcrübə, onun ölkəmizdə tətbiqi və bu yeniliyin istər müəllimlər, istərsə də şagirdlər üçün hansı üstünlüklərə malik olması ilə bağlı olub.*

### STEM təhsil metodu nədir?

Öncə STEM təhsil metodu barədə oxucularımıza bir qədər məlumat vermək istərdik. STEM təhsil metodu təhsilalanlara dörd spesifik sahənin, Elm (Science), Texnologiya (Technology), Mühəndislik (Engineering) və Riyaziyyatın (Math) birgə və inteqrasiya olunmuş şəkildə tədris etmək ideyası üzərində qurulub. STEM kurikulumu fənlərarası, praktik və tətbiqi dərslərdən ibarətdir və dörd fərqli fənni real həyatda tətbiq olunan formada və vahid paradiqma kimi öyrədir.



Elmin və texnologiyaların öyrədilməsində ənənəvi yanaşmadan fərqli olaraq, STEM təhsili təhsilalanlara praktik məşğələlər vasitəsilə elmi-texniki biliklərin gündəlik həyatda necə tətbiq olunmasını göstərir. Elm, Texnologiya, Mühəndislik və Riyaziyyatın birgə tədrisi çox vacibdir, çünki bu sahələr real həyatda bir-biri ilə dərindən bağlıdırlar. Bu yanaşma gələcək məktəb məzunlarına mühəndislik səriştələri öyrədərək, onların real həyatda problemlərin həlli zamanı tətbiqini aşılayır. STEM şagirdləri hansı peşəni seçmələrindən asılı olmayaraq onları həyata hazırlayır.

### "Sinfimdə bu yeni metodun tətbiqinə başladım"

Həmsöhbətim deyir ki, Azərbaycan təhsil sistemində də artıq STEM təhsilinin tətbiqinə başlanılması nəzərdə tutulub. Seçilmiş 50 müəllimdən biri olaraq İsraildəki təlimlərdə iştirak edən Sevinc Həsənova bununla bağlı çox şey öyrəndiyini söyləyir: "Bu səfərdə bir daha əmin oldum ki, şagirddə proqramlasdırma, kənd təsərrüfatı, dülgərlik, aqronomluq, mühəndislik və s. sahələr üzrə bacarıqlar formalaşdırmaq lazımdır. O zaman onlarda quraşdırma, yaratma, prototipləsdirmə, analizlərin aparılması və digər səriştələr də formalaşır".

Sevinc müəllim İsraildə "ORT" məktəb şəbəkəsi və STEM təhsili ilə yaxından tanış olduqlarını, hər bir məktəbin özündə STEM layihələri ilə bağlı xüsusi laboratoriyaların, peşə təlimlərinin olduğunu deyir. Bildirdi ki, orada ümumtəhsil müəssisələri resurs və təchizatlarla tam təmin olunublar. Bu da şagirdlərin layihələrdə daha yaxşı bacarıq sərgiləmələrinə, uğurlu layihələr ərsəyə gətirmələrinə imkan yaradır. Qeyd etdi ki, "ORT" məktəb şəbəkəsində müəllimlər yeddinci sinifdən başlayaraq STEM təhsil proqramını tədris edirlər: "Məktəblərdəki laboratoriyalarda olduq, dərslərdə iştirak etdik. Bu təhsil platforması ilə yaxından tanışlıq bizim təhsillə, tədris metodu ilə bağlı fikirlərimizi, düşüncələrimizi tamamilə dəyişdi. Bilirsiniz, biz müəllimlərin orada öyrəndikləri həqiqətən də çox önəmliydi. Hər birimiz bir məktəbi təmsil edirdik. Bizi gözləyən çoxlu sayda müəllim kollektivi və şagird var idi. Ölkəmizə qayıdanda həmin öyrəndiklərimizi dərslərimizdə tətbiq və nümayiş etdirməliydik. Bunun üçün ilk öncə özümüzdən başlamalı olduğumuzu bir daha anladım. Mən öncə pedaqoji şura iclasında İsraildəki təlimlərdə öyrəndiklərim, STEM proqramı barədə müəllim kollektivimizə geniş məlumat verdim. Bu proqramın tətbiqi ilə bağlı gördüklərimi müəllimlərlə bölüşdüm və sonra sinfimdə bu yeni metodun tətbiqinə başladım".

Sevinc müəllim fizika və informatika fənlərini tədris etdiyi üçün ilk olaraq öyrəndiyi beynəlxalq təcrübəni fizika dərsində tətbiq etməyə başlayıb: "Sinfə daxil olduğum zaman uşaqlara ilk sözüm bu oldu ki, "Siz özünüzü necə hiss edirsiniz? Necə rahat ola bilirsinizsə elə də olun". VI sinif şagirdlərinə fizika fənnindən "maqnit sahəsi" ilə bağlı keçdiyim dərsdə təlimlərdə öyrəndiklərimi tətbiq etməyə başladım. Şagirdlərdə motivasiya yaratmaq üçün onlara bu şəkildə müraciət elədim: "Sizin kampınız şərqdə yerləşir və siz meşəyə çiyələk yığmağa gedirsiz, bu meyvəni axtara-axtara kampın istiqamətini itirmisiz. Siz kampa necə qayıdarsınız? Hansı vasitələrdən istifadə edərək kampın yolunu tapmaq olar?".

Bu suallara cavab olaraq şagirdlər yarpaq, iynə, su, butulka qapağı vasitəsilə kompas hazırlayaraq növbəti dərsdə onu nümayiş etdirdilər. Artıq şagirdlərimin hər dərsin mövzusuna uyğun olaraq yeni fikirlərlə, axtarışlarla, müəyyən məsələlərlə bağlı apardıqları araşdırmalar məni, sözün yaxşı mənasında, həm təəccübləndirir, eyni zamanda sevindirir. Şagirdlər özləri öz düşündükləri kimi bir model yaradırdılar ki, bu da bizim STEM proqramı ilə işləməyimizə gətirib çıxartdı".

Sevinc müəllim hazırda VI və VIII siniflərdə şagirdlərin özlərinin ideyalarını təcrübəyə tətbiq etməklə hazırladıqları modelləri dərsdə nümayiş etdirdiklərini bildirir. O, hələ ki, şagirdlərə sırf STEM üzrə tapşırıqlar vermədiyini, ilkin məqsədin onlarda müəyyən bir baza yarada bilmək, bu cür tədris proqramı ilə uşaqları tanış etmək olduğunu deyir. Bu sistemin Azərbaycan təhsilində tətbiqinin faydalı olacağına inanır.

### Uğura gedən yolda təkanverici qüvvə

STEM çərçivəsində əldə olunan bacarıqlar sadəcə bu təhsil proqramını əhatə edən sahələr üzrə biliyin artırılmasına deyil, həm də müxtəlif maraqlara sahib olan şagirdlərin hər hansı bir sənaye sahəsində uğur qazanmasına şərait yaradır. STEM təhsili şagirddə yalnız təbiət fənləri və riyazi qavram yaratmaqla kifayətlənmir. Tətbiqi üsullarla öyrətməyə meyilliliyi, şagirdlərin müxtəlif bacarıqlarını inkişaf etdirir. Bu təhsil metoduna yaradıcılıq və 21-ci əsrin xüsusi bacarıqları daxildir.

Sevinc müəllim STEM-in şagirdin istedadlarından yararlanmaqla yanaşı, onlardakı yeni bacarıqların üzə çıxarılmasında önəmli rol oynadığını söyləyir. Buna problemi həlletmə, qərarvermə, maraqlarını müxtəlif sahələrə yönləndirmələri kimi özəl bacarıqlar daxildir. Bu, xüsusilə də onların uzun karyera addımlarında qarşılaşa biləcəyi çətinliklərdən asanlıqla çıxmağa kömək edir: "Bizlərsə belə bir nəticəyə gəlirik ki, STEM şagirdlərdən innovativ düşüncə tələb edir".

### "Uşaqları həm təşəbbüskar, həm də yaradıcı etmək istəyiriksə..."

Uşaqları həm təşəbbüskar, həm də yaradıcı etmək istəyiriksə sabahımız STEM-lə başlamalıdır deyən yaradıcı müəllim də öyrəndiklərini ümumiləşdirərək bunları diqqətə çatdırdı: "Pilot layihədən öyrəndiklərim Texnologiya, mühəndislik, incəsənət (dizaynerlik) və riyaziyyat fənlərinin elmlə sintezi, fəndə sözügedən məzmunun həyatla əlaqələndirilməsi və şagirdlərin bacarıqlarının üzə çıxarılması, problemə əsaslanan öyrətmə, təşviqedici suallarla və yalnız şagirdin cavablarda iştirakı nəticəsində özünün də araşdırması ilə yeni nəticəyə gəlməsinə şəraitin yaradılması, məzmunda şagirdlərin mobil telefondan, QR code reader (proqram) tətbiqindən istifadədir".

### STEM o qədər maraqlı bir təhsil metodudur ki...

Bir sözlə, STEM o qədər maraqlı təhsil metodudur ki, şagirdlər üçün darıxdırıcı dərs saatı olmayacaq, onların gözü saatda qalmayacaq ki, tez dərs bitsin, dəhlizdəki əyləncə dolu anlarına geri dönsün. Onlar dərk edəcəklər ki, içində olduqları bu təhsil metodu həm gələcəkləri, həm də öz dünyaları ilə necə də əlaqəlidir.

Bəli, biz bir müəllimin-Sevinc Həsənovanın timsalında keçilən beynəlxalq təlimlərdə öyrənilənlərin, aparılan müşahidələrin təhsil işçilərinin müəllimlik fəaliyyətinə daha yaradıcı yanaşmasında, şagirdlərlə iş metodunun daha fərqli şəkildə qurmasında əhəmiyyətli rol oynadığının növbəti dəfə şahidi olduq. Nə yaxşı ki, belə müəllimlərimizin sayı durmadan artır. Onların daha keyfiyyətli və yaradıcılıq qabiliyyətlərinin, tədris bacarıqlarının artırılması, hazırda dünyada qəbul olunan ən yaxşı təhsil metodlarının Azərbaycan təhsilinə gətirilməsi də sözsüz ki, Təhsil Nazirliyinin bu sahədə apardığı məqsədyönlü işlərin nəticəsi kimi dəyərləndirilə bilər.

# STEM təhsilin mənzərəsini dəyişir



## Hədəf 4S bacarıqlarının inkişafına yönəldilib

**Oruc MUSTAFAYEV**

ABŞ-ın Corstaun Universitetinin tədqiqatçıları ali təhsilin tələb olunmadığı təxminən 13 milyon vakansiya hesablayıblar. Maraqlıdır ki, ali təhsil diplomlarının tələb olunmadığı iş yerlərində illik əməkhaqqı 35 min dollardan yuxarıdır. Son 30 il ərzində bu cür təkliflərin həcmi 12% azalsa da, "mavi yaxalıqlılar" üçün vakansiyaların miqdarı hələlik kifayət qədər yüksəkdir.

ABŞ-da bu problemi radikal şəkildə həll etməyə başlayıblar, hər yerdə uşaqlara ali məktəblərə daxil olmamağı, məktəbi bitirdikdən dərhal sonra işləməyə başlamağı təbliğ edirlər. Məsələn, Miçiqan ştatında məktəblər sənaye müəssisələri ilə sıx əməkdaşlıq edirlər. 7-ci sinifdən isə şagirdlərin peşəyönümü təlimi tətbiq edilir. Bunlara nail olmaq üçün isə bütün dünyada təhsilin mənzərəsini dəyişən STEM (Elm, Texnologiya, Mühəndislik, Riyaziyyat) yanaşmalardan istifadə edirlər.

Beləliklə də diplom tələb etməyən böyük şirkətlər üçün məzunların STEM çərçivəsində aldıqları bilik və bacarıqlar kifayət hesab olunur. STEM hələ ötən əsrin 90-cı illərindən yaranıb, lakin indi xüsusi olaraq məşhurluq qazanıb, çünki bu sistem uşaqlara verilən məsələnin həllini müəllimdən gözləməyi yox, sərbəst şəkildə axtarmağı öyrədir. Yanaşma 4S bacarıqlarının inkişafına yönəldilib. Müəllim mentor və ya məsləhətçi rolunda çıxış edir və sərbəst tədqiqatlara həvəsləndirir: kritik düşüncə, kreativlik, kommunikasiya və kolloborasiya. Hesab edilir ki, məhz bu keyfiyyətlər XXI əsrdə tələbolunandır.

STEM-yanaşma təlimin modul vasitə ilə aparılmasını təklif edir. Ən çox vaxt təcrübəyə (60%-ə qədər) ayrılır. Müəllim yalnız tapşırığı verir, həlləri isə şagirdlər özləri axtarırlar. Tapşırıqlar, bir qayda olaraq, tərəfdaş müəssisələrdən gəlir və real problemlərin həllinə tuşlanıb. Əvvəlcə uşaqlar ideyaları yaradırlar, sonra onları proqramlaşdırmanın və ya başqa mühəndislik bacarıqlarının köməyi ilə həyata keçirir, sonda təqdimat hazırlayır və layihəni müdafiə edirlər.

Məktəblilərin ixtisas seçimi ilə ictimai birliklər, Təhsil xidmətlərinin regional agentlikləri (Regional Educational Service Agencies -RESA) məşğul olurlar. Onlar STEM yanaşmanın tətbiqində köməklik göstərir və müəllimləri öyrədirlər. RESA-nın dəstəyi ilə müəllimlər öz ixtisaslarını artırmaq və biznesə gələcək məzunlara məhz hansı bacarıqların tələb olunduğunu öyrənmək üçün müntəzəm surətdə yay proqramları keçirlər. Bu, məktəblərə uşaqlara çətin ki, lazım olacaq bilikləri öyrətməyi deyil, konkret tələbata əsaslanan təhsil prosesini təşkil etməyə imkan verir. Məsələn, hazırda ABŞ-da səhiyyə sahəsində hər 10 mütəxəssisdən bir həkim, 2 tibb bacısı və mürəkkəb tibb avadanlıqlarına xidmət üzrə 7 mexanik tələb olunur. Və məktəblər tədris proqramlarının formalaşması zamanı bunları nəzərə alır.

RESA məktəblər və şirkətlər arasında əlaqənin təşkilində böyük rol oynayır. ABŞ-da məktəblərin direktorlarına müəssisələrlə danışıqlara vaxt itirməyə ehtiyac yoxdur. Onların əvəzinə bunu agentlik edir. Belə ki, təkcə ABŞ-ın Miçiqan ştatında yerləşən Kalamazu şəhərində RESA-nın 75 tərəfdaşı var ki, onların arasında Bosch, Dupont Pioneer, General Motors, Denso kimi şirkətlər yer alıb. Onlar məktəblərdə interaktiv dərslər keçirlər. Məsələn, Pfizer şirkətinin interaktiv dərslərinə "Heyvanların davranışı və sağlamlığın diaqnostikası" və "İstilik kameraları - insanın ürəyi necə təşkil edilmişdir" misal göstərmək olar. Və ən əsası, şirkətlər təmizliyi, rahatlığı və robotlaşdırmanı nümayiş etdirmək üçün müntəzəm olaraq şagirdləri istehsalata ekskursiyalara dəvət edirlər. Beləliklə də onlar bu yolla zavodda az maaşlı və ixtisassız əmək barədə yaranmış fikirləri dəyişirlər.

RESA məktəblilərin ixtisas təliminin maliyyələşdirilməsini də öz üzərinə götürür. Aydındır ki, hər bir məktəb robototexnikanı tədris etməyə hazırdır, amma avadanlığa və müəllimlərin yeni ixtisas almasına görə pulu haradan əldə etmək olar? RESA məktəblərə müəssisələrdən qrantlar almağa və onların bahalı tədris proqramlarını tətbiq etməyə kömək edir. Axı keyfiyyətli təhsildə, ilk növbədə, məhz biznes maraqlıdır, çünki bugünkü məktəblilər onun gələcək əməkdaşlarıdır. Kalamazuda fəaliyyəti ərzində RESA biznesdən qrantlar şəklində 920 min dollar cəlb edib.

İndi Miçiqanda ixtisas təlimi demək olar ki, 4000 şagirdi əhatə edir, onlar üçün 160 proqram hazırlanıb.

Qeyd edək ki, elmin və texnologiyaların öyrədilməsində ənənəvi yanaşmadan fərqli olaraq, STEM təhsili praktik məşğələlər vasitəsilə elmi-texniki biliklərin gündəlik həyatda necə tətbiq olunmasını tələbələrə göstərir. Elm, Texnologiya, Mühəndislik və Riyaziyyatın birgə tədrisi çox vacibdir, çünki bu sahələr real həyatda bir-biri ilə dərindən bağlıdır. Bu yanaşma şagirdlərə mühəndislik səriştələri öyrədərək, onların real həyatda problemlərin həlli zamanı tətbiqini aşılayır. STEM fənləri məktəbliləri hansı peşəni seçmələrindən asılı olmayaraq həyata hazırlayır.

Sorğular göstərir ki, məktəblilərin 90%-i bu cür təhsili qiymətli hesab edir, axı o, tələb olunan bacarıqları almağa və məktəbi bitirdikdən dərhal sonra işə çıxmağa kömək edir. Xüsusilə də bu, uşaqlarının kollec və ya ali təhsil haqlarını ödəməkdə çətinlik çəkən ailələr üçün əhəmiyyətlidir.

Son rəqəmlərə əsasən, STEM təhsili və ya sertifikatı almış məzunlar işlə təmin olunma imkanlarının geniş spektri üzrə daha yaxşı şanslara malikdirlər və əmək bazarında daha yüksək maaş alırlar. STEM çərçivəsində alınmış 93 peşə üzrə əməkhaqları ölkə üzrə orta göstəricidən kifayət qədər yüksək olaraq 48320 dollar təşkil edib.

## İmadəddin Nəsiminin 650 illik yubiley tədbirləri

Ağstafa Rayon Təhsil Şöbəsinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər keçirilir.

Təhsil müəssisələrində Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş "dəyirmi masa" və ədəbi-bədii gecələr keçirilir.

Eləcə də təhsil müəssisələrində unudulmaz şairə həsr olunan fotostendlər, bülletenlər hazırlanır, guşələr yaradılır, şagirdlərin əl işlərindən ibarət sərgilər təşkil olunur. Bundan əlavə, "Nəsimi İli" çərçivəsində məktəblilər arasında bədii qiraət müsabiqələri, bilik yarışları keçirilir. Məktəb kitabxanalarında İmadəddin Nəsiminin əsərləri əsasında müzakirələr aparılır.

Tədbirlərdə görkəmli Azərbaycan şairi Nəsiminin həyat və yaradıcılığından, yaşadığı dövrdən, şairin əsərlərinin dil və üslub xüsusiyyətlərindən bəhs edilir, onun zəngin bədii irsinin tədqiqi istiqamətində aparılan işlərdən danışılır. Bildirilir ki, Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan, əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm edən şair olub.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




## "Tarix gecəsi"

Şəki şəhər 7 nömrəli tam orta məktəbdə tarix müəllimi Əmanət Yunusovanın təşkilatçılığı ilə "Azərbaycan xalqının qəhrəmanlıq tarixi" adlı "Tarix gecəsi" keçirilib. Gecədə təhsil şöbəsinin nümayəndələri, 40 məktəbin tarix müəllimləri, məktəbin pedaqoji kollektivi və şagirdlər iştirak edib.

Bədii gecədə Azərbaycan tarixinin ən qədim dövrlərindən başlayaraq ən yeni dövrədək olan tarixi faktlara nəzər salınıb.

Daha sonra gecədə şagirdlər tərəfindən ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.

**Mahal MƏMMƏDOV,**
*Şəki Şəhər Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Nəsimi İli"nə həsr olunmuş intellektual oyun

Məktəblilər arasında "Nəsimi İli"nə həsr olunmuş intellektual oyun üzrə məktəb çempionatı Biləsuvar şəhər 4 nömrəli tam orta məktəbdə keçirilib.

Redaksiyamıza daxil olan məlumata görə, rayon təhsil şöbəsinin müdiri Aqşin Bağırov qeyd edir ki, 2019-cu ildə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Məhz Nəsimi irsinin milli, mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq 2019-cu ili ölkə Prezidenti İlham Əliyev "Nəsimi İli" elan edib.

İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir. Odur ki, İmadəddin Nəsiminin həyat və yaradıcılığının müasir gənclərə daha dərindən təbliğ edilməsi pedaqoji kollektivlərin qarşısında duran ən mühüm vəzifələrindən biridir.

Çıxışlardan sonra çempionata start verilib. 28 ümumtəhsil məktəb komandası arasında keçirilən yarışda İmadəddin Nəsiminin həyatı və yaradıcılığına aid suallara daha dolğun cavab verən şəhər 1 nömrəli tam orta məktəbin komandası I, Ağayrı kənd tam orta məktəbinin komandası II və İsmətli kənd tam orta məktəbinin komandası isə III yerlərə layiq görülüb.

Qalib komandalar rayon təhsil şöbəsinin diplomları ilə mükafatlandırılıblar.

# "Şagirdləri sevərək öyrədirsənsə qarşılığını alacaqsan"

*Ülviyyə Rəsulova:* "Gənc müəllimlər üçün yaradılan şəraitə və qayğıya görə ölkə başçısına minnətdaram"

**Ülviyyə Rəsulova 1990-cı ildə Gədəbəy rayonunda anadan olub. 2008-ci ildə Gədəbəy rayonu şəhid İlham Əliyev adına 2 nömrəli tam orta məktəbi bitirib. Həmin il yüksək bal toplayaraq (509 bal) Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat fakültəsinə qəbul olub. 2014-cü ildə müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edərək 85% nəticə ilə Gədəbəy rayon İsalı kənd tam orta məktəbinə riyaziyyat müəllimi təyin olunub.**

**Hazırda Qax rayon Qaratala kənd tam orta məktəbində riyaziyyat müəllimi işləyir.**



*- Ülviyyə xanım, yüksək bal toplayaraq, müəllimlik ixtisasını seçmisiniz, niyə müəllimlik?*

- Müəllim olmaq ən böyük arzum olub. Bu arzu ailəmizdə babam və anamın müəllim olması ilə bağlıdır. Həm də məktəbdə müəllimlərimə olan sevgim mənim bu peşənin sahibi olmağımda böyük rol oynayıb. Məktəbdə oxuyarkən riyaziyyat fənnini çox sevirdim, riyaziyyat müəllimim "sən gələcəyin riyaziyyatçısı olmalısan" sözü ilə məni bu peşəyə daha da həvəsləndirirdi.

*- Riyaziyyat fənnini tədris etmək, şagirdlərə sevdirmək çətin deyil ki?*

- Doğrusu çətinliyi var. Əbəs yerə deməyiblər ki, riyaziyyat elmlərin şahıdır. Ümumtəhsil məktəblərində tədris olunan ən vacib fənlərdən biri olması, buraxılış imtahanlarında məhz riyaziyyat fənninin olması bu fənni tədris edən müəllimlərin boynuna ikiqat məsuliyyət qoyur. Bu gün şagirdlərin meyil və maraq dünyası daha geniş olduğunu, informasiya bolluğu olan bir cəmiyyətdə yaşadığımızı nəzərə alaraq riyaziyyat bütün fənn müəllimlərindən şagirdlərin qarşısına tam hazır, onların maraqlarını təmin edəcək bir formada çıxmağı tələb edir. Bütün bunların öhdəsindən isə elmi hazırlıqlı olmaqla yanaşı öz işini sevən bir müəllim gələ bilər. Mən öz peşəmin vurğunuyam. Şagirdlər fənni təkcə dərs prosesində deyil, əlavə məşğələlərdə, dərnəklərdə, eləcə də məktəbdənkənar və sinifdənxaric tədbirlərdə də mənimsəməlidir. Buna görə fəaliyyətə başladığım ilk dövrlərdən bu məsələni diqqət mərkəzində saxlamışam. Məsələn, bu tədris ilində mart ayında VI-X sinif şagirdləri ilə "Riyaziyyat birinciləri" adlı bilik yarışı, aprel ayında isə "Məntiq və riyaziyyat" mövzusunda fənn gecəsi keçirmişəm. Noyabr və mart aylarında isə "açıq dərs"im olub.

*- Pedaqoji fəaliyyətinizə ilk olaraq harada başlamısınız?*

- 2014-cü ildə müəllimlərin işə qəbulu müsabiqəsində iştirak etdim. 85% nəticə ilə doğulduğum rayonu seçərək Gədəbəydə fəaliyyətə başladım. Baxmayaraq ki, 2012-ci ildən ailə həyatı quraraq Qax rayonunda yaşayıram, həmin il Qaxda vakansiya olmadığından Gədəbəy rayonunu seçdim. 2017-ci ildə yerdəyişmə edərək, Şəki rayonu Əliyar kənd ümumi orta məktəbində fəaliyyətimi davam etdirdim. Beləliklə, üç il Gədəbəydə, bir il Şəkidə işləmişəm.

*- Digər rayonlarda fəaliyyətiniz dövründə hansı çətinliklərlə qarşılaşmısınız?*

- Hər insanın həyatında çətinliklər olur. Lakin bunlar onu əksinə möhkəmləndirir. Gədəbəydə, Ermənistanla sərhəd kənddə işləmək, hər gün atəş səsi altında dərs demək, Şəkinin Əliyar kəndinə hər gün Qaxdan 85 km yol gedib gəlmək nəinki məni qorxutmayıb, əksinə işimə bağlılığımı bir az da artırıb. Hətta fəxr etmişəm ki, vətənimə olan borcumu mən də sərhəd kəndində şagirdlərə keyfiyyətli bilik verməklə yerinə yetirirəm. Və ailəm hər zaman mənə dəstək olub.

*- Hazırda Qax rayonunun Qaratala kəndində pedaqoji fəaliyyətinizi davam etdirirsiniz...*

- Bu tədris ilindən Qax rayonunda fəaliyyətə başladım. Ailəmdə yaranan problemlər, iş yerimin yaşayış yerimdən 85 km aralı olması, üç azyaşlı övladımın olması ilə əlaqədar Təhsil Nazirliyinə müraciət etdim. 2018-ci il 13 iyun tarixində Təhsil naziri Ceyhun Bayramovun qəbulunda oldum. Çox sağ olsun, mənim ərizəmə müsbət cavab verərək, iş yerimi Qax rayonu Qaratala kənd tam orta məktəbinə dəyişdi. Gənc müəllimlər üçün yaradılan şəraitə və qayğıya görə ölkə başçısına minnətdaram. Dövlətimiz hər bir gənc üçün qayğısını əsirgəmir, hər zaman yanında durur.

*- İşlədiyiniz pedaqoji kollektiv haqqında nə deyə bilərsiniz?*

- Mən həmişə yaxşı kollektivlərdə işləmişəm. Gədəbəy və Şəki rayonlarında işlədiyim pedaqoji kollektivlərdə gənc müəllim kimi daima qayğı ilə əhatə olunmuşam. Bu qayğıya, köməyə görə xüsusi ilə Şəki rayonu Əliyar kənd ümumi orta məktəbinin direktoru Yusif Vəliyevə öz dərin təşəkkürümü bildirirəm. Hazırda işlədiyim Qax rayonu Qaratala kənd tam orta məktəbində mehriban həmkarlarım və sevimli şagirdlərim var.

*- Sizcə, əsl müəllim necə olmalıdır?*

- Düşünürəm ki, şagirdləri sevən, qayğısına qalan, can yandıran hər bir müəllim əsl müəllimdir. Əgər şagirdləri sevirsənsə, sevərək öyrədirsənsə, onda qarşılığını hər zaman alacaqsan.

*- Arzularınız və gələcək planlarınız?*

- Ən böyük arzularımdan biri dövlətimiz üçün tərbiyəli, ağıllı, savadlı, dünyagörüşlü şagirdlər yetişdirməkdir. Hədəflərim, planlarım çoxdur. İnşallah öz üzərimdə işləyərək bütün arzularımı həyata keçirəcəyəm.

*- Sizə pedaqoji fəaliyyətinizdə uğurlar arzulayırıq.*

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Vətənin müdafiəsinə hazıram"

Balakən rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında 28 May Respublika gününə həsr edilmiş "Vətənin müdafiəsinə hazıram" mövzusunda rəsm müsabiqəsi keçirilib.

Təhsil şöbəsindən aldığımız məlumata görə, müsabiqədə Nizami adına şəhər 1 nömrəli tam orta məktəbin V sinif şagirdi Səbinə Daşdəmirova I, Poştbinə 1 nömrəli kənd tam orta məktəbinin VIII sinif şagirdi Həlimə Ömərova II, Katex zavod tam orta məktəbinin XI sinif şagirdi Albina Velixanova III yerləri tutublar.

Nizami adına şəhər 1nömrəli tam orta məktəbin V sinif şagirdləri Murad Oynağanov və Maqomed Baydarov, Hənifə kənd tam orta məktəbin VI sinif şagirdi Alvina Koxayeva, Qazma 1 nömrəli kənd tam orta məktəbinin şagirdi Şehriman Layıcov isə həvəsləndirici yerlərə layiq görülüblər.

## "Ana dili" bayramı

İmişli rayonunun Buludlu kənd tam orta məktəbində birincilərin "Ana dili" bayramı keçirilib. Bayram tədbirində pedaqoji kollektivlə yanaşı, valideynlər də iştirak edib.

Məktəbin direktoru Əli Nəcəfov tədbirdə çıxış edərək Azərbaycan dilinin formalaşması tarixindən, ədəbi dilin zənginliyindən, qonşu xalqların dili və mədəniyyətinə təsirindən və bu dildə yaranan qiymətli ədəbi xəzinələrdən danışıb. Məktəblərdə daha yaxşı şəraitin yaradılmasından və şagirdlərin üzərinə düşən vəzifələrdən söz açaraq birinciləri bayram münasibətilə təbrik edib.

Tədbirdə qeyd olunub ki, "Ana dili" bayramı birincilərin ən sevimli bayramıdır. Əlifba bütün elmlərin açarı və insanları elmə aparan yoldur. Ona görə də ənənəvi olaraq birincilər əlifbanı öyrənib başa çatdırdıqdan sonra bunu xüsusi bir bayram kimi qeyd edirlər.

Birincilər bütün hərfləri tanıdıqlarını və sərbəst oxuduqlarını müxtəlif üsullarla, tamaşalarla nümayiş etdirməklə yanaşı maraqlı musiqi və rəqslərlə bayram tədbirini unudulmaz xatirəyə çeviriblər.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Əlaçı" intellektual yarışı

Göygöl rayon Çaylı kənd tam orta məktəbində VII-VIII sinif şagirdlərinin iştirakı ilə "Əlaçı" intellektual yarışı keçirilib.

Yarışın keçirilməsində məqsəd şagirdlərin rəqabət qabiliyyətinin inkişaf etdirilməsi, bilik və bacarıqlarının təkmilləşdirilməsi olub.

Şagirdlər qruplara bölünərək tarix və coğrafiya fənlərindən səsləndirilən sualları cavablandırıblar. Sonda qalib olan şagirdlər mükafatlandırılıblar.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Sağlam məktəbli"

Saatlı şəhər 4 nömrəli tam orta məktəbdə Qida Təhlükəsizliyi Agentliyinin "Sağlam məktəbli" layihəsi çərçivəsində şagirdlərlə görüş keçirilib. Görüşdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və təhsil şöbəsinin əməkdaşları, ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri iştirak ediblər.

Tədbirdə şagirdlərə layihə haqqında ətraflı məlumat verilib, onlara "Qida zəncirinin mərhələləri" və "Qida məhsullarında etiket məlumatlarının vacibliyi" mövzularında videoçarxlar təqdim edilib.

Görüşdə məktəbliləri maraqlandıran suallara cavablar verilib və onlara qida təhlükəsizliyi ilə əlaqədar maarifləndirici materiallar paylanılıb. Agentlik tərəfindən həyata keçirilən "Təhlükəsiz qida uşaqların gözü ilə" rəsm müsabiqəsi haqqında ətraflı məlumat verilib və şagirdlərin həmin müsabiqədə iştirakı tövsiyə olunub.

**Xalid NƏCİYEV,**
*Saatlı Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# "Made in Azerbaijan 2019" müsabiqəsinin qalibləri

UNEC-də "Made in Azerbaijan 2019" biznes-ideya müsabiqəsinin final mərhələsi keçirilib. Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, "Kapital Bank" ASC və UNEC-in birgə təşkil etdiyi müsabiqənin məqsədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 yanvar 2016-cı ildə "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı Sərəncamın tətbiqinə ali təhsil müəssisələri səviyyəsində dəstək vermək, tələbələr arasında sahibkarlıq fəaliyyətini təbliğ etmək idir.

"Made in Azerbaijan 2019" biznes-ideya müsabiqəsinə respublikanın müxtəlif universitetindən 40 layihə təqdim olunub. Biznes ideyalar hazırlanarkən onların sərəncama və müsabiqənin missiyasına uyğunluğu, məhsul və xidmətin innovativliyi, texnoloji yeniliyi, layihənin daxili bazarda tətbiqinin reallığı, bazar və rəqabət imkanları, biznes modeli nəzərə alınıb. Ekspert Şurası təqdim edilən biznes ideyaları dəyərləndirib və 5 layihə finala vəsiqə qazanıb.

Finala vəsiqə qazanan "View-Go", "Oyuncaqçı", "Kitablı", "One click-One hand" və "Bio Bone" layihələrin ideya müəllifləri UNEC, Bakı Dövlət Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə Dövlət Universiteti və Xəzər Universitetinin tələbələridir.

Finalda çıxış edən komandaların təqdimatlarından sonra münsiflər heyəti biznes ideyaları tətbiqinin mümkünlüyü, məhsulun və ya xidmətin brendləşmə perspektivi, investisiya cəlbediciliyi, təqdimatı, sualların cavablandırılması, orijinal və kreativ yanaşmaya görə qiymətləndirib.

Münsiflər heyətinin qərarı ilə "Kitablı" biznes ideyası qalib olub. Layihənin məqsədi elektron vəsaitləri bir portalda toplamaq, müəyyən fənlər üzrə izahlı video bazaya sahib olmaq, tələbələrin çətinlik çəkdiyi testlərin müəllimlər tərəfindən izahlarını təqdim etməkdən ibarətdir.

II yerə "ViewGo", III yerə isə "Oyuncaqçı" biznes ideyası layiq görülüb.

Qaliblər müsabiqənin sponsoru olan "Kapital Bank" ASC tərəfindən mükafat qazanıb. Belə ki, müsabiqədə 1-ci yerin sahibi 2000 AZN, 2-ci yer 1500 AZN, 3-cü yer isə 1000 AZN mükafata sahib olublar. Qalib komandalara həmçinin Gənclər və İdman Nazirliyi tərəfindən dəyərli hədiyyələr təqdim olunub.

# BMU beynəlxalq universitetlərlə əməkdaşlığını genişləndirir

## Havar Məmmədov Gürcüstan Texniki Universitetinin fəxri doktoru adına layiq görülüb



Müasir elmi biliklərə yiyələnmiş akademik heyət və innovativ maddi-texniki bazaya sahib olan Bakı Mühəndislik Universiteti (BMU) əməkdaşlıq üçün xarici universitetlərin diqqətini cəlb edir. BMU dünyanın bir sıra qabaqcıl universitetləri ilə uğurlu əməkdaşlıq edir. Bu günlərdə universitetlə əməkdaşlığa Gürcüstan Texniki Universiteti (GTU) də qoşulub.

BMU-nun rektoru, professor Havar Məmmədov GTU rəhbərliyinin dəvəti ilə Gürcüstanda olub. Rektor H.Məmmədov səfər zamanı Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov ilə birlikdə Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edib.

Sonra əməkdaşlıq müqaviləsi imzalanması məqsədilə geniş tədbir keçirilib. GTU rektoru Arçil Prangişvili çıxışında bildirib ki, bu gün Gürcüstan ilə Azərbaycan arasında münasibətlər digər sahələrlə yanaşı, elm və təhsil sahəsində də uğurla inkişaf edir. Rektor rəhbərlik etdiyi universitetin BMU ilə əməkdaşlığının genişlənməsində maraqlı olduğunu vurğulayıb və bildirib ki, imzalanan memorandum əlaqələrin inkişafında mühüm rol oynayacaq.

Professor H.Məmmədov çıxışında Azərbaycan ilə Gürcüstan arasında dostluq münasibətlərinin tarixinə nəzər salıb. Azərbaycanın hər zaman dost gürcü xalqının yanında olduğunu, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dostluq siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bu gün də ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini xüsusi qeyd edib. Professor Azərbaycanda təhsilin inkişafı, bu sahəyə göstərilən dövlət qayğısı, BMU-nun fəaliyyəti, beynəlxalq əlaqələri barədə ətraflı məlumat verib və GTU ilə əməkdaşlığın perspektivlərini yüksək qiymətləndirib.

Sonra rektorlar əməkdaşlıq memorandumu imzalayıblar. Memoranduma əsasən iki universitet arasında kadr hazırlığı, müəllim və tələbə mübadiləsi, birgə elmi konfrans və "dəyirmi masa"ların təşkili, elmi tədqiqatların aparılması və s. kimi məsələlər nəzərdə tutulur.

Daha sonra A.Prangişvili tədbir iştirakçılarını GTU Elmi Şurasının qərarı ilə tanış edib. Bildirib ki, Elmi Şuranın qərarı ilə texnika elmləri doktoru, professor H.Məmmədov GTU-nun fəxri doktoru adına layiq görülüb. H.Məmmədov bu fəxri ada uzun müddət apardığı elmi araşdırmaların uğurlu nəticələrinə, dünya elminə, eləcə də Azərbaycan və Gürcüstan universitetləri arasında əməkdaşlığın inkişafına verdiyi töhfələrə görə layiq görülüb.

Tədbirdən sonra professor H.Məmmədov GTU-nun maddi-texniki bazası ilə tanış olub, universitetdə təhsil alan azərbaycanlı tələbələrlə görüşüb. Azərbaycanlı tələbələrin qayğıları ilə maraqlanan rektor onlara tövsiyələrini də verib.

# Ümumi təhsil qanunu: uzun illərin həsrəti

## Səriştəlilik. Səriştələrsiz?



**Asif CAHANGİROV,**
*Əməkdar müəllim*

Qlobal təhsil ilə yaxından maraqlanan mütəxəssislərə yaxşı məlumdur ki, Avropa İttifaqının əlaqədar qurumları, bir çox ölkələr yaxın 15-20 ildə qlobal dünyanın informasiya, ekoloji, texnoloji, iqtisadi və s. məkanlarında, xüsusilə də, koqnitiv sahədə baş verəcək inqilabi proseslərin proqnozlaşdırılması və qarşıya çıxacaq problemlərin həlli yollarının müəyyənləşdirilməsinə, bununla əlaqədar ümumi və universitet təhsilinin yeni mühitə hazırlığının təmin edilməsinə çox böyük diqqət yetirirlər. XX əsrin sonundan başlayaraq xüsusi proqramlar işlənilib həyata keçirilir, onların müntəzəm inkişafı daim diqqət mərkəzində saxlanılır.

Əsas məqsəd insan həyatının gözlənilən sürətli dəyişikliklərə uyğunlaşdırılmasından, uşaq və gənclərin müstəqil həyatda xoşbəxt yaşaması və uğur qazanması üçün ən optimal təhsil modellərinin tətbiqindən, onlarda zəruri səriştələrin formalaşdırılmasından ibarətdir. Bəli, bu gün ən mühüm təhsil problemlərindən biri yeni dövrün tələblərinə cavab verən səriştələr sisteminin hazırlanıb həyata keçirilməsidir.

Əlavə şərh vermədən hörmətli oxucularımıza səriştələrin aşılanması və inkişafına yönələn

### bir sıra mənbələr

barədə məlumat vermək istərdim:

* 1996-cı il, Avropa Şurasının tövsiyələri - "Avropa üçün açar səriştələr" ("Key competencies for Europe");

* 2006-cı il, Avropa Parlamenti və Avropa Şurasının tövsiyələri - "Ömürboyu təhsil almaq üçün səriştələr - istinad olunan çərçivə" ("The Reference Framework of Key Competences for Lifelong Learning", Recommendations approved by the European Parliament and the Council);

* 2018-ci il, Sinqapur Texnologiya İnstitutunun reklamı - "VUCA dünyası üçün ömürboyu öyrənmə" ("Lifelong Learning for a VUCA World");

* 2018-ci il, ABŞ Nyu-Hempşir Universitetinin təqdimatı - "VUCA dünyasında təhsil" ("Education in a VUCA World");

* 2018-ci il, Rusiya, "Ali İqtisad Məktəbi" universitetinin Təhsil İnstitutunun məruzəsi - "Açar səriştələr və yeni savadlılıq: bəyannamələrdən reallığa doğru" ("Ключевые компетенции и новая грамотность: от деклараций к реальности").

### İki şərh

**1.** Əvvəlcə Yer kürəsini yaxın gələcəkdə bürüyəcək və doğma Azərbaycandan da yan keçməyəcək VUCA dünyası barədə. Bu akronim Volatility (qeyri-stabillik), Uncertainty (qeyri-müəyyənlik), Complexity (mürəkkəblik) və Ambiguity (qeyri-adilik) sözlərinin baş hərflərindən formalaşdırılmışdır. Diqqət yetirin: 15-20 ildən sonra VUCA dünyasının qeyri-stabil, qeyri-müəyyən, mürəkkəb və qeyri-adi mühitində insanların uğurlu yaşamasını təmin etmək məqsədilə qlobal təhsil məkanında bu günün şagird və tələbələri üçün yeni təhsil modellərinin işlənib hazırlanması üzrə əməli tədbirlər həyata keçirilir!

**2.** Tanınmış beynəlxalq mütəxəssislərlə birlikdə Rusiyada hazırlanmış və əsl innovasiya mahiyyəti daşıyan məruzə aşağıdakı konsepsiyaya əsaslanır: yaxın onillikdə yeni tipli əməyə keçidlə əlaqədar ayrı-ayrı ixtisaslar üzrə bilik-bacarıqlar artıq öz əhəmiyyətini itirəcək və onların yerini "XXI əsrin ümumi səriştələri" - koqnitiv, sosial-emosional və rəqəmsal səriştələr tutacaq.

## II məqalə

Qeyd edək ki, Azərbaycan Prezidenti tərəfindən 2013-cü ildə təsdiq olunmuş

### "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"

ölkəmizin təhsilində əhəmiyyətli dərəcədə köklü dəyişikliklər üçün geniş yol açmışdır. Xüsusilə də "Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması" üçün. Əlbəttə, mətbuat səhifələrində, televiziya və radioda, Təhsil Nazirliyinin keçirdiyi yığıncaqlarda daim "səriştə, səriştəlilik, səriştə əsaslı təhsil" və buna uyğun ifadələrə tez-tez rast gəlinir. Danılmaz faktdır ki, son zamanlar səriştə əsaslı təhsil sahəsində müəyyən canlanma müşahidə olunur. Bununla yanaşı, nə qədər acı olsa da, böyük təəssüf hissi ilə qeyd etməliyəm ki, biz hələ də əsasən sovetlər dövründən miras qalmış təhsilin təkmilləşdirilməsi ilə məşğuluq. Belə rəyin söylənilməsinə 2 sənədli əsasım var:

* "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"nın layihəsi;

* "Ümumi təhsil haqqında" Qanunun layihəsi.

Yuxarıdakı başlığa uyğun olaraq, bu məqalədə hazırlanan qanun layihəsində

### səriştə əsaslı təhsilin qanunvericilik bazası

haqqında danışacağıq. İlk növbədə təəccübümüzü bildirək: "Səriştə" termininə qanunun "Əsas anlayışlar" maddəsində yer tapılmayıb! Məlumat üçün: Təhsil Strategiyasında "səriştə" ifadəsi 22 dəfə səsləndirildiyi halda qanun layihəsində bu anlayışdan cəmi 2 dəfə istifadə olunmuşdur:

### "Maddə 4. Ümumi təhsil sahəsində dövlətin vəzifələri

... 4.0.3. Ümumi təhsilə dair normativ-hüquqi aktlar qəbul etmək, bu sahənin inkişafı üzrə səriştələrə əsaslanan, nəticəyönlü dövlət təhsil standartlarını ... təsdiq etmək və icrasına nəzarəti həyata keçirmək;

### Maddə 12. Ümumi təhsil müəssisəsi

... 12.3. Ümumi təhsil müəssisəsi bu Qanunla müəyyən olunmuş ümumi təhsil sahəsi üzrə məqsədlərin əlçatan, səriştələrin inkişafı və fasiləsiz təhsilin həyata keçirir".

Sözsüz ki, hər iki dəfə "səriştə" ifadəsi yerliyerində istifadə olunmuşdur. Bir şərtlə ki, 12.3. maddəsi ciddi redaktə olunaraq Azərbaycan dilində yazılsın və "fasiləsiz təhsil" ifadəsi icbari 9 illik təhsilə aid edilsin. Ümumtəhsil məktəbi fasiləsiz təhsilin bir mərhələsini həyata keçirir, şagirdləri fasiləsiz təhsil almağa hazırlaşdırır, onlara öyrənməyi öyrənmək səriştələrini aşılayır. 11 illik təhsil isə icbari xarakter daşımır.

Hörmətli opponentlərin rəyini əvvəlcədən təxmin edərək bildirim ki, Qanun layihəsində 8 dəfə "bacarıq", 6 dəfə "bilik və bacarıq", 9 dəfə "bilik, bacarıq və vərdiş" - cəmi 23 belə ifadə işlənilmişdir.

### Və - nə?..

Bu fikirdə israrlıyam ki, konseptual baxımdan sovetlərdən miras qalmış yuxarıda göstərilən yanaşma ümumi təhsilimizi nəinki irəliyə aparmayacaq, əksinə, onun inkişafını xeyli ləngidəcək! Əminliklə deyirəm: "Ümumi təhsil haqqında" Qanun məhz şəxsiyyətyönlü və səriştə əsaslı ümumi təhsilin bərqərar olmasına xidmət etməlidir!

Əvvəlcə 2000-ci ilin avqustunda Təhsil Nazirliyinə təqdim etdiyim "Təhsilin keyfiyyətinə nəzarətin, monitorinq və qiymətləndirmənin təşkili və tətbiqinin bəzi konseptual məsələləri" sənədinə istinad edim. Həmin sənədin 5A. "Təhsilalanların kompetensiyaları" bölməsindən:

"5.1. Kompetensiya (səriştəlilik) təlim vasitəsi ilə əldə olunan və bilik, bacarıq, dəyər və meyillərə, habelə təcrübəyə əsaslanan ümumi qabiliyyətdir... Kompetensiyanı nə biliklərə, nə də bacarıqlara aid etmək düzgün olmazdı. Bacarıq fəaliyyətə daha yaxşı hazırlığın, yaxud spesifik şəraitdə fəaliyyət göstərmə imkanlarının təzahürüdür. Kompetensiya isə fəaliyyətin səciyyəvi xüsusiyyətlərinin təsviridir...

5.2. ... bu gün pedaqoji prosesin təşkilinə yanaşma tərzi kökündən dəyişmiş, bu sahədə ciddi dönüş yaranmışdır... Tədris planının formalaşdırılmasında və tədris proqramlarının məzmununun müəyyənləşdirilməsində kompetensiyaların əsas amil kimi qəbul edilməsi... ən aktual problemlərdən biridir".

**Haşiyə.** *2000-ci ildə düşünürdüm ki, "kompetensiya" termini sənədin məqsədlərinə tam cavab verir. Dövlət Təhsil Strategiyasını hazırladığımız dövrdə dilçi mütəxəssislərlə məsləhətləşdik və Azərbaycan dili üçün "səriştə" termininin daha münasib olduğu qənaətinə gəldik. 2011-ci ildən başlayaraq həmişə "səriştə" terminindən istifadə edirəm. Əfsuslar olsun ki, müxtəlif yazı və çıxışlarda "kompetensiya" və "səriştə" ifadələrinə fərqli məna daşıyan anlayışlar kimi yanaşılır.*

### Bir daha və çox qısa

1) səriştə və 2) bilik-bacarıq-vərdişlər haqqında. İlk növbədə xüsusi vurğulamaq istərdim ki, həmin anlayışlar bir-birini inkar etmir və bir-birinə qarşı çıxmır. Bununla belə, birincisi daha geniş məna daşıyır.

Sözsüz ki, səriştə əsaslı təhsil haqqında daha ətraflı danışılmalıdır, lakin bu, başqa söhbətin mövzusudur. Məqaləmin məqsədi "Ümumi təhsil haqqında" Qanunun məhz "səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil" strategiyasına cavab verən formatda hazırlanmasının vacibliyini müvafiq qurumlara çatdırmaqdır. Əminliklə deyirəm: Dövlət Təhsil Strategiyasında əks olunmuş bu konseptual yanaşma Qanunun bir çox maddələrində açıqlanmalı, onun "qırmızı xətt"ini təşkil etməlidir.

Əvvəlki məqaləmdə ("Azərbaycan müəllimi", 19.04. 2019) qeyd etdiyim kimi, "Ümumi təhsil haqqında" Qanunun layihəsinə dair 100-dən artıq rəy və təklifim var. İki məqalədə onların yalnız ikisinə şərh verə bildim, halbuki prinsipial mahiyyət daşıyan 10-dan çox digər problem də var: ümumi təhsilin minimal standartları (maddə 5), təhsil proqramları (maddə 9), məzmuna verilən ümumi tələblər (maddə 10), ümumi təhsilin təşkili (maddə 13), ümumi təhsil müəssisəsinin idarə olunması (maddə 20), pedaqoji fəaliyyətlə məşğul olma (maddə 27), sahibkarlıq və innovasiya fəaliyyəti (maddə 31) və s.

### Yekun əvəzi

Bir vacib qanunvericilik məsələsinə xüsusi toxunmaq istərdim. 2009-cu ildə dəfələrlə deyilirdi ki, "Təhsil haqqında" Qanun çərçivə qanunudur və sonradan təhsil səviyyələri üzrə sahə qanunları da qəbul olunacaq. O vaxt "525-ci qəzet"də (21.02. 2009) dərc etdirdiyim "İstəklərimizə çatacağıqmı?" məqaləsindən bir parça: "Belə düşünürəm ki, çərçivə xarakteri daşıyan qanun mətninin qısaldılması və burada ilk növbədə mahiyyətcə bütövlükdə təhsil sisteminə aid olan ümumi məsələlərin verilməsi daha düzgün olardı. Əks halda sahə qanunları hazırlanarkən, çox güman ki, çərçivə qanununun 70-80 faizi onların hər birinə daxil ediləcək".

Qüvvədə olan "Təhsil haqqında" Qanunun və müzakirə etdiyimiz "Ümumi təhsil haqqında" Qanun layihəsinin fəsil və maddələrini müqayisə etdim: cüzi redaktə xarakterli düzəlişləri çıxmaqla ("Təhsil" sözündən əvvəl "Ümumi" sözünün yazılması, bəzi maddələrin bir fəsildən digərinə keçirilməsi, onların adlarının birləşdirilməsi və s.), demək olar ki, yeni layihə əsasən qüvvədə olan qanun müddəalarının ümumi təhsilə adaptasiya olunmuş təkrarıdır. Belə olduğu halda "Ümumi təhsil haqqında" Qanuna nə lüzum? Uyğunlaşdırmanı müvafiq hüquqi normativ sənədlərdə də asanlıqla həyata keçirmək olardı.

Doğrusu, nə qədər çalışsam da, internet mənbələrindən çərçivə qanununun sahə qanunundan konseptual fərqi barədə tutarlı məlumat əldə edə bilmədim. Yaxşı olardı ki, mütəxəssislər tərəfindən mətbuatda, yaxud Milli Məclisin saytında bu barədə bir açıqlama veriləydi.

Bundan asılı olmayaraq, qəti əminəm ki, "Ümumi təhsil haqqında" Qanunun layihəsi yenidən işlənilməlidir! İlk növbədə isə onun konseptual əsasları müəyyənləşdirilməlidir!

# Tələbələr məktəbə gedir

## Həm təcrübə qazanır, həm də şagirdləri öyrədirlər

Edinburqun ali məktəb tələbələri boş vaxtlarını universitetlərə qəbulda çətinlik çəkən məktəblilərə həsr etməklə onların rəğbətini qazanıblar. Tələbələr əsasən də ali məktəblərə qəbul payı az olan orta məktəblərə üz tuturlar. Onlar məktəblərdə təşkil edilmiş müxtəlif dərnəklərdə şagirdlərə ali məktəbə hazırlaşmaqda köməklik göstərirlər. Mart ayından start götürmüş dərnəklərdə keçilən dərslər şagirdlərə universitet imtahanlarında məqbul qiymətlər almağa kömək edəcək. Hələlik layihədə Edinburqdakı Riyaziyyat və Geologiya Elmləri Universitetinin bakalavrları iştirak edir. "Tələbə-müəllimlər sinifdə iş təcrübəsində böyük fayda əldə ediblər və eləcə də şagirdlərin həyatını real olaraq dəyişdirmək imkanı qazanıblar", - deyə layihənin rəhbəri Sofi Flek bildirib.

Universitet bu sahədə innovasiyaların böyük təcrübəsinə malikdir. Ali məktəb cəmiyyətin bütün təbəqələrini Edinburqda təhsil almaq imkanına baxmağa vadar etməyə çalışır. Bu layihədə iştirak edən könüllülər milli imtahanlara, eləcə də əmək bazarına hazırlaşan məktəblilərə əsas ixtisaslaşma fənni olan riyaziyyatdan keyfiyyətli təlim keçir. Məşğələlər hər bir şagirdin fərdi qabiliyyətləri nəzərə alınmaqla təşkil olunur.

Layihədə iştirak etmiş bütün şagirdlər onlara göstərilən dəstəyi yüksək qiymətləndirir. Tələbələr həm təcrübə qazanır, həm də şagirdləri öyrədirlər. "Məndə bu qeyri-adi layihə haqqında çox yaxşı hiss var, ümid edirəm ki, o, nəticələrə müsbət təsir göstərəcək" - deyə Craigroyston orta məktəbinin müəllimi Linn Braun bildirib. Layihənin təşkilatçıları deyirlər ki, artıq təşəbbüsdə iştirak edən şagirdlərdən, müəllimlərdən və məktəb rəhbərlərindən müsbət rəylər alıblar.

# Şagirdlərin əl işlərindən ibarət sərgi-satış yarmarkası



Bakıdakı Heydər Əliyev adına lisey artıq 6 ildir ki, eTwinning icmasının üzvüdür. Bu müddət ərzində icra olunan layihələr həm milli, həm də Avropa keyfiyyət nişanlarına layiq görülüb. Qeyd edək ki, bu göstəricilərə görə lisey daha bir uğura imza ataraq 2019-cu ildə "eTwinning school" " eTwinning məktəb" mükafatı alıb. Bunun nəticəsində liseyin direktoru Sevinc Orucova İrlandiyanın Dublin şəhərində keçirilən konfransda iştirak edib. Konfrans müddətində bir çox Avropa ölkələrinin təhsil müəssisələrinin rəhbərləri ilə də görüşən S.Orucova yeni əməkdaşlıqların növbəti mərhələsinin əsasını qoyub.

Liseyin "e Twinnig" çərçivəsində həyata keçirdiyi layihələr arasında "Small deeds for great needs" ("Böyük ehtiyaclar üçün kiçik əməllər") beynəlxalq layihəsini də vurğulamaq lazımdır. Layihə üç ölkə-Azərbaycan, İspaniya və Moldova müəllim və şagirdləri arasında qarşılıqlı əməkdaşlıq əsasında həyata keçirilir. Layihənin rəhbəri liseyin tədris işləri üzrə direktor müavini, ingilis dili müəllimi Natəvan Bədəlovadır. Layihədə liseyin 5d və 6ç sinif şagirdləri iştirak edir. Adıçəkilən layihənin əsas məqsədi qeyd olunan ölkələrin inkişafında əvəzsiz xidmətləri olan xeyriyyəçilər haqqında araşdırmalar aparmaq, onların fəaliyyətləri ilə yaxından tanış olmaq və təqdimatlar hazırlamaqdır. Nəzərə çatdıraq ki, layihə çərçivəsində şagirdlər Mehriban xanım Əliyeva, Hacı Zeynalabdin Tağıyev, Nabat xanım Aşurbəyova, Murtuza Muxtarov, El Padre Angel (ispan), Vicente Ferrer (ispan), Diego Hidalgo Schurun (ispan) haqqında geniş miqyaslı araşdırmalar aparıb.

Kiçik xeyriyyəçilik tədbirlərini gerçəkləşdirmək layihədə qarşıya qoyulan məqsədlərdən biridir. Elə bu məqsədlə də mayın 19-da Beynəlxalq Muğam Mərkəzində liseyin şagirdlərinin əl işlərindən ibarət "Helping Hands" adlı sərgi - satış yarmarkası təşkil edilib və toplanan vəsaitlə Bakı şəhərində yerləşən Uşaq Sığınacağındakı 32 müxtəlif yaş qrupundan olan uşaqlar üçün qida məhsulları, geyim əşyaları, məktəb ləvazimatları, oyuncaqlar alınıb. Xeyriyyə tədbirinə Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin "eTwinning Plus" layihələri üzrə baş məsləhətçisi Fidan Nəcəfova, Bakı və Sumqayıt şəhərində yerləşən bir sıra məktəblərin nümayəndələri də qoşulub. Sevindirici haldır ki, xeyriyyə tədbirində eyni zamanda Cəbrayıl rayon Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin müəllim və şagird kollektivi də iştirak edib. Cocuq Mərcanlıdan gələn qonaqlar "eTwinning" layihəsi haqqında ətraflı məlumat alıb.

Sonda qonaqlara müxtəlif hədiyyələr təqdim edilib.

# "Evrika" liseyində Beynəlxalq Gün



**Ofeliya MURADOVA,**
*"Evrika" liseyinin direktoru, filologiya üzrə fəlsəfə doktoru*

Təhsilin inkişafı hər bir ölkənin inkişafının mühüm tərkib hissəsidir. Təhsil sahəsində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən yeni mərhələdə və yeni keyfiyyətdə uğurla davam etdirilir. Bu gün Azərbaycan təhsili özünün yüksək inkişaf dövrünü yaşayır. Azərbaycan təhsil sisteminin dünya təhsil məkanına inteqrasiyası mühüm strateji istiqamətlərdən biridir.

Bu gün müstəqillik yollarında inamlı addımlarla irəliləyən doğma Vətənimizin müxtəlif beynəlxalq miqyaslı yarış və müsabiqələrə ev sahibliyi etməsi təhsil sistemində də yeniliklərə və inkişafa səbəb olub. Bu yaxınlarda multikulturalizmə aid beynəlxalq konfransın, həmçinin V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Bakıda keçirilməsi heç də təsadüfi deyil. Bakı artıq bütün dünya tərəfindən tolerant və beynəlmiləl bir şəhər kimi tanınır. Bütün bunlar respublikamızda həyata keçirilən multikultural siyasətin uğurlu nəticəsidir.

Rəhbərlik etdiyim "Evrika" liseyi multikulturalizm sahəsində xüsusilə fərqlənir. Belə ki, liseyimizdə təxminən on xalqın nümayəndəsi üç dildə - Azərbaycan, rus və ingilis dillərində təhsil alır. Onlarla kifayət qədər təcrübəli və peşəkar müəllim kollektivi məşğul olur. Elə bunun nəticəsidir ki, məzunlarımız hər il ali məktəblərə qəbulda daha yüksək nəticələr göstərirlər. Möhtərəm Prezidentimizin "Biz neft kapitalını insan kapitalına çevirməliyik" fikri məktəbimizin pedaqoji kollektivi tərəfindən gündəlik şüara çevrilib. Bunu da qeyd edim ki, məktəbimizin istər müəllim, istərsə də şagird kollektivi çoxmillətli olsa da, onların arasında səmimi və qarşılıqlı hörmət prinsipi hakimdir.

Mayın 15-də liseyimizdə keçirilən Beynəlxalq Gün tədbiri də bir daha respublikamızdakı tolerantlıq və multikulturalizmə əyani sübut oldu. Tədbirdə ölkəmizdə fəaliyyət göstərən doqquz ölkənin nümayəndələrinin - Hindistan səfiri cənab Vanlal Vavna Bavitlinq, səfirliyin mədəniyyət şöbəsinin müdiri Amit Pandey, Bolqarıstan səfiri Nikolay Yankov, Qazaxıstan səfiri Murat Maman, Yunanıstan səfiri Nikolas D.Kanellos, Türkiyə səfirliyinin mədəniyyət müşaviri İrfan Çiftçi, İran Mədəniyyət Mərkəzinin direktoru Asgər Farsi, Fransa Mədəniyyət Mərkəzinin direktoru Maurice Rufin, Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin təhsil proqramları üzrə koordinatoru L.T.Yakunina, Xalq yazıçısı, "Şöhrət" ordenli, öz zəngin yaradıcılığı ilə Azərbaycanı dünyada beynəlxalq səviyyədə təmsil edən Çingiz Abdullayevin iştirakı həm uşaqların, həm müəllimlərimizin, həm də digər iştirakçıların yaddaşlarında dərin iz buraxdı. Təmsil etdikləri ölkələrin bayraqları, milli mətbəxi, xarakterik atributları ilə bəzədilmiş stolları, habelə bu ölkələrin milli geyimlərini geyinmiş şagirdlərimizi görmək məktəbimizə gələn əcnəbi qonaqların maraq və sevincinə səbəb oldu. Hiss olunurdu ki, şagirdlərimizin onların ölkələrinə bu dərəcədə yaxından bələd olmaları qonaqları hədsiz təəccübləndirib. Məktəbimizin şagirdlərinin bu ölkələrin xalqlarının dillərində mahnı oxuyub rəqs etmələri, eləcə də şeir demələri isə onların əməlli-başlı təsirləndirmişdi.

Əlbəttə, bu mənzərəni seyr etmək bir məktəb direktoru kimi mənim üçün çox xoş idi. Düşünürəm ki, yuxarıda adlarını qeyd etdiyim ölkələrin təmsilçilərinin məktəbimizdə gördükləri, şahidi olduqları təmsil etdikləri ölkələrlə Azərbaycanımızı daha da yaxınlaşdırır, bu ölkələrdə xalqımıza qarşı rəğbət hissini daha da artırır. Müdriklərdən birinin dediyi kimi: "Mədəniyyətlərin dostluğu xalqların dostluğudur".

# "Heydər Əliyev irsi elmimizin qarantıdır"

## "Gənc istedadlar" liseyində II Respublika şagird konfransı keçirilib

**Niyazi RƏHİMOV**

Bakı Dövlət Universitetində universitetin nəzdindəki "Gənc istedadlar" liseyinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Heydər Əliyev irsi elmimizin qarantıdır" mövzusunda II Respublika şagird konfransı keçirilib. Konfransda "Gənc istedadlar" liseyinin müəllim-şagird kollektivi ilə yanaşı, Bakı, Sumqayıt, Gəncə, Tovuz, Şəki və Qax məktəbləri, təhsil müəssisələrinin rəhbərləri və digər şəxslər iştirak edib.

BDU-nun elm və innovasiyalar üzrə prorektoru, AMEA-nın müxbir üzvü, professor Aydın Kazımzadə konfransı açaraq onun əhəmiyyəti barədə danışıb. Ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən, elm və təhsilin inkişafı istiqamətində gördüyü işlərdən danışan A.Kazımzadə bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Liseyin uğurlarından söz açan professor bildirib ki, bu günə qədər liseyin 10 buraxılışı olub və məzunlarının hər biri həm ölkəmizdə, həm də xaricdə yerləşən nüfuzlu universitetlərə daxil olub. Liseyi bitirən 382 məzundan 105 nəfəri 600-dən çox bal toplayıb. Prorektor onu da sözlərinə əlavə edib ki, məzunlardan 5 nəfəri Prezident təqaüdünə, 36 nəfəri qızıl medala, 6 nəfəri isə gümüş medala layiq görülüb. Liseyin şagirdləri istər respublikamızda, istərsə də ölkə hüdudlarından kənarda keçirilən beynəlxalq olimpiada, müsabiqə və yarışlarda təhsil ocağını layiqincə təmsil edirlər.

Tədbirdə çıxış edən Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini, professor Hüseyn Əsgərov "Xalq üçün yaşanan ömür", Təhsil İnstitutunun direktor müavini, dosent Ənvər Abbasov "Heydər Əliyev və Azərbaycan təhsili", BDU-nun professoru Nuru Məmmədov "Heydər Əliyev və Azərbaycan tarixi", "Gənc istedadlar" liseyinin 9-cu sinif şagirdi Güllü Qəhrəmanlı "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzularında məruzə ilə çıxış ediblər.

Konfransda digər çıxış edənlər- Bakı şəhəri 6 nömrəli məktəb-liseyin direktoru Gülşən Orucova, Sumqayıt şəhəri Humanitar və təbiət, riyaziyyat təmayüllü "İstedad" liseyinin direktoru Adilə Süleymanova, liseyi qızıl medalla bitirmiş, Bakı Mühəndislik Universitetinin tələbəsi Lalə Muradlı və valideyn Fəxri Xəlilov çıxış edərək liseyin uğurlarından söz açıb, konfransın işinə uğurlar arzulayıblar.

Konfrans öz işini "Gənc istedadlar" liseyində "Ana dili və ədəbiyyat", "Tarix və coğrafiya", "Fizika, riyaziyyat, informatika", "Kimya, biologiya və ekologiya", "Xarici dillər" bölmələrində davam etdirib. Konfransda ümumilikdə 177 məruzə dinlənilib.

Qeyd edək ki, hazırda "Gənc istedadlar" liseyində Azərbaycan və rus bölmələrinin 30 sinfində 631 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə məşğul olan 82 müəllimdən 3 nəfəri elmlər doktoru, 23 nəfəri fəlsəfə doktoru, 3 nəfəri isə respublikanın "Əməkdar müəllim"idir.

# "Feysbuk"la nağıl



**Britaniyalı müəllimlər gecəyarısı uşaqlara nağıl oxuyurlar**

Sosial şəbəkələrdən yalnız ünsiyyət üçün deyil, həm də maarifləndirici məqsədlər üçün istifadə etmək ideyası yenilik deyil. Ancaq Böyük Britaniyanın Esseks qraflığının məktəb müəllimləri bu məsələdə bir qədər də uzağa gediblər. "BBC"-nin məlumatına əsasən, onlar valideynlərin çoxunun vaxtlarının çatmadığını nəzərə alaraq öz yetirmələrinə gecəyarısı sosial şəbəkə vasitəsilə "birbaşa efir"dən nağıl danışmağa başlayıblar.

Britaniya müəllimləri əmindirlər ki, gecələr "Feysbuk" vasitəsilə nağılların oxunması nəinki yalnız kiçikyaşlı məktəbliləri oxumağa marağı stimullaşdırmağa, həm də ailələrdə, məktəbəqədər kollektivlərdə əlverişli psixoloji atmosferin yaradılmasına kömək edəcək.

# Almaniyada savadsızlar

Almaniyada alman dilində mətnləri anlamaqda çətinlik çəkən 6,2 milyon insan qeydə alınıb. 2018-ci ildə keçirilmiş tədqiqatın nəticələrinə əsasən müəyyən olunub ki, toplam olaraq alman dilində danışan yaşlı əhalinin 7,3%-nin oxuma-yazma bacarıqları zəif inkişaf edib.

"Die Zeit" qəzetinin məlumatına görə, onlar ayrı-ayrı cümlələri yaza və oxuya bilərlər, lakin bütöv mətni tam qavramağa qabil deyillər. Bundan əlavə, bəhs olunan almanlardan hər 1/5-nin orta təhsili yoxdur, 40 faizi isə yalnız ibtidai təhsillidir. Demək olar ki, çətinliklər aşkar edilmiş insanlardan 50 faizinin (2,9 milyon nəfər) miqrant kökləri var.

Ölkənin təhsil naziri Ani Karliçekin sözlərinə görə, dövlət və cəmiyyət belə insanlara dəstək göstərməlidir. O qeyd edib ki, böyüklər bu cür problemlərin öhdəsindən uşaqlara nisbətən böyük çətinliklə gəlirlər.

# Sosial şəbəkələrdə şagirdlərin profilləri təhlil olunacaq

Rusiyanın insan haqları üzrə müvəkkili Tatyana Moskalkova məktəblərdə sosial şəbəkələrdə şagirdlərin profillərinin təhlilçisi adlı yeni ştat vahidinin tətbiqi təklifi ilə çıxış edib. "Mənə belə gəlir ki, bu gün məktəblərin psixoloqdan daha çox sosial şəbəkələrlə iş üzrə mütəxəssisə malik olması daha əhəmiyyətlidir. Elə bir mütəxəssis ki, şagirdin, tələbənin depressiya keçirdiyini, tənha olduğunu, ona kömək göstərməyin vacibliyini görür. Bu gün biz hamımız öz səylərimiz, problemlərimiz, bədbəxtçiliklərimizlə sosial şəbəkələrdəyik", - deyə o bildirib. "TASS" agentliyinin məlumatına əsasən, ombudsmanın fikrincə, bu cür mütəxəssislər Rusiyada baş vermiş Kerç hadisələri kimi faciələrin qarşısını ala bilərdilər.

Xatırladaq ki, 2018-ci ilin oktyabrında Kerç Politexnik Kollecinin tələbəsi təhsil müəssisəsinə partlayıcı qurğu keçirərək onu aktivləşdirib, nəticədə 20-dən çox insan həlak olub, 50-dən çox yaralanıb. Məlumdur ki, cinayətkar kurs yoldaşları tərəfindən dəfələrlə alçalmalara məruz qalıb, amma nə bu fakt, nə də tələbənin tez-tez geyindiyi "Nifrət" yazısı olan futbolkası pedaqoji kollektivi və müəssisə administrasiyasını narahat etməyib.

## İslam Qəribli - 65



İslam Qəribli - ədəbiyyatşünas, cənubşünas tədqiqatçı, yazıçı, pedaqoq, "Azərbaycan romantizmi adlı böyük elmi nəzəri təsərrüfatın" (Elçin) banilərindən olan Məhəmməd Hadinin son araşdırıcısı.

Filologiya elmləri doktoru, professor İslam Qəriblinin fəaliyyətində pedaqoqluğunun çox çalarlı yaradıcılığının bir komponenti kimi dilə gətiririk ona görə yox ki, o, uzun illər orta və ali məktəblərdə dərs deyib, daha çox ona görə ki, müəllimliyini magistrlərin, doktorantların bir çoxunun sözün müstəqim mənasında rəhbəri - yol göstərəni, məsləhətçisi, bir çox dərsliklərin müəllifidir. Onun müxtəlif illərdə tərtib etdiyi "Azərbaycan dili" (2002, 2003, 2006, 2009) adlı dərs vəsaitləri də pedaqoji aləmdə məmnunluqla qarşılanıb. Alim həmkarımız klassik irsimizin və çağdaş ədəbiyyatşünaslığımızın yorulmadan, bütün günü, saatlarla başını kompüterdən qaldırmadan işləyən araşdırıcılarındandır. Bu yaradıcılıq elmi-nəzəri səviyyəsi, üslubu, sabitliyi, özünəməxsus dəst-xəttə malik olması ilə fərqlənir.

# Məhəmməd Hadi irsinin tədqiqatçısı

## Ədəbiyyat, mədəniyyət, mənəviyyat alimin kredosudur



**Baba BABAYEV,**
*filologiya elmləri doktoru,*
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun baş elmi işçisi*

Onun həyat yolu çox çətin, enişli-yoxuşlu olub. "Kənddən gələnlər" siyahısına düşən müəllim, kənddən dönmə şəhərli olanlar tərəfindən açıqcasına sıxma-boğmalara, təqiblərə, süründürməçiliyə məruz qalıb. Bədxahlarla mübarizə apara-apara böyük alim insanların xeyirxahlığı sayəsində (akademiklər Kamal Talıbzadə, Bəkir Nəbiyev, akademiyanın müxbir üzvü Əziz Mirəhmədov, professor X.Məmmədov və b.) məqsədinə nail olub, heç nəyə məhəl qoymadan müəllimliyini, elmi və bədii yaradıcılığını davam etdirib.

Yubilyarımız arxiv sənədləri üzərində ciddi işləyən, faktların pozulmasında bildiyini heç kimə verməyən, müqayisəli təhlillər aparıb məntiqə əsaslanaraq fikrini bildirən, polemikaya yol açan tədqiqatçılardandır. İş otağımızda Məhəmməd Hadi poeziyası üzərində və ya tərcümələrlə, yaxud da Ömər Xəyyam rübailərinin M.Hadi, H.Cavid, M.Müşfiq, M.M.Seyidzadə tərəfindən edilmiş tərcümələri müqayisə edib yekun qərara gəlməsi gözlərimiz önündə baş verən işlərdir. Belə məqamlarda gözlərinin sevinclə dolması, rahat nəfəs alaraq qələmi stolun üstünə qoyub, eynəyini çıxarıb dərindən nəfəs alanda məqsədinə nə dərəcədə nail olduğunu dəfələrlə müşahidə etmişəm. Öz metodologiyasında daim elmi obyektivliyi əsas götürən İ.Qəribli, eyni zamanda, Məhəmməd Hadini çağdaş ədəbiyyatşünaslıq gerçəkliyində, dövrünün bütün ziddiyyətləri, yaşadığı tarixi qanunauyğunluqları ilə birlikdə necə illərdir ki, araşdırır.

İslam Qəribli 5 may 1954-cü ildə Lerik rayonunun Mulalan kəndində anadan olub, orta təhsilini qonşu Şingədulan kənd orta məktəbində tamamlayıb. 1975-ci ildə ADPU-nun filologiyi fakültəsini fərqlənmə diplomu ilə bitirib, 1975-1990-cı illərdə Biləsuvar və Lerik rayonlarında müəllim, tədris işləri üzrə direktor müavini və məktəb direktoru vəzifələrində çalışıb. 1990-cı ilin dekabr ayından AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşıdır. "M.Hadinin İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah" poeması" mövzusunda namizədlik (1990), "M.Hadinin ədəbi-bədii irsi Azərbaycan dövrü mətbuatında (1905-1920)" mövzusunda (2013) doktorluq dissertasiyalarını müdafiə edib.

İslam müəllim bu gün də M.Hadi yaradıcılığı ilə ciddi məşğul olur. Bugünkü demokratik şərait ədəbiyyatşünaslar qarşısında yeni, ciddi vəzifələr qoymuşdu; artıq ədəbi irsə marksist-leninçi münasibət yox, müstəqilliyin tələblərini elmi şəkildə aydınlaşdırmaq, bu irs - konsepsiyadan istifadə yollarını göstərmək vəzifələrini qoyur. Bu illərdə, bütövlükdə ədəbiyyatımızın inkişafı üçün geniş şərait yaranıb. Ustadı Əziz Mirəhmədovun M.Hadi haqqında yazdığı fundamental monoqrafiyaya (1985) həssaslıqla, elmi səriştə ilə yanaşır, sadəcə zaman - məkan nöqteyi-nəzərindən mövzunun daha dərindən, plüralizm işığında, müstəqilliyin bəxş etdiyi fikir dünyasında ehtiyac duyulduğundan İslam müəllim alim həmkarım Mətanət Vahid demişkən "...müxtəlif zamanlarda bu mövzuya təkrar-təkrar qayıtmış, xüsusən, "Məhəmməd Hadi və mətbuat (1905-1920)" (2011) və "Məhəmməd Hadinin publisistikası və poetik tərcümələri" araşdırmalarını sənətkarın yaradıcılığının sırf bu sahələri üzərində aparmışdır". Sevimli müəllimimiz, görkəmli tənqidçi - ədəbiyyatşünas, akademik Bəkir Nəbiyev (qəbri nurla dolsun) İslam müəllimin "Məhəmməd Hadi və mətbuat (1905-1920)" monoqrafiyasını "Hadişünaslığa yeni töhfə" adlandırmış və bildirmişdir ki, "bu əsərdə hadişünaslıqla yeni bir mərhələ başlandı". Bütün dövrlərdə M.Hadi haqqında çox xəsisliklə yazılmışdır. Səbəbi aydındır... Lakin sonrakı illər Hadiyə ədəbi prosesdə münasibətdə İslam Qəribli sanki işığa - bir övliya övladına doğru min əzaba qatlaşaraq irəliləməsi, özünəməxsus hadişünaslıq xəttini yaratmağa nail olması, onun romantik şairə vurğunluğundan xəbər verir. Hər məqalə, kitabında araşdırmalarının yeni məzmun kəsb etməsi, ən əsası da sonuncu "Məhəmməd Hadinin publisistikası və poetik tərcümələri" əsəri Hadi yaradıcılığının qaranlıq səhifələrinə işıq salır. Həyatda, ədəbiyyatda də bəxti gətirməyən sənətkarın publisistik yaradıcılığında şəxsiyyət və mətbuat azadlığı, qadın azadlığı, din və dil, elm və təhsil, ədəbi nəzəri düşüncələri və s. məsələlərlə ələqədar İ.Qəriblinin gəldiyi nəticə - qənaətləri ümumilikdə Azərbaycan romantizmi, publisistikası və tərcüməçilik sahəsinin incəlikləri ilə əlaqədar mülahizələrə də mətnlərdən çıxış edərək hasil olan tanışlıq oxucu qarşısında geniş üfüqlər açır.

İslam Qəribli ədəbiyyatşünas alim kimi yaradıcılığının bütün dövründə var qüvvəsini ədəbiyyatın qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsinə həsr etmişdir. Ötən illərdə onun yaradıcılığında diqqəti cəlb edən fraqmentlər bunlardır: "XIX əsrin 90-cı illərindəki realist Azərbaycan nəsri barədə bəzi mülahizələr", "Mirzə Məhəmmədtağı Qumru", "H.Cavid: İttihad - ən böyük ideal", "Abbasqulu ağa Bakıxanov", "Xurşudbanu Natəvan və onun poetik irsi", "H.Cavid və M.Hadi lirikasında Birinci Dünya müharibəsinə münasibət", "Dirərgin şairə ədəbi abidə", "Müdriklik səlahiyyəti", "Məsləkim tərcümeyi halımdır", "Tədqiqlər və tərcümələr", "Cabbarşünaslıq yeni töhfə", "H.Mirələmovun "Xəcalət" povesti barədə bəzi mülahizələrim", "Novruz Nəcəfoğlunun poeziyası barədə düşündüklərim" və başqa məqalələrində ədəbiyyatşünas klassiklər və müasirlərimizin sənətkarlıq nailiyyətlərini ümumiləşdirir. Ədəbiyyatımızı, onun ənənələrini dərindən mənimsəmək məqsədilə oxucuların ideya-bədii cəhətdən kamilləşməsi üçün ən mühüm, zəruri şərtləri göstərir. Professor Elman Quliyevin təbirincə desək "...sadalanan məqalələrdə təxminən 120 illik ədəbi epoxanın yaradıcılıq problemləri tədqiqata cəlb edilmişdir".

İslam müəllim araşdırmalarında öncə problemlərin kökünə bələd olur, sonra mətndən çıxış edir. Bu prinsip tədqiqatçı üçün düzgün yanaşmadır. Portret xarakterli yazılarında daha çox vurğunu olduqlarının eskizlərini sanki rəssam fırçası ilə, qədirşünaslıqla ətə-qana gətirir. O, akademik Bəkir Nəbiyev, müxbir üzv Azadə Rüstəmova, professor Xeyrulla Məmmədov kimi elm fanatlarının həyat və yaradıcılığının ən zəruri detallarını fərəhlə, sevinclə belə yaratmışdır.

İslam müəllim uzun illər Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində çalışıb. 2014-cü ildə nəşr olunan "Ədəbiyyat sərhəd tanımır" kitabına Cənubi Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə bağlı 22 məqalə, 1 oçerk daxil edilmişdir. Kitabla tanışlıq prosesində elmi-publisistik məqalələr və oçerkdə gözlərimiz qarşısında XIX-XX yüz illiklərin Cənubi Azərbaycan ədəbi-mədəni hadisələrinin mənzərəsi canlanır. Kitabda tədqiqat obyekti olan şəxsiyyətlər və onların ədəbi təsərrüfatları haqqında səhih, obyektiv ədəbiyyatşünas yanaşmasının şahidi olmaqla, alim həm də təkrar olunan yanlış fikirləri, tarixi faktları dəqiqləşdirməyə cəhd etmişdir. Professor Teymur Əhmədov yazır: "İslam Qəriblinin həyatda "tale ulduzu tez parlayıb, tez sönən" nakam Firudin İbrahimi, Məmmədbağır Niknam, Məhəmməd Biriya, Əlirza Nabdil Oktay kimi öz əməlləri və əsərləri ilə əbədiyyətə qovuşan fədailərin xatirəsinə həsr etdiyi ədəbi oçerklər kitabın siqlətini daha da artırmışdır". "Ədəbiyyat sərhəd tanımır" kitabında yer alan "Heyran xanım", "S.Ə.Nəbati", "M.Xalxali və onun "Sələbiyyə" məsnəvisi", "Məşrutə dövrü ədəbiyyatı", "Səid Səlmasi", M.Möcüz, Ş.M.Xiyabani, Biriya və s. məqalələr Cənubi Azərbaycan ədəbiyyatı haqqında geniş təsəvvür yaratmaqla yanaşı tarixi faktların müqayisəli, mənbələrə istinadən dəqiqləşdirdiyini də görmək mümkündür.

İslam Qəribli 2013-cü ildə nəşr etdirdiyi "Mən bir kitab, hər vərəqim min kitabdır" əsərinə 1985-2012-ci illərdə M.Hadidən bəhs olunan 36 məqaləsini daxil etmişdir. Bu məqalələr "XX əsrin əvvəllərində öz yaradıcılığı ilə Azərbaycan poeziyasının romantik qolunun başında duran Məhəmməd Hadinin" (B.Nəbiyev) çoxşaxəli yaradıcılıq irsinə yeni ədəbiyyatşünaslıq prizmasına novator baxış kimi səciyyələndirilməlidir.

İslam Qəribli keçmişi yaşadan alimlərdəndir. Ədəbiyyat, mədəniyyət, mənəviyyat onun kredosudur. İşgüzarlığından, on illiklərlə arxiv - kitabxanalarda çalışması nəticəsində gəldiyi elmi qənaətlərdən ümumiləşdirilmiş şəkildə bir məqalə həcmində danışdıq. O, insan kimi təvazökar, səmimi, qələm dostlarının halına yanan tipik azərbaycanlı xarakterinə malik bir şəxsdir.

Tədqiqatçı - ədib İ.Qəribli 15 kitabın müəllifidir. Tərtib etdiyi və ön söz yazdığı 12 kitabı, redaktə etdiyi, əsas redaktoru olduğu kitabları da siyahıya daxil etsək ömrü boş yerə xərcləməyən ziyalı, qeyrətli bir Azərbaycan vətəndaşının özünə öz əli ilə, ədəbi, qranitdən bir heykəl ucaltdığının şahidi oluruq.

XX əsr Azərbaycan ədəbiyyatının böyük romantiklərindən olan Məhəmməd Hadi yaradıcılığı professor İslam Qəriblini çox məşğul etmiş, pərvanə şəmin ətrafından kənarlaşa bilmədiyi kimi yubilyar dostumuz da Hadi işığının çevrəsində dolanmaqdadır. Hal-hazırda alim Hadinin seçilmiş əsərlərini nəşrə hazırlayır.

1985-2019-cu illər arasında İ.Qəribli M.Hadi haqqında 5 kitab və 50-dən çox məqalə yazıb çap etdirmişdir.

Ad günün mübarək, zəhmətkeş dost!

Bu nə yaşdı ki, hələ yazılası çox hekayələr qarşıda səni gözləyir.

Yetmişində mövzuya qayıtmaq arzusu ilə!

# SDU-da "Açıq qapı günü"

Mayın 18-də Sumqayıt Dövlət Universiteti (SDU) və Sumqayıt Şəhər Təhsil Şöbəsinin birgə təşəbbüsü ilə şəhərdə yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri və onların valideynlərinin universitetlə tanışlığı məqsədilə ənənəvi olaraq "Açıq qapı günü" təşkil edilib.

Humanitar məsələlər üzrə prorektor, dosent Ramiz Hüseynov görüşdə bildirib ki, şagirdlər arasında tanıtım münasibəti ilə təşkil olunmuş ekskursiya artıq ənənə halını alıb. Belə ekskursiyalar vasitəsilə şagirdlər ixtisas seçimini müəyyənləşdirir, gələcəkdə hansı təhsil müəssisəsinin tələbəsi adını qazanmaq qənaətinə gəlir, seçdikləri ixtisasların əmək bazarında yerini təyin edir. Prorektor şagirdlərə universitet, onun perspektivləri və üstünlükləri haqqında ətraflı məlumat verib, tələbələr qarşısında qoyulan tələblərlə yanaşı, onlara yaradılan geniş imkanlardan söz açıb. Bildirib ki, Sumqayıt Dövlət Universiteti bu gün qazandığı nailiyyətləri qabaqcıl ali məktəblərlə bir sırada nümayiş etdirə bilən və gələcək prioritet məsələlərin həllinə imza atmağı bacaran bir təhsil ocağıdır. Bu gün universitetin 3 tədris binası, müasir təhsil standartlarına uyğun auditoriya və laboratoriyaları, zəngin elmi kitabxanası, müasir texnika ilə təchiz olunmuş informasiya-hesablama mərkəzi, nəşriyyat-poliqrafiya şöbəsi, tələbələr üçün mütəmadi olaraq ödənişsiz ingilis, alman və rus dilləri kursları təşkil edən Linqvistik mərkəzi, müasir avadanlıqlarla təchiz olunmuş qılıncoynatma idman zalı da daxil olan geniş idman kompleksi, 3 yeməkxanası var. Tələbə klubu nəzdində rəqs, qiraət kimi özfəaliyyət dərnəkləri, Debat-natiqlik klubu, Ritorika klubu, şahmat, futbol, badminton, stolüstü tennis, atıcılıq, qılıncoynatma və s. idman bölmələri fəaliyyət göstərir.

Universitetin elmi potensialının ildən-ilə artdığını qeyd edən prorektor SDU-da Dissertasiya Şurasının yaradıldığını da diqqətə çatdırıb. Bildirib ki, SDU Rusiya, Türkiyə, Macarıstan, Avstriya, Finlandiya, İspaniya, İsveç, Litva, Almaniya, Polşa, Qazaxıstan, Gürcüstan və digər ölkələrin aparıcı universitetləri ilə təhsil sahəsində əməkdaşlıq edir. Tələbələr istehsalat təcrübələrini respublikanın aparıcı müəssisələri ilə yanaşı, Türkiyənin İzmir şəhərində yerləşən Petkim Petrokimya Holdinq A.Ş-də və Rusiyanın nüfuzlu universitetlərində keçirlər.

SDU haqqında ətraflı məlumat alan şagirdlər ilk olaraq ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyevin adını daşıyan Mərkəzlə, fakültələrlə, yeni cihaz və avadanlıqlar, "ağıllı lövhə"lərlə təmin edilmiş auditoriyalarla, laboratoriyalarla, müasir və zəngin ədəbiyyatla təchiz olunmuş kitabxanada yaradılan şəraitlə yaxından tanış olub, universitetin tanıtım çarxını izləyiblər.

Şagirdlər öz növbələrində universitetə səfərlərindən məmnunluqlarını ifadə ediblər.

# "İdeyadan başlanğıca"

## NDU-da layihə çərçivəsində görüş



Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin hamiliyinə verilmiş ixtisaslarda təhsil alan tələbələrə "İdeyadan başlanğıca" layihəsi çərçivəsində görüş keçirilib. Universitetin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin məlumatına görə, tədbiri giriş sözü ilə açan NDU-nun rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov müvafiq sərəncamın icrası istiqamətində universitetdə keçirilən tədbirlərin artıq ənənə halı aldığını vurğulayıb. Rektor bu cür tədbirlərin tələbələrin perspektivlərinin formalaşmasındakı rolundan danışıb.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev müvafiq sərəncamın icrası istiqamətində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsilə bağlı işlərin davam etdirildiyini bildirib. Vurğulanıb ki, ötən müddət ərzində universitetin hamiliyə verilmiş ixtisaslarında təhsil alan tələbələrlə görüş keçirilib, onlara muxtar respublikanın sosial-iqtisadi inkişafını əks etdirən broşür, kitab, kataloq kimi əyani vəsaitlər verilib. Qeyd edilib ki, nazirliyin fəaliyyət istiqamətlərini əks etdirən 50 mövzu üzrə mühazirələrin oxunması, tələbələrin yay istehsalat təcrübələrinin təşkili üçün müvafiq müəssisələrlə tanış olmaları Tədbirlər Planının mühüm tərkib hissəsidir.

Nazir diqqətə çatdırıb ki, bu tədbirlərin davamı olaraq 2019-cu ilin aprel ayında Naxçıvan Biznes Mərkəzində nazirliyin əməkdaşlarının, Naxçıvan Dövlət Universitetinin müəllim, bakalavr, magistr və doktorantlarının iştirakı ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu tərəfindən iqtisadi siyasətə təsir təhlillərinin qiymətləndirilməsi, biznes planlarının işlənməsi mövzuları üzrə 3 günlük seminarın keçirilməsi təmin edilib. Seminarın sonunda 120 nəfər iştirakçıya sertifikat təqdim olunub.

Nazirliyin İnvestisiyaların təşviqi və ixraca dəstək şöbəsinin mütəxəssisi Rəmzi Əlizadə startaplar, təqdim olunan layihələrin iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsi, startapın stimullaşdırılması, maliyyələşdirilməsi və beynəlxalq təcrübə mövzusunda çıxış edib.

Sonda tələbə və müəllimlərin sualları cavablandırılıb.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## Conkers

By Russell Evans

You are going to read about a children's game called 'conkers'. Have you ever heard of this?



### Activity 1

Before you read, decide which word (1–4) goes with which meaning (a–d).

| | | | |
|---|---|---|---|
| **1.** nut | **2.** soak | **3.** string | **4.** swing |

**a.** a hard brown dry fruit from a tree
**b.** make something move backwards and forwards through the air
**c.** put something in water for a long time
**d.** something you use to tie things together

### Activity 2

Use words 1–4 to complete the sentences.

1. If you ............ it in warm water, it will feel better tomorrow.
2. When I was little, I ate a ............ and it made me sick.
3. '............ it this way, so I can catch it!'
4. The postman came. He gave me a big box with ............ around it.

What connects British children, a piece of string and a nut you can't eat? The answer is a game called conkers. For the last 150 years, children in the UK have collected shiny brown nuts from under horse chestnut trees in September and October, when it's autumn in Britain. They use these nuts – called conkers – to play a game, which is also called conkers.

To play the game, you need two players, two conkers and two pieces of string about 20cm long. Each player makes a hole in the middle of their conker and pulls their string through the hole. They tie the string to stop the conker falling off. One player holds her conker up by the string, and the other player then swings his conker at the other one as hard as he can. Then it's the other player's turn to hold up his conker. The winner is the player whose conker breaks the other player's conker.

A new conker that hasn't won any games is a 'none-er'. A conker that has won one game, is a 'one-er', and so on. If the two strings get tied together, the first player to shout 'strings' can have another turn. If one player's conker falls on the ground, she tries to shout 'no stamps' before her friend can shout 'stamps'. If she is successful, she can pick up her conker and continue playing. If she isn't, her friend can 'stamp' on her conker (break it with his foot) and he wins the game!

Some people try to make their conkers harder by baking them, soaking them or keeping them for a long time. Some schools have stopped children playing conkers in the playground because they don't want children to hurt themselves. Now there are even games of conkers you can play online, but they are not as much fun as the real thing!

### Activity 3

Are these sentences true or false?

1. You can eat conkers.
2. There are only two months in a year when you can find conkers.
3. You can play conkers alone.
4. The first person to break someone else's conker wins.
5. A new conker is a 'one-er'.
6. You could lose the game if your conker falls on the ground and you don't shout 'no stamps'.
7. Some children try to make their conkers especially difficult to break.
8. Some adults are worried that children can get hurt playing conkers.
9. Playing conkers online is just as good as playing conkers in the playground.

### Activity 4

*'The winner is the player **whose** conker breaks the other player's conker.'*

The word **whose** in the sentence from the story is a possessive pronoun. It tells you which person owns something. You could write it like this:

*The winner is the player **who owns the** conker that breaks the other player's conker.*

**Whose** is sometimes confused with **who's** (the short forms of **who is** or **who has**) because it sounds the same.

Use **whose** or **who's** in the following sentences.

1. Do you know ............ jacket is on the sofa?
2. I don't know ............ left the door open, but it wasn't me.
3. I have no idea ............ car it is.
4. I'm thinking of a person ............ taller than me.
5. I'm not sure ............ coming to the party.
6. I'm thinking of the man ............ hat is on the table.
7. We saw a spider ............ legs were red and hairy.
8. ............ the most famous singer in the world?
9. ............ is this mobile phone?

### Activity 5

Are there any very old children's games in your country? Are any of them dangerous to play?

### Answers

**Activity 1**
1. a; 2. c; 3. d; 4. b

**Activity 2**
1. soak; 2. nut; 3. swing; 4. string

**Activity 3**
1. False (F); 2. True (T); 3. F; 4. T; 5. F; 6. T; 7. T; 8. T; 9. F

**Activity 4**
1. whose; 2. who's; 3. whose; 4. who's; 5 who's; 6 whose; 7 whose; 8 Who's; 9 Whose

**To find more English language activities visit www.britishcouncil.org/learnenglish**

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017

## "Samsung" şirkəti yeni televizorunu təqdim edib

Samirə KƏRİMOVA




"Samsung" şirkəti şaquli ekranla təchiz edilmiş yeni "Sero" adlı televizorunu təqdim edib. Bu barədə Cənubi Koreya şirkətinin mətbuat xidmətindən məlumat verilib.

**www iz.ru** saytının məlumatına görə, "Sero" televizorunun köməyi ilə sosial şəbəkələrdəki videoları izləmək rahatdır. Bunun üçün onu NFC modul vasitəsilə smartfona qoşmaq lazımdır. Televizoru, həmçinin üfüqi çevirmək də mümkündür. Bundan başqa, "Sero" televizoru istifadə edilmədikdə rəqəmli fotoçərçivə və ya saata çevrilə bilər.

Yeni televizorun mayın sonunda satışa çıxarılacağı gözlənilir.

## Jurnalistləri süni intellekt əvəz edib




Sinqapur redaksiyası "Esquire" jurnalının süni intellektin köməyi ilə hazırlanan nömrəsini dərc edib. Alqoritmlər redaktor yazısı və beş jurnalist mətnini hazırlayıblar.

"AI Squire" təxəllüsünü alan "müəllif" hər mətni hazırlamaq üçün bir neçə dəqiqə sərf edib.

**www.ferra.ru** saytının məlumatına əsasən, "Esquire" üçün botu "AI QLX" şirkəti hazırlayıb. Süni intellekt informasiyanı yazmaqdan əlavə, jurnalist mətnləri üçün mövzuları fikirləşmək imkanına da malikdir.

Onu da qeyd edək ki, alqoritm süni intellekt, dəb və texnologiyaların tarixinə həsr edilən mövzular barədə materiallar yazıb.

Jurnalın baş redaktoru bildirib ki, bu sınağın əsas məqsədi "jurnalistləri robotlarla əvəz etmək olarmı?" sualını bir növ cavablandırmaq olub.

## "Ağıllı" termometr hazırlanıb




Cənubi Koreyanın Busan şəhərində fəaliyyət göstərən "IsProbe" startapı dəriyə toxunmadan bədən temperaturunu ölçməyə imkan verən "ağıllı" termometr hazırlayıb.

**www.news.zborg.ru** saytının məlumatına əsasən, ağıllı "BoomCare" termometri dəriyə toxunmadan bədən temperaturunu infraqırmızı ötürücü vasitəsilə dəqiqliklə ölçür və smartfonla işləyir.

## Marsda yaşayış üçün 3D-printerdə ev çap olunub



NASA-nın müsabiqəsi çərçivəsində ABŞ-ın "AI SpaceFactory" dizayn və arxitektur şirkəti 3D-printer vasitəsilə Ayda və Marsda yaşayış üçün ev çap edib.

**www.belta.by** saytının məlumatında qeyd edilib ki, müsabiqə zamanı iştirakçılardan Marsda tapılan materiallar vasitəsilə bina maketi qurmaq tələb olunub. "AI SpaceFactory" öz modelini bioparçalanan və yenidən emal edilən biopolimer bazalt kompozitindən çap edib. Ev möhkəmlik və hermetiklik baxımından sınaqlardan uğurla keçib. Bu layihəyə görə agentlik NASA-dan 500 min ABŞ dolları məbləğində mükafat əldə edib.

Qeyd edək ki, 2015-ci ildə NASA uzunmüddətli kosmik missiyalar üçün ekoloji evin hazırlanması məqsədilə "3D-Printed Habitat Challenge" layihəsini təqdim etmişdi.

## "Təhsil Liqası"na yekun vurulub

"Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə 2018-2019-cu il mövsümü üzrə 13 yaşadək (U-13) və 15 yaşadək (U-15) basketbolçulardan ibarət komandalar arasında təşkil olunan yarışların final oyunları keçirilib.

Azərbaycan Texniki Universitetinin İdman Kompleksində keçirilən yarışlarda U-13 liqası üzrə I yeri "Sıçrayış" Basketbol Klubunun, II yeri "Təhsil" Respublika İdman Mərkəzinin 2 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbinin, III yeri "Təhsil" Respublika İdman Mərkəzinin 10 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin komandaları tutub. U-15 liqası üzrə isə "Təhsil" Respublika İdman Mərkəzinin 2 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin, "Təhsil" Respublika İdman Mərkəzinin 9 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin, "Təhsil" Respublika İdman Mərkəzinin 10 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin komandaları müvafiq olaraq I, II, III yerləri bölüşüblər.

Qaliblər diplom, kubok və medallarla təltif olunub. Müxtəlif nominasiyalar üzrə seçilən basketbolçulara mükafatlar təqdim edilib.

Qeyd edək ki, 2018-ci ilin sentyabr ayından keçirilən yarışlara idman məktəblərindən və basketbol klublarından hər liqa üzrə 12 komanda qatılıb.

Liqaların keçirilməsində məqsəd yaş qrupları üzrə perspektivli basketbolçuların aşkar edilməsi, onların oyun təcrübəsinin artırılması və yığma komandaların müəyyənləşdirilməsindən ibarət olub.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 7076, **Sifariş** 1766

**Məsul növbətçi:** Ş.Cəfərov


# Dünya çempionatının qızıl medalçısı

Rəşad ZİYADOV

İdman hamı kimi, balacaların da inkişafında böyük rol oynayır. İdmanla məşğul olmaq uşağı yalnız güclü, cəld və çevik etmir. O, fiziki inkişafla yanaşı psixoloji də gücləndirir. Bu zaman uşaq hərtərəfli inkişaf edir. O, mübarizə aparıb qalib gəlməyi öyrənir. Deyirlər ki, həmin uşaqlarda yaddaş və qavrama qabiliyyəti güclü olur.

Həsən Mahmud oğlu Davudzadə də 4 ildir ki, idmanın karate növü ilə məşğul olur. İdmanın sirlərini Əməkdar bədən tərbiyəsi və idman xadimi, IX dan qara kəmər sahibi Tarverdi Allahverdiyevdən və Beynəlxalq dərəcəli hakim, idman ustası, IV dan qara kəmər sahibi Vüqar Həziyevdən öyrənir. Həsənin sonuncu qalibiyyəti 2-6 may tarixlərində Ukraynanın Xarkov şəhərində müxtəlif yaş qrupları arasında karate üzrə keçirilən dünya çempionatında olub. O, həmyaşıdları arasında yüksək bacarıq göstərərək I yerə çıxıb və qızıl medala layiq görülüb. Yeri gəlmişkən qeyd edək ki, həmin yarışda ölkəmizi Beynəlxalq Kempo Karate və Kobudo Federasiyasının vitse-prezidenti Tarverdi Allahverdiyevin rəhbərliyi ilə 37 nəfərdən ibarət idmançımız təmsil edib. 17 ölkənin iştirak etdiyi yarışda medalların sayına görə ilk üçlükdə Azərbaycan I, Ukrayna II, Qazaxıstan isə III yeri tutub. İdmançılarımız ümumilikdə 36 medal qazanıb. Onlardan 19-u qızıl, 9-u gümüş, 6-sı bürünc, 1 nəfər isə dünya kəmərinin sahibi olub.

2008-ci ildə Bakıda anadan olan Həsən həm də dərs əlaçısıdır. O, Bakıdakı 73 nömrəli tam orta məktəbin V sinif şagirdidir. Həsən bir çox respublika və beynəlxalq yarışların iştirakçısıdır. O, həmçinin rəqslə də məşğul olur. Bir çox televiziya və konsert proqramlarında öz rəqsləri ilə tamaşaçıların zövqünü oxşayıb. Arzusu Azərbaycan bayrağını beynəlxalq yarışlarda zirvələrə qaldırmaq, dünya arenalarında himnimizi səsləndirmək, müəllimlərinin inam və etimadını doğrultmaq, Vətəninə, elinə layiq övlad olmaqdır. Həsənə bu yolda uğurlar və bol-bol nailiyyətlər arzu edirik.



# Etibarsız sayılır

**Naxçıvan şəhər** 15 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Rzayeva Nurlana Məmməd qızına verilmiş A-387847 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialı** tərəfindən 2009-cu ildə Hacıyeva Aytən Mahir qızına verilmiş B-142855 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Texnikumu** tərəfindən 1993-cü ildə Atakişiyeva Məleykə Saleh qızına verilmiş AB-II-000701 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** H.Hüseynov adına 4 nömrəli Humanitar fənlər təmayüllü məktəb-liseyi 2008-ci ildə bitirmiş Həsənova Günel Rauf qızına verilmiş BN-547223 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göranboy rayon** Dəyirmanlar (Xanlar) kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Nəbiyeva (Kərimova) Dünya Eldar qızına verilmiş A-000465 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2003-cü ildə Tağıyeva Gülnarə Fəxrəddin qızına verilmiş AB-II-097310 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat-Memarlıq İnstitutu** tərəfindən 1984-cü ildə Kərimov Əzizağa Əliniyaz oğluna verilmiş ЛB-020099 nömrəli diplom itdiyi üçün etubarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2018-ci ildə Qurbanova Naidə Vyaçeslav qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir 1 nömrəli Peşə Məktəbi** tərəfindən 2008-ci ildə Abdullayeva Səbinə İmran qızına verilmiş BB-039614 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən 2012-ci ildə Məmmədov Azad Müseyib oğluna verilmiş İB-071777 nömrəli sertifikat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən ixtisaslaşmanı 2014-cü ildə bitirmiş Məmmədova Kəmalə Mais qızına verilmiş MNB-029700 nömrəli magistr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2004-cü ildə Qurbanov Şıxsəid Qurban oğluna verilmiş AN-001026 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** A.Pənah adına 1 nömrəli məktəb-liseyi 2008-ci ildə bitirmiş Babayeva (Məmmədova) Türkan Rafət qızına verilmiş B-522952 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 67 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Mehdiyeva Sevinc Ağahüseyn qızına verilmiş A-567973 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2003-cü ildə Musayeva Mətanət Şərif qızına verilmiş A-019484 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 3 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Bağırov Mirxalid Bağır oğluna verilmiş A-545115 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 106 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Talıbova Şəbnəm Mürvət qızına verilmiş A-669145 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Çaylı kənd tam orta məktəbini 1986-cı ildə bitirmiş Quliyeva Mehriban Bağır qızına verilmiş AK-236819 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** P.Hüseynov adına Futbol Təmayüllü İnternat Tipli Gimnaziyanın IX sinfini 2005-ci ildə bitirmiş Zeynalova Əfsanə İsmayıl qızına verilmiş A-146708 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** Z.Cəfərov adına 3 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Nöhbalayev Xəyal Ədalət oğluna verilmiş B-311138 nömrəli attestat itdyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 64 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Fətəliyev Ağapaşa Səxavət oğluna verilmiş C-157113 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Qaraoğlan kənd tam orta məktəbini 2000-ci ildə bitirmiş Ələsgərova Təranə Qaraoğlan qızına verilmiş 397384 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 23 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Fərəcov Orxan Aydın oğluna verilmiş A-698923 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Qarakazımlı kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Nağıyev Samir Yusif oğluna verilmiş 153 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Türkədi kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Abasov Valeh Eyvaz oğluna verilmiş B-070832 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Comuşçu kənd tam orta məktəbinin IX sinfini 1997-ci ildə bitirmiş Mecdinova (Allahyarova) Raminə Tehran qızına verilmiş B-103761 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə Məmmədova Aytəkin İsrayıl qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Sabir adına Pedaqoji Texnikumu** (indiki ADPU-nin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec) tərəfindən 1993-cü ildə Hacıyeva Ağgül Sədi qızına verilmiş PT-I-120795 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2017-ci ildə Məmmədov Ümüd Firudin oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Bankə qəsəbə 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Xandəmirov Ağaqulu Həsənqulu oğluna verilmiş A-740336 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2004-cü ildə Məmmədov Rüstəm Xudu oğluna verilmiş A-148149 nömrəli bakalavr diplomu və əlavəsi, 2006-cı ildə verilmiş MNB-004475 nömrəli magistr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1998-ci ildə Qaranizadə Asif Nurəddin oğluna verilmiş AB-I-021968 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 9 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Rzayev Ruslan Zahid oğluna verilmiş A-122165 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye-Pedaqoji Texnikumu** tərəfindən 2006-cı ildə Osmanova Kəmalə Azik qızına verilmiş BB-II-043974 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2018-ci ildə Qasımov Namiq Natiq oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Dadaşov Aydın Abidin oğluna verilmiş B-778564 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Düzqırıxlı kənd 1 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Musayeva Gülbəniz Cümşüd qızına verilmiş A-206800 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** N.Sadıqov adına Alakol kənd tam orta məktəbini 1988-ci ildə bitirmiş Abbasov Vüqar Zülfüqar oğluna verilmiş A-476733 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 227 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Babaxanlı Elvin Samir oğluna verilmiş AN-057362 nömrəli şəhadətnamə və 2013-cü ildə verilmiş A-203958 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Məişət Xidməti Kolleci** tərəfindən 2001-ci ildə İsayeva Səadət Həsənqulu qızına verilmiş AB-II-062544 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Əhmədli Gülzarə Gündüz qızına verilmiş A-103765 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Quba Dövlət Sosial-İqtisadi Kolleci** tərəfindən 2018-ci ildə Qonağov Farid Qonaq oğluna verilmiş AA-106467 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Babayev Telman Salman oğluna verilmiş A-135634 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Texnikumu** tərəfindən 2005-ci ildə Xankişiyeva Günel Hilal qızına verilmiş BB-II-022601 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Texnikumu** tərəfindən 2005-ci ildə Əsgəri Afiq Asif oğluna verilmiş BB-II-022599 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1984-cü ildə Vəliyeva Zərniyar Həsən qızına verilmiş MB-011475 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Kommersiya Texnikumu** tərəfindən 1998-ci ildə Həsənov Ramil Həsənağa oğluna verilmiş AB-II-034656 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1997-ci ildə Qasımov İlqar Sabir oğluna verilmiş AB-I-061587 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

# Bahalı təhsil




⇦ Əvvəli səh.1

## Keyfiyyət, yoxsa sosial bərabərsizlik?

Rüstəm QARAXANLI

### Sosial lift

ABŞ-ın ali təhsil sistemi ona texniki tərəqqiyə nəzarət etməklə rəqibləri üzərində iqtisadi və hərbi üstünlüyünü saxlamağa imkan verir. Son illərdə ölkədə “super varlılar” təbəqəsinin peyda olması bu əlahiddəliliyi daha da möhkəmləndirir. ABŞ-da təhsil tək pullu və bahalı deyil, həm də bir çox hallarda sinfi xarakter daşıyır. İddia olunur ki, ölkənin ən güclü özəl universitetləri sıralarına istisnasız olaraq ən layiqliləri qəbul edirlər. Heç bir maliyyə amili və ailə vəziyyətinə baxmayaraq. Bununla belə, həmin o “ən yaxşılar”ın arasında nədənsə ali məktəblərin fondlarına iri məbləğdə ianələr köçürənlərin övladları və nəvələri, habelə vaxtilə məzun olmuşların uşaqları çoxluq təşkil edir. Qəbul komissiyasını bu ailələrdən olan gənclərin həmin ali məktəbdə oxumağa layiq olduqlarına “inandırmaq” çətin problem deyil. Düzdür, komissiyalar hər il harmonik, tarazlı və rəngarəng tələbə kollektivinin formalaşdırılmasına da çalışırlar. Bu səbəbdən hər bir universitetdə, hətta ən eksklüziv xarakterlisində belə, kasıb ailələrdən olan istedadlı tələbələrə, etnik və irqi azlıqların nümayəndələrinə, birinci nəsil emiqrantların övladlarına da yer “tapılır”.

Özəl universitet və kolleclər ABŞ təhsil sisteminin yalnız bir hissəsidir. Ölkədə 2500-dən çox universitet var ki, məzunlarına bakalavr dərəcəsi verir. Onlardan təqribən 600-dən çoxu ştatların büdcələrindən qidalanan dövlət ali məktəbləridir. Bu universitetlər ştatların oxumaq istəyən sakinlərinə böyük endirimlər edirlər. Belə ali məktəblərdə oxumaq bəzən nüfuzlu təhsil ocaqlarına gedib-gəlməkdən iki dəfə ucuz başa gəlir. “İvy league” adlanan nüfuzlu universitetlər qrupunun təmsilçilərində təhsil almaq ildə təqribən 50 min dollara başa gəlir. Adi ştat universitetində isə 20 min dollara. Bu fərqdən çıxış edərək “ucuz”larda təhsilin səviyyəsinin aşağı olduğunu düşünmək yanlış olardı. Məsələn, Berkli, Los-Anceles, San-Dieqo, Santa-Barbara və Deyvis universitetləri mütəmadi şəkildə dünyanın ən nüfuzlu 40 ali məktəbinin siyahısında olurlar. Massaçusets, Viskonsin, Miçiqan, Ayova, Şimali Karolina universitetləri də geri qalan deyillər. Müqayisə üçün belə bir misal gətirə bilərik: Viskonsin ştatının universitetinin məzunları arasında 13 Nobel mükafatçısı var. Miçiqan Universitetində isə 12 Nobel laureatı dərs deyib və yaxud deyir. Ştat universitetləri böyük tələbə ordusu üçün sosial lift missiyasını daşıyırlar. Arizona Universitetində 70 min tələbə təhsil alır. Minnesota, Florida, Texas və Ohayoda isə hərəsində 50 min!

**Bu gün Amerikada universitetlərin çiçəklənməsinin yeganə səbəbi artan ianələrdir. Maliyyə ehtiyatları heç vaxt olmadığı qədər çoxdur. Harvard Universitetinin fondu bir ilə 4,4 milyard dollar artmaqla 32 milyarda çatıb. Pristonun ehtiyatları 17 milyard təşkil edir. Ali məktəb fonddakı pulları “tərpədə” bilməz.**

### İanələr olmasaydı

ABŞ öz vətəndaşlarına uğur qazanmaq üçün bərabər hüquqlar verir. Ancaq artıq uğur qazanmışlara lap çox imkan yaradılır. Son 30 ildə Amerikada uğurlu vətəndaşla karyera və biznesdə xüsusi nailiyyətə imza ata bilməyənlər arasındakı uçurum böyüyür və dərinləşir. Bu qarşıdurmanı iqtisadiyyatla yanaşı, təhsil sferasına da tətbiq edə bilərik. Bu müddət ərzində “İvy league” universitetlərində təhsil haqqı 10 dəfəyədək artıb və bahalaşmaqda davam edir. Əməkhaqqındakı artımı bu bahalaşma ilə müqayisə etməyə dəyməz. Bu gün Amerika ailəsi ildə təqribən 45-50 min dollar qazanır. Təbii ki, bu ailənin övladının ildə 55 min dollar verib Kolumbiya Universitetində oxuması mümkünsüz olmasa da, çox çətin görünür.

Qiymətlər ştat universitetlərində də artır. İlə təqribən 7-8%. Səbəb budur ki, bir qisim sürətlə varlanır, dövlət isə kasıblayır. Nəticədə dövlət universitetlərinin maliyyələşmə prosesində sıxıntılar yaranır. Federal büdcədəki kəsir ildə trilyon dollara çatır. Konqres nə edir? İlk növbədə sosial xərcləri, elm və təhsilə ayrılan vəsaiti azaldır. Ştatlar, şəhər və bələdiyyələr səviyyəsində vəziyyət daha da bərbaddır. Kaliforniya artıq neçə illərdir müflislik həddindədir. Bu səbəbdən ölkənin ən yaxşı ali məktəbi olan Kaliforniya Universitetinə maliyyə dəstəyi getdikcə azalır. 1990-cı ildə ştat tələbələrin xərclərinin təqribən 79%-ni ödəyirdi. Hazırda 35-40%. 30 il əvvəl ştatın büdcəsinin 5%-i universitetlərə yönəldilirdi. İndi isə göstərici 3%-dən aşağı düşüb.

Xoşbəxtlikdən Amerikada universitetlər maliyyə baxımından tək dövlətdən asılı deyillər. Yoxsa vəziyyət həqiqətən də kritik olardı. ABŞ ali məktəblərinin məzunlar və onların ailələri, müxtəlif fondlardan ianə almaları normal haldır. Elə gəlirlərin də əsas qismi buradandır. Ali məktəblərin bəziləri xeyriyyəçiliklə məşğul olan şəxslər tərəfindən yaradılıb. Onlar mütəmadi olaraq məzunlara məktublar yazıb yardım istəyirlər. Məzunlardan 100-150 dollar verən də olur, milyonlar köçürənlər də.

Son zamanlar belə donorların sayı artıb. Yüksək texnologiyaların inkişafı və biznesin çiçəklənməsi məzun iş və elm adamlarının varlanmasına şərait yaradır. Bu isə məntiqi olaraq özünü onların ianələrinin məbləğində büruzə verir. Məsələn, Nyu-Yorkun keçmiş meri Mayk Blumberq Baltimordakı Con Hopkins Universitetinə 800 milyon dollar yardım edib. Blumberq iri donor sayılsa da, ən irisi və varlısı deyil. Universitet kampuslarında tikilən yataqxana, laboratoriya, xəstəxana və idman qurğularını əsas etibarilə məzunların yardımları hesabına ərsəyə gətirmək mümkün olur.

“İvy league”nin 8 üzvündən ən zəifi olan Kornel Universiteti Bill və Melinda Qeytsdən 25 milyon dollar həcmində ianə alıb. Vəsait müasir kibernetika və informatika mərkəzinin tikintisinə sərf olunub. Mərkəz Qeytslərin adını daşıyır. Universitetin digər məzunu Çarlz Fini isə vaxtilə oxuduğu təhsil ocağına 360 milyon dollar bağışlayıb. İstəyi budur ki, Kornel Nyu-Yorkda yeni silikon vadisinin tikintisində lokomotiv olsun.




Bu gün Amerikada universitetlərin çiçəklənməsinin yeganə səbəbi artan ianələrdir. Maliyyə ehtiyatları heç vaxt olmadığı qədər çoxdur. Harvard Universitetinin fondu bir ilə 4,4 milyard dollar artmaqla 32 milyarda çatıb. Pristonun ehtiyatları 17 milyard təşkil edir. Ali məktəb fonddakı pulları “tərpədə” bilməz. Xərclənən həmin vəsaitdən gələn faizlərdir. Faiz də nə faiz: hətta ən bahalı ali məktəbin belə tələbəsinə ayırdığı təqaüd dövlətin verdiyindən qat-qat çoxdur.



### Vergilər yüksək, təhsil haqqı ucuz

Amerika universitetlərində təhsil haqqı ölkədən kənarda da bahadır. Məsələn, Amerika Şarja Universiteti (BƏƏ) dünyada bu qəbildən ən bahalı ali məktəb hesab olunur. 1991-ci ildə yaradılan universitet Fars körfəzinin qloballaşma simvoludur. Paris Amerika Universitetində təhsil almağın bir ili 35 min dollara başa gəlir. Yeri gəlmişkən, qiymətlərlə bağlı Avropada vəziyyət necədir? Qərbi Avropada universitetlər dövlətdən ciddi məbləğdə subsidiyalar əldə edirlər və bu səbəbdən aşağı təhsil haqqı Amerikadakı vəziyyətlə müqayisədə gülüş doğura bilər. Hətta Kembric və Oksfordda belə, təhsil haqqı təqribən 6-7 min dollar həddindədir. “U.S. Government Accountability Office”nin məlumatına görə, İspaniyada söhbət təqribən 800-1000 dollardan gedir. Bu yerdə belə bir amili də unutmamaq lazımdır ki, Avropada vətəndaşlar ABŞ-la müqayisədə daha böyük məbləğdə vergi ödəyicisidirlər.

Bir çox postkommunist ölkələrində, Şərqi Avropa və Afrikada hökumətlər ikitərəfli təhsil haqqı siyasəti yürüdürlər. Siyasətin qısa məğzi bundan ibarətdir: ən yaxşı tələbələr pulsuz oxuyur, onlardan zəiflər isə təhsil haqqı ödəyir. Elə ölkələr var ki, güclü tələbə hərəkatlarının sol siyasi təşkilatlarla mövcud və ya mümkün alyansı hökumətlərin qorxulu yuxusuna çevrilir. Yaponiyada tələbələr üçün ən yaxşı proqramları dövlət universitetləri təklif edirlər. Belə ali məktəblərdə illik təhsil haqqı 7-8 min dollardır. Ancaq bahalı özəl təhsil ocaqları da var. Məsələn, 1874-cü ildə metodist-missionerlər tərəfindən yaradılmış Aoyama Qakuin Universitetində təhsil haqqı 11-16 min dollar təşkil edə bilər.

Bahalı təhsilin Qərb versiyası keyfiyyət göstəricisidir, yoxsa sosial bərabərsizlik? Çətin sualdır. Adları çəkilən və çəkilməyən yüzlərlə bahalı ali məktəblərdə şübhəsiz ki, olduqca güclü təhsil verilir. Ancaq belə ali məktəblərdə imkansız ailələrin təmsilçiləri çox azdır, barmaqla sayılacaq kasıb tələbələr bu universitetlərə hansısa limit, proqram və ya olduqca güclü savad hesabına düşürlər. Aşağı imkanlı ailələrdən savadlı gəncin çıxması isə olduqca çətin prosesdir, çünki bu yanaşma ali məktəblərdə olduğu kimi, ilkin və orta təhsil verən müəssisələrdə də mövcuddur. Ancaq nə etmək olar? Həyat belə qurulub. Sadəcə biznes...

---




# “Xaricdə təhsil” Proqramına qəbul başlandı

## Gənclər Fondu yeni müsabiqəyə start verdi

Oruc MUSTAFAYEV

Məlum olduğu kimi, Prezident İlham Əliyevin müvafiq fərmanı ilə ötən il təsdiq olunmuş “Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi”nə uyğun olaraq gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilinin maliyyələşdirilməsi Gənclər Fonduna həvalə olunub. Ölkə başçısının təhsil sahəsində apardığı islahatlar və davam edən genişmiqyaslı tədbirlər ölkəmizdə savadlı gənc nəslin yetişməsinə, təhsilin böyük nailiyyətlər əldə etməsinə gətirib çıxarıb.

Mayın 23-də Gənclər Fondunda keçirilən mətbuat konfransında çıxış edən qurumun icraçı direktoru Fərid Cəfərov dövlət başçısı İlham Əliyevin 1 fevral Gənclər Günündə gənclərlə görüşündə səsləndirdiyi “gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Çünki bugünkü dünyada bilik, savad ön plandadır” fikirlərinə istinad edərək insan kapitalının inkişaf konsepsiyasının təhsil sahəsində prioritet istiqamətlərdən olduğunu bildirib. Onun sözlərinə görə, ölkə başçısının həyata keçirdiyi gənclər siyasətinin başlıca istiqaməti gənclərimizin hərtərəfli inkişafıdır və bu, xüsusilə də təhsil sahəsində, onların xaricdə təhsilinin artırılmasında xüsusi önəm daşıyır. Azərbaycanın bir sıra ölkələrlə imzaladığı hökumətlərarası saziş əsasında gənclərimiz xaricdə öz təhsillərini ödənişsiz şəkildə həyata keçirirlər. Bu mənada ötən il ölkə başçısı tərəfindən təsdiq olunmuş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxaq rəqabətliliyinin artırılması üzrə” Dövlət Proqramında da əsasən gənclərimizin doktorant pilləsində xaricdə təhsilinin maliyyələşdirilməsi nəzərdə tutulub.

F.Cəfərov Gənclər Fondu tərəfindən gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilinin maliyyələşdirilməsi üzrə müsabiqənin elan olunduğunu bildirib. Bu barədə ətraflı məlumat verən F.Cəfərov qeyd edib ki, müsabiqə üzrə müraciətlər mayın 23-dən 23 iyun 2019-cu il saat 18:00-dək qəbul ediləcək. Müsabiqədə 16-29 yaş arasında olan Azərbaycan Respublikasının vətəndaşları magistr təhsil pilləsi üzrə prioritet ixtisaslar üzrə seçilən universitetlərdən hər hansı birinə daxil olaraq iştirak edə bilər.

Qurumun rəhbəri qeyd edib ki, ölkəmizin ixtisas və təhsil proqramları üzrə ehtiyacları və əmək bazarının perspektiv planına uyğun olaraq Gənclər Fondunun vəsaiti hesabına gənclərin Avropanın nüfuzlu ali təhsil müəssisələrində 74 ixtisas üzrə magistr təhsili maliyyələşdiriləcək. Maliyyələşdirilməsi nəzərdə tutulan ixtisaslar və ali təhsilin aparılacağı universitetlərin siyahısı Fondun saytında yerləşdirilib. Buraya əsasən kontinental Avropada olan və dünyanın top-500-lüyündə olan universitetlər daxildir. Həmçinin ABŞ və Böyük Britaniyanın dünya universitetlərinin ilk 100-lüyündə yer alan universitetlərinə daxil olaraq (artıq təhsil alan və ya oxumaq üçün dəvət alan) təhsil müəssisəsindən təqaüd alan və Fondun xaricdə təhsil üzrə müəyyən etdiyi meyarlara cavab verən gənclərin yaşayış, yol, sığorta və viza xərcləri də Fond tərəfindən maliyyələşdiriləcək. Müraciət etmək istəyənlər Azərbaycan Respublikasının Gənclər Fondunun rəsmi *(www.youthfoundation.az)* saytında qeydiyyatdan keçib, kod və şifrə əldə etdikdən sonra, saytın elektron xidmətlər bölməsində yerləşdirilmiş ərizə formasını müvafiq qaydada doldurub, sayt üzərindən Fonda göndərməlidirlər.

Qurumun icraçı direktoru qeyd edib ki, ayrı-ayı ölkələrdə təhsil haqları müxtəlif olduğundan maliyyələşdiriləcək gənclərin sayını konkret söyləmək çətindir, digər tərəfdən bu il proqram ilk dəfə olaraq Fond tərəfindən həyata keçirilir. Buna görə də gənclərin sayında müəyyən məhdudiyyətlərin olması ehtimal olunur. O əlavə edib ki, maliyyələşmə müraciətlərin sayına uyğun olaraq həyata keçiriləcək.

Onun sözlərinə görə, ixtisas seçimi ölkənin mütəxəssis ehtiyacına uyğun həyata keçirilir. Gənclər Fondu tərəfindən müvafiq dövlət qurumlarına müraciətlər ünvanlanıb və növbəti ildə ehtiyac duyulan ixtisaslar barədə məlumat verilməsi xahiş olunub. Əldə olunmuş rəylər əsasında 74 ixtisas üzrə xaricdə təhsilin maliyyələşdirilməsinə qərar verilib. İxtisas sahələrinə təhsil, humanitar, sosial, incəsənət, kənd təsərrüfatı və İKT qruplarına aid olan ixtisaslar aiddir.

Seçim meyarlarına gəldikdə, bu, hər istiqamət üzrə hazırlanacaq ekspert rəyi əsasında həyata keçiriləcək. “Qiymətləndirmələr ayrı-ayrı sahələr üzrə akademik ekspertlərlə yanaşı, müstəqil ekspertlər və həmin sahə üzrə ixtisaslaşmış dövlət qurumunun nümayəndələrinin iştirakı ilə həyata keçiriləcək. Və təbii ki, həm Gənclər Fondu, həm də xaricdə təhsil sahəsində uzunillik təcrübəsi olan Təhsil Nazirliyinin nümayəndələri də ekspert qruplarında olacaq”, - deyə F.Cəfərov bildirib. Onun sözlərinə görə, seçim meyarları müxtəlifdir. Təbii ki, tələbələrin bakalavr pilləsinə qəbul olarkən topladıqları baldan başlayaraq onların təhsil dövründə əldə etdikləri təhsil göstəriciləri nəzərə alınacaq. Xarici dil bilikləri üzrə verdikləri müxtəlif imtahan göstəriciləri də seçim zamanı əsas meyar kimi diqqətə alınacaq.